

**AMEA-da saçyoldu: alimlərə nəzarət itib və...**

Səh: 3-də



**Nifrətin xaç atası...**

*“Vətənə xəyanət etmək üçün ruhun ifrat dərəcədə alçaqlığı tələb olunur” - rus yazıçısı və filosofu Nikolay Çernışevski*

Səh: 5-də



**Firidun Şuşinski Mir Cəfər Bağırova Nəriman Nərimanov haqqında hansı xahişi etmişdir?**

Səh: 8-9-da

## Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!

www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com




№06 (2394) * 21 oktyabr 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# SOCAR-ın “Neftqaztikinti” trestində baş verənlər təəccüb doğurur






**Prezident Qazaxıstandadır**

Bax səhifə 2

**Zelenski Ukraynada münaqişənin mümkün sona çatacağını açıqlayıb** ✓2

**Azərbaycanda vəhhabi təhlükəsi** ✓4

**Bu yazıq taksilərdən nə istəyirlər?** ✓7

**Xətai rayonunun bir qrup sakini Eldar Əzizova müraciət edib** ✓10

**İran Aşıqlar Birliyinin qurucusu İran Musiqi Evinin sözçüsünü saxtakarlıqda ittiham etdi** ✓11

**İsa Həbibəylinin qızının Almaniyada milyon avrodan çox pulu... - OĞURLANDI!** ✓11

Bax səh.4

## Gediş haqqı artırıldı: sərnişinlərin dözümü tükənməz deyil!

Bax səhifə 10



SSRİ-nin dağılmasını ilk xəbər verən jurnalist Bakıda böyüyüb və...

Bax səhifə 13



Ramiz Mehdiyev: nankorluq və xəyanət anatomiyası - onun planında kimlər olub?

**Dünya mediası və Azərbaycan müxalifəti Putinin “AZAL etirafı” haqqında** ✓4



**Telman İsmayılovun hədiyyəsi** ✓3



**Ramiz Mehdiyevin Azərbaycanı ilə Bəxtiyar Sadıqovun “Azərbaycan”ı...** ✓6



# Prezident Qazaxıstandadır

**Azərbaycan Prezidenti İlham Əliyev bu gün Qazaxıstana dövlət səfərinə gedib.**

Astana şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlət başçısını Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayev qarşılayıb.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçib.

# Rusiya uşaqları təxribata cəlb etməyə görə ömürlük həbs cəzası tətbiq edə bilər




**Bu xarakterli cinayətlərə görə iddia müddətinin ləğv edilməsi də təklif olunur**

Dövlət Dumasının deputatları azyaşlıları təxribat fəaliyyətinə cəlb etməyə görə ömürlük həbs cəzasını nəzərdə tutan qanun layihəsi hazırlayıblar.

Tezadlar.az bildirir ki, bu barədə jurnalistlərə parlament palatasının sədr müavini İrina Yarovaya məlumat verib.

“Biz təxribat qruplarının təşkilatçıları üçün sadəcə olaraq azyaşlıların bu təhlükəli cinayət əməlinə cəlb edilməsi faktına görə ömürlük həbs cəzası təyin edirik”, - deyə deputat bildirib.

Onun sözlərinə görə, Volodinin başçılıq etdiyi Dövlət Dumasının deputatları bu gün təxribatla mübarizə haqqında qanun layihəsi təqdim edəcəklər. Dövlət Duması həmçinin təxribatla bağlı cinayətlərə görə məhdudiyyət müddətinin ləğvini təklif edir.

**E.ŞİRİNOV**

# Cənubi Qafqazdakı sülhü müzakirə etdilər



**Ermənistan Baş naziri Nikol Paşinyan Vatikanda Roma Papası XIV Leo ilə Cənubi Qafqazda sülh prosesini müzakirə edib.**

Bu barədə məlumatı Ermənistan hökumətinin Mətbuat xidməti yayıb.

“Tərəflər Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olmasını müzakirə ediblər. Papa bu istiqamətdə əldə olunan irəliləyişi alqışlayıb və regionda sülhün əməkdaşlıq, eləcə də sabitlik üçün yeni mərhələnin başlanğıcı olacağına ümid etdiyini vurğulayıb”, - məlumatda qeyd olunub.

# Noyabrda ardıcıl 4 gün iş olmayacaq



**Azərbaycanda gələn ay ardıcıl 4 gün iş olmayacaq.**

Tezadlar.az xəbər verir ki, 8 Noyabr Zəfər Günü, 9 Noyabr isə Dövlət Bayrağı Günüdür.

Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq, hər iki tarix şənbə və bazara təsadüf etdiyi üçün noyabrın 10-11-i də qeyri-iş günü olacaq.

Beləliklə, ardıcıl dörd gün - 8, 9, 10, 11 noyabr qeyri-iş günü olacaq.

# Peskov: Kiyevin ziddiyyətli bəyanatları sülhə töhfə vermir

**O qeyd edib ki, Rusiya prezidenti Vladimir Putinin mövqeyi ardıcıl və hamıya məlumdur.**



Kiyevin ziddiyyətli bəyanatları münaqişənin sülh yolu ilə həlli prosesinə kömək etmir.

Tezadlar.az xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov brifinqdə jurnalistlərə bildirib.

“Biz Kiyevdən çox ziddiyyətli bəyanatların gəldiyini görürük. Biz görürük ki, Kiyev rejiminin mövqeyi də ziddiyyətlərlə doludur. Bütün bunlar, təbii ki, sülh prosesinə töhfə vermir”, - o deyib.

Peskov vurğulayıb ki, Rusiya prezidenti Vladimir Putinin mövqeyi ardıcıl və hamıya məlumdur. Moskva Ukrayna böhranının həlli ilə bağlı bu mövzuda amerikalılarla ünsiyyətini davam etdirir və ciddi iş gedir.

“Kiyevdə müşahidə etdiyimiz bütün bu ziddiyyətlər, əlbəttə ki, bu prosesə kömək etmir, əksinə, onu çətinləşdirir”, - Kreml sözçüsü qeyd edib.

Bundan əvvəl Ukrayna prezidenti Vladimir Zelenski Kiyevin ərazi məsələlərində Rusiya ilə danışıqlara hazır olduğunu bəyan edib.

**E.ŞİRİNOV**

# Zelenski Ukraynada münaqişənin mümkün sona çatacağını açıqlayıb



**Ukrayna prezidenti Vladimir Zelenski respublikada münaqişəyə mümkün son qoyulacağını açıqlayıb.**

Tezadlar.az xəbər verir ki, onun sözlərini strana.ua yayıb.

“Bu müharibəni belə tez bitirmək olmaz. Müharibənin mümkün sonuna yaxınlaşırıq. Mən sizə əminliklə deyə bilərəm”, - Zelenski bildirib. Onun sözlərinə görə, ərazi məsələsi qeyri-müəyyən olaraq qalır, çünki Kiyev Donbasdan qoşunlarını çıxarmaqdan imtina edir.

Daha əvvəl Zelenski bəyan edib ki, Avropa liderləri ABŞ prezidenti Donald Trampdan “Tomaqavk” raketlərindən istifadə etməyi xahiş etmək istəyirlər.

**Xaliq**

# Müdafiə nazirinin keçmiş müavininin həbs müddətini uzadıldı

*İclas bağlı qapılar arxasında keçirilib*



**Moskva Şəhər Məhkəməsi Rusiya müdafiə nazirinin keçmiş müavini Timur İvanovun 1,3 milyard rubl rüşvət işi üzrə həbs müddətini yanvarın 23-dək uzadıb.**

Tezadlar.az-ın məlumatına görə, bu barədə REN TV-nin müxbiri məhkəmə zalından məlumat verib.

İclas bağlı qapılar arxasında keçirilib.

Bundan əvvəl Timur İvanovun 1,3 milyard rubl rüşvət işi üzrə istintaqın yekunlaşdığı bildirilirdi.

Sabiq nazir müavini 2024-cü il aprelin 23-də həbs edilib. İvanov 1,185 milyard rubl rüşvət almaqda ittiham olunur. Müstəntiqlərin fikrincə, o, Müdafiə Nazirliyinin obyektlərində işləyən podratçı şirkətlərin rəhbərləri ilə əlbir olub və onlara şəxsi təzminat müqabilində müqavilələr bağlayıb.

İvanovun vəkilləri iyulun 15-də onun “Interkommerts Bank”dan mənimsəmə və Kerç boğazı bərəsi üçün bərələrin alınması zamanı vəsaitlərin mənimsənilməsi ittihamı ilə bağlı hökmündən apellyasiya şikayəti veriblər.

İyunun 23-də bildirilib ki, dövlət ittihamçısı müdafiə nazirinin sabiq müavininin 14,5 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Onlar həmçinin məhkəmədən İvanovun əmlakının dövlətin xeyrinə müsadirə olunmasını xahiş ediblər.

İyulun 1-də Moskva Şəhər Məhkəməsi keçmiş müdafiə nazirinin müavinini 13 il müddətinə azadlıqdan məhrum edib. İvanov həmçinin 100 milyon rubl məbləğində cərimə edilib və dövlət mükafatlarından məhrum edilib.

**“Təzadlar”**

# Rusiya Hindistana neft tədarükünü davam etdirir



**ABŞ-ın mövqeyinə baxmayaraq, Rusiya-Hindistan neft ticarəti həcmləri dəyişməz olaraq qalır.**

Tezadlar.az xəbər verir ki, bu barədə TASS-a Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bildirib.

“Hər şey davam edir”, - o deyib. Rudenkonun sözlərinə görə, ABŞ prezidenti Donald Trampın əlavə rüsumlar tətbiq etmək hədəsi baş tutmayıb: Hindistan Rusiya yanacağını idxal etməyə davam edir.

Qeyd edək ki, Rusiyadan Cənubi Asiyaya karbohidrogen tədarükü nəinki dəyişməz qalır, hətta artır.

Oktyabrın 16-da Hindistan Xarici İşlər Nazirliyinin sözçüsü Randhir Caisval təsdiqləyib ki, Yeni Dehli Moskvadan neft almağa davam edəcək. Bu, ölkənin milli maraqlarına tam uyğundur və onun iqtisadi sabitliyini təmin edir.

**Ramiz**

# “Zelenski parlamentimə gəlsə, ayaqlarını sındıraram”



**Avropa Parlamentinin Rumıniyadan olan deputatı Diana Şoşoake Ukrayna Prezidenti Volodimir Zelenskinin ünvanına təhdidlər səsləndirib.**

Şoşoake bu barədə Rusiyaya səfəri çərçivəsində danışıb.

Onun sözlərinə görə, 2023-cü ildə Ukrayna liderinin Rumıniya parlamentində çıxışına əngəl olub:

**“O, mənim parlamentimə gəlməyə cəsarət etsə, ayaqlarını sındıraram! Zelenski mənim parlamentimdə çıxış etməməlidir. Nəyə görə “mənim parlamentim” deyirəm? Çünki Rumıniya konstitusiyasında deyilir ki, biz parlament üzvləri Rumıniya xalqının nümayəndələriyik və onun suverenliyini təmsil edə biləcək yeganə şəxslərik”.**

# ANAMA əməkdaşı Xocavənddə minaya düşdü-Ayağı kəsildi



**Ötən gün Xocavənd rayonunda mina hadisəsi baş verib.**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaydığı məlumata görə, işğaldan azad edilmiş Xocavənd rayonunun Tağaverd kəndi ərazisində oktyabrın 20-də mina hadisəsi qeydə alınıb. Ekskavator operatoru vəzifəsində çalışan Agentliyin əməkdaşı 1967-ci il təvəllüdlü Şirinov İlqar Vəli oğlu xidməti vəzifəsini yerinə yetirərkən baş verən piyada əleyhinə mina partlayışı nəticəsində xəsarət alıb.

Xəsarət alan şəxs hadisə yerindən təxliyyə edilərək, rayon xəstəxanasına çatdırılıb. Xəsarət alan şəxsin sağ ayağı topuq nahiyəsindən amputasiya edilib. Vəziyyəti stabildir.

# Nazir müavini vəzifəsindən azad edildi



**Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən azad olunub.**

Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Sərəncam imzalayıb.

Sərəncama əsasən, Xəyalə Dadaşova vəzifəsindən azad edilib.

Qeyd edək ki, X.Dadaşova bu vəzifəyə 2023-cü il fevralın 28-də təyinat almışdı. O eyni zamanda nazir səlahiyyətlərini də icra edirdi.

**...90-cı illərin əvvəlləri idi, bütün İttifaqda ara qarışıb, məzhəb itmişdi. Bakıda artıq Qara Yanvar faciəsi baş vermiş, qırmızı qərənfillərin genosidi gerçəkləşmişdi. Fürsətdən yararlanan, Bakıda qəbir gülləri statusuna qədər qiymətdən və hörmətdən düşmüş qərənfilləri Moskvaya daşıyıb varlanan işbazların gəlhagəli idi. Həmyerlimiz Telman İsmayılov da belələrindən biri, bəlkə də birincisi idi - Moskvada gül alverinə girişmişdi.**

# Telman İsmayilovun hədiyyəsi

*("Rusiya hekayələri" silsiləsindən)*



Mən onda Moskvada Qorki (indiki Tver) rayon milisində müstəntiq işləyirdim. "Belorus" dəmir yolu vağzalı və eyni adlı metrostansiyası bizim rayonun inzibati ərazisində yerləşirdi. "Belarus" metro stansiyasının arxasında kiçik bir gül bazarı vardı, burda bizim uşaqlar gül satırdı. Eşitdiyimə görə, bazarın müdiri (onda belə deyilirdi) İsmayılov əslən azərbaycanlı idi, amma onu şəxsən tanımırdım. Günlərin bir günü bu İsmayılovun vəkili mənə müraciət etdi, onun adından bir yerli kimi kömək istədi. Dedim, məsələni araşdırım, bir "zondlama" aparım, baxarıq.

Deməli, Moskva teatrlarından birinin uğursuz aktrisalarından biri "Belarus" metrostansiyasının arxasındakı gül bazarında öz premyerası üçün bahalı qızılgül buketi sifariş vermişdi. Amma aktrisanın adı yox, yaşı çox olduğundan buketin pulunu verən tapılmamışdı və satıcı ilə alıcı arasında konflikt yaranmışdı. Aktrisa bahalı buketi, faktiki olaraq, havayı almaq istəmiş və qarşı tərəfin haqlı müqavimət ilə üzləşmişdi. Nəticədə aktrisa qarşı tərəfi təhqir etmiş, onları "Moskvanın çörəyini yeyib, moskvalılara şıllaq atan" məlum ev heyvanı ilə müqayisə etmişdi.

Təbii ki, qarşı tərəf də borclu qalmamışdı və əməlli-başlı qarşıdurma yaranmışdı. Qarşı tərəfdən canfəşanlıq edənlərin biri də bazarın müdiri İsmayılovun bacısı, ya da qardaşı oğlu idi. Aktrisa da məhz ondan Milis idarəsinə şikayət etmiş, gül almağa gələrkən bazarda pozğun satıcılarla rastlaşdığını, seksual təkliflər aldığını ərizəsində göstərmişdi.

Xülasə, məsələ "bir buket qızılgül"ün miqyasından çıxmışdı, xeyli təhlükəli hal almışdı. Təcili şöbə rəisinin yanına getdim, həmyerlimin işinin mənə verilməsini xahiş etdim. Cəncəlli məsələ olduğundan rəis tez razılıq verdi.

Bir xeyli fikirləşdim, əvvəl həmin şikayətçi aktrisanı dəvət etdim. Xanımın xarici görünüşü, uğurlu rolları, anşlaqları barədə (Moskvada hamı teatra gedir) bir-iki yüngül komplimentdən sonra mətləbə keçdim. Dedim, xanım, siz çox cavan görünmürsüz, amma sizə seksual təklif edən satıcının heç 30 yaşı yoxdur, bildiyim qədər, sizin qızınızla yaşıddır. Onun dayısı Moskvada tanınan, imkanlı adamdır, artıq yaxşı bir vəkil də tutub. Siz mənə deyin görək, Moskva kimi bir yerdə cavan, yaraşıqlı və imkanlı bir gəncin anası yaşda qadına seksual təkliflər etdiyinə məhkəməni inandırmaq olarmı? Həm də siz bütün Moskvada tanınmış, məşhur aktrisasız, bu lazımsız səs-küy, adınızın mətbuatda hallanması sizə lazımdırmı?!

Mənim təəccübümə rəğmən, xanım mənə diqqətlə qulaq asdı, sözlərimlə razılaşdı. Amma qayıtdı ki, işi belə qoymaq olmaz, axı, onlar məni təhqir ediblər. Dedim, səhv ediblər, artıq səhvlərini başa düşüblər. Siz zəhmət olmasa, bizim rəisin adına bir ərizə yazın ki, onları bağışlayırsız, artıq şikayətçi deyilsiz. Onlar da həmin buketi, yox, ikisini cərimə kimi sizin evinizə gətirərlər və Moskvanın ən böyük aktrisalarının birindən üzr istəyərlər. Aktrisa iki qızılgül buketi haqqında söhbəti eşidəndə gülümsədi, dedi, evimə yox, bazar günü tamaşadan sonra teatra, mənim adıma gətirsinlər. Razılaşdıq, xanım barışıq ərizəsi yazdı və getdi.

Bir neçə gündən sonra İsmayılovun vəkili yanıma gəldi. Mənə konvertdə yerlimizin adından pul gətirmişdi. Onu əvvəlcədən də tanıyırdım, abrını ətəyinə büküm. Dedim Telmanla biz azərbaycanlıyıq, qürbətdə yaşayırıq, bir-birimizə kömək etməyə borcluyuq. Amma İsmayılov əl çəkmədi, şəxsən zəng etdi, məni ofisinə dəvət etdi. Yerliyik deyə getdim, həm də şəxsən tanış olmaq istəyirdim. Ofisi "Belarus" vağzalının yaxınlığında, "Malaya Qruzinskaya" küçəsində 5 mərtəbəli binanın 1-ci mərtəbəsində, 3 otaqlı mənzildə yerləşirdi.

O vaxt hələ cah-cəlal yox idi, amma mühafizəsi, katibəsi vardı. İsmayılov məni gülərüzlə qarşıladı, xeyli söhbət etdik (azərbaycanca salamlaşsaq da, rusca danışırdıq). Fransa konyakını İsveçrə şokoladı ilə nuş etdik. Konyakla şokolad da, bilirsiz, bir qoşqudakı iki cins at kimi yaxşı gedir. Biz hələ üstündən ətirli "Pele" kofesi də içdik. Ayrılanda dedi, sənə qardaş, bir yurddaş ("zemlyak") kimi bir hədiyyəm var, Telmandan Arifə yadigar olsun.

Etiraz etmədim, mənə üstü şəkilli paketin içində bir qutu verdi. Evdə açdım, Telman İsmayılovun "ekstrasensliy"inə heyrət etdim. O vaxt eşitmişdim ki, Mixail Qorbaçov ağ qızıldan "Omega" taxır. Mən də istəyirdim... Amma qara bazarda 3-4 min dollar (indiki kursla 10 min) idi...

**Qalib ARİF**

# AMEA-da saçyoldu: alimlərə nəzarət itib və...

**Ötən gün Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda (direktor Nadir Məmmədli) beynəlxalq idman oyunlarında adı hələ ki siyahıya salınmayan "Saçyoldu-idman yarışı" baş tutub. Təsadüfən AMEA-da olan əməkdaşımızın şahid olduğu hadisədən bəlli olur ki, institutun tanınmış dilçi alimi, şöbə müdiri Nərgiz Hacıyeva ilə şöbənin əməkdaşlarından biri arasında qalmaqal və ardınca saçyoldu başlayıb. Hadisə o dərəcədə səs-küylü olub ki, səhhəti pisləşən şöbə müdirinə görə əraziyə təcili yardımla həkim briqadası çağrılıb (Fotosu təqdim edilir).**




Təəssüflənirik... Məsələ ondadır ki, AMEA alimlər ocağı sayılır və çox-çox təəssüflər olsun ki, İsa Həbibbəyli AMEA prezidenti olandan bu elm məbədində alimlərin adı əsasən qalmaqalda, saçyolduda, əlbəyaxada... hallanır. Ötən gün baş verən və təəssüf hissi doğuran hadisə isə məhz İsa Həbibbəylinin direktoru olduğu Ədəbiyyat İnstitutunun yerləşdiyi mərtəbədə baş verib. İsa müəllim o qışqırıq və səs-küyü eşitməyibmi?! Niyə alimlərimizin adı elmi ixtira və kəşflərdə, səmərələşdirici təkliflərdə deyil, belə qalmaqallarda çəkilir?!

Yeri gəlmişkən, elə biz də media olaraq bir səmərələşdirici təklif veririk: Gülməli də olsa, deyirik, bəlkə İsa müəllim AMEA-da bir idman zalı da açdırsın və "Saçyoldu idman oyunu"nu Beynəlxalq İdman Assosiasiyasına müraciət edərək beynəlxalq yarışlar siyahısına saldırsın. İnanırıq ki, AMEA bu "idman növündə" birinci yer tutacaq. Çünki hiss olunur, elm ilə başını qatmalı olan alimlərimiz bu sahədə stimul görmədiklərindən başqa sahəyə keçiblər...

Yeri gəlmişkən, idman indi qazanclı və populyar sahə sayılır. Alimlərimizin də maaşı qəpiq-quruşdur axı...

**"Təzadlar"**

# SOCAR-ın "Neftqaztikinti" trestində baş verənlər sensasiya doğurur

*Trestin işçiləri- Zakir Şirinov, Firidun Əliyev, Günel Ramazanova, Ramil Ağayev və daha bir neçə nəfər işə qəbul imtahanlarındakı saxtakarlıqdan Baş ofis əvə Ziba xanım Mustafayevaya şikayət yazıblar, amma eşidən yoxdur. Niyə yoxdur, çünki trestdə SOCAR rəhbərliyinin deyil, trestin müdiri Qağaməli Seyfullayevin öz qayda-qanunları var...*



**Beləliklə, "Təzadlar"ın Araşdırma Qrupu daxil olan bu və ya digər məlumat, yaxud şikayətləri təhlil edərək araşdırmalara başlayıb... bəri başdan bildiririk ki, bəzi sənəd və məlumatları dəqiqləşdirmək üçün bir daha aidiyyəti rəsmi qurumlara media sorğusu formasında göndərmişik, bəzilərinə isə artıq rəsmi cavab da almışıq. Amma təəssüflənirik ki, ən azından, Qağaməli Seyfullayev ədalət və haqq deyilən o müqəddəsləri bir kənara atıb, öz bildiyini etməkdədir. Bircə faktı deyək ki, uzun illər bu trestdə can qoymuş, yetişmiş, öyrənmiş, peşəkarlaşmışları bir kənara atıb özünə yaxın qohum-əqraba, dost adamları, yaxud dostlarının adamlarını necə məsul və yüksək maaşlı işlərə götürüb əmr verə bilir?**

Araşdırmalarımıza rəsmi sənədlər, əmrlər, dəqiq məlumatlar daxildir. Baxırıq və bircə sual verməli oluruq: Ramiz Mehdiyevin də taleyindən dərs götürə bilmirsiniz??? Nə vaxta qədər ədalətsizlik ayaq açıb trest boyu addımlayacaq???

***

İndi gəlirik mətləbə: bəli, çoxsaylı işçilər işə qəbulla bağlı aparılan imtahanlardakı saxtakarlıqlardan baş ofisə şikayətlər ünvanlayıblar. Amma hələki heç bir nəticəli tədbir görülməyib. Halbuki trestin müdiri Q.Seyfullayev yaxşı bilir ki, SOCAR-ın İnsan Resursları Departamentinin müdri, SOCAR-ın Vitse-Prezidendi Ziba xanım Mustafayeva bu ədalətsizliyi bilsə, bağışlamayacaq. Çünki trest rəhbərliyi ədalətsiz hərəkətlərini bəzi hallarda "Ziba xanım tapşırıb..." kimi süni bəhanələrlə örtbasdır etməyə çalışır. Və Z.Mustafayevanın adından çox istifadə edilir...

Odur ki, çox hörmətli Z.Mustafayevanın barəsində ədalətli məmur xanım imicini eşidib-bildiyimizə görə, ilk növbədə istərdik ki, Z.Mustafayeva bu faktları bilsin və tədbir görülməsinə çalışılsın: məsələ ondadır ki, "Nefqazintikinti" trestinin müdiri Qağaməli Seyfullayev təkcə öz yaxın qohum-əqrabalarını deyil, həm də yeznələrini, kürəkənlərini, bu da bəs etməyib, hətta kürəkəninin qohumlarını da burada işlə təmin edib-illərdir dərəcəsini, işini, dəyişməyk istəyənlər dura-dura! Məsələn, bacısın həyat yoldaşı Nazim Sadatovu "Qaz İxrac İdarəsi"ndən özü ilə gəzdirib, kürəkən olduğundan onu tez bir zamanda vəzifəyə ucaldıb.

"Təzadlar"ın əldə etdiyi məlumatlardan bəlli olur ki, SOCAR-ın Baş ofisinə ünvalanan(göndərilən) şikayətlərdə Q.Seyfullayevin sağ əli hesab olunan, trestin İnsan resursları şöbəsinin rəisi Aqşin Hüseynzadənin rəhbərliyi altında keçirilən bütün işə qəbul və yerdəyişmə prosedurları necə gəldi saxtalaşdırılıb və s. Məsələn, hələlik bircə faktı deyək ki, "lazımı" adamlara işə qəbul və ya yerdəyişmə keçirilən zaman verilən suallar və onların cavabları öncədən ötürülür... Nəticədə həmin şəxs video çəkiliş zamanı keçirilən imtahanda dil-dil ötür və bütün suallara cavab verir.

Başqa bir məlumatı da qeyd edək ki, saxtalaşdırılma prosesi SOCAR-ın Baş ofisin İnsan Resursları Departamentindəki heləki adını çəkmək istəmədiyimiz şəxsin əli ilə birgə həyata keçirilir. Bütün bu "qara" işlərin yerinə yetirilməsində isə A.Hüseynzadənin müavini Şahin Qürbətovun rolu böyükdür. Bütün trest və kənar təşkilatlar Ş.Qürbətovu çox yaxşı tanıyır. Kim yerdəyişmə, işə qəbul olunmaq istəyirsə, Qürbətovu axtarib tapır və...

***

Bu hələ harasıdır, trestdə yüzlərlə müvəqqəti layihələr üzrə işə götürülmüşlər var. Amma nədənsə Şahin Qürbətovun qardaşı Samir Qürbətov çalışdığı bir il ərzində müvəqqətidən daimiyə, sonra isə dənizə-diqqətdən uzaq bir yerə göndərilir. Gözdən pərdə asmaq və hesabat xatirinə aparılan bir video çəkilişlə imtahan təşkil olunur ki, nədənsə, imtahanı keçən adamlar onlarla öncədən tanış olan və bir-birini yaxşı tanıyan adamlar olur. Bunu sübut etmək üçün isə işə qəbul olunan şəxslərin kimlərlə zəngləşməsi və bu şəxsin isə öz növbəsində kiminlə əlaqə yaratmasını araşdırmaq kifayətdir (bir çoxunun bu əlaqələri redaksiyaya bəlli olub). Bu adları qeyd olunan şəxslərin, onların həyat yoldaşlarının, qohum-əqrabalarının adlarına olan əmlaklar, maşınlar araşdırılsa, hər şey aydın olar. Məsələn, A.Hüseynzadənin nə üçün formal surətdə həyat yoldaşından ayrılmağı şübhə doğuran məsələdir. Bunun səbəbini trestdə bilən yoxdur ki?! Bunu araşdırmaq isə hüquq mühafizə orqanlarının işidir. Bu və ya digər neqativlər o qədər çoxdur ki, bir yazı ilə sonlandırmaq mümkün deyil. Aylar lazımdır ki, bu neqativ hallar barədə yazıb çatdırasan. Məsələn, İRŞ üzrə rəis müavini yeri nədən bir il boş vakansiya kimi saxlanılıb və necə olur ki, SOCAR-a kənar təşkilatdan gəlmiş Murad Bəkizadənin iş stajı bir il tamam olan kimi vakansiya sayta çıxarılır. Dərhal "imtahan" təşkil olunur, M.Bəkizadə həmin yerə təyin olunur?

Bizcə, çox sadə sualdır, amma cavabını trest rəhbərliyindən və Baş Ofisdən istərdik. Bəlkə nəsə fərqli izah olacaq!

Başqa bir misal: necə olur ki, 18 il izolyasiyaçı kimi çalışan Hafiz Cəmilov peşə sınaq imtahanından keçə bilmir, amma 3 il gözətçi işləyən Yusif Abdullayev imtahandan "5" alır?! Hal-hazırda trestdə İnsan Resursları Departamenti yaradılıb. Lakin anlaşılmayan bir şey var ki, işçi sayı eynidir, ancaq rəislər və onların məvacibləri qəfildən artıb. Əgər kimlərinsə imtiyazların, məvaciblərin artırmaq üçün departament yaradilibsa, bəs niyə Vitse-Prezident Ziba xanım Mustafayeva trestin müdiri Qağaməli Seyfullayevdən niyə də soruşmasın ki, bu qədər rəhbər işçiləri olan departamentdə bəs işi kim görəcək? Elə hamı müdirdir, rəhbərdir?!

Aidiyyəti rəsmi qurumdan isə araşdırmalarımıza belə bir izah aldıq ki, əslində, bu depatamentin yaradılması zamanı ştatlar və keçirilən müsabiqələr eyni ssenari üzrə yaradılb... Bu barədə ətraflı yazı maddi sübutlar ilə təqdim ediləcək.

Beləliklə, bu və ya digər məsələlərlə bağlı "Media haqqında" Qanunun tələblərinə uyğun olaraq bu siqnal xarakterli yazını münasibət bildirilməsi üçün iki gün əvvəl "Neftqaztikinti" Trestinin müdiri Q.Seyfullayevin elektron poçtuna göndərmişik. Təbii ki, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq cavab verilməsini gözləyirdik. Cavab gəlmədi, bu gün təkrarən göndəririk.

**"Təzadlar"ın Araşdırma Qrupu**



# Azərbaycanda vəhhabi təhlükəsi

*Qərb mənbələri yazır ki, Səudiyyə Ərəbistanı Vəhhabi və Sələfi inancının yayılması üçün son 50 ildə on milyardlarla dollar xərcləyib. İndi isə hər il bu xərclər ciddi şəkildə artır. Son bir neçə ildə bu xərclər 6 milyard dolları aşıb. Özü də yerli iş adamları da özfəaliyyət formasında bu işə ciddi paralar xərcləyirlər...*

**Belə bir məşhur deyim də var ki, hər bir sələfi vəhhabidir, ancaq hər vəhhabi sələfi deyil. Mahiyyətdə vəhhabilik sələfiliyin ən radikal formasıdır...**

Bəs nədən son 50 ildə Səudiyyə Ərəbistanı bu işləri görür? Çünki 50 il əvvələ kimi Səudiyyə dünyanın ən kasıb ölkələrindən biri idi.

Məsələn, dünyaca məşhur "time.com" saytında gedən məqalələrin birində belə deyilir: "Müstəqim Əzmi 1953-cü ildə ilk dəfə həcc ziyarətinə görə dəniz üzərindən Hindistandan Ciddəyə yorucu səyahət etmişdi. Şəhərə daxil olanda o, özünü kasıb bir ölkəyə enən varlı adam kimi hiss etmişdi. Bədəvilər ziyarətə gələn müsəlman qardaşlarını qarşılamaq və sərnişinlərin onlar üçün saxladıqları bayat çörəyi havada tutmaq üçün limanlara axışırdılar. "Onlar çox ac idilər" deyə Əzmi xatırlayır. Lakin OPEK-in yaradılması və 1973-cü il Ərəb-İsrail müharibəsindən sonra neft qiymətlərinin qalxması ilə Səudiyyə Ərəbistanı dünyanın ən varlı ölkələrindən birinə çevrildi. İndi ÜmumHindistan Ulama Şurasının baş katibi olan Azmi deyir: "Bu gün biz yoxsullarıq". "Səudiyyə Ərəbistanının köməyinə ehtiyacı olan bizik"...

Mətləbə keçmək üçün bir az uzaqdan başlamalı oldum. Mustafası budur ki, Səudiyyə Ərəbistanının Vəhhabiliyin yayılması üçün səpələdiyi pullar Azərbaycanda da öz işini görüb. Artıq Azərbaycanda ciddi qüvvəyə çevrilmiş vəhhabi camaatı var. Hər ötən il onların sayı və sanbalı artır.

Düşünün ki, dədə-babadan şiə olanlar Səudiyyənin səpələdiyi pullardan pay almaq üçün şiəliyə arxa çevirirlər. Belə bir aqibət yaşayanlar arasında Azərbaycanın siyasi elitasının ən təpəsində olan oğru məmurların övladları da yer alır. Məsələn, Bakı Şəhəri İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbov oğlu Azərbaycanda bərkgedən vəhhabilərdən biri kimi tanınırdı. İş o yerə çatmışdı ki, İsrafil Abutalıbov adını dəyişərək Abu Bəkr Abutalıbov olmuşdu. Özü də atası Bakının meri olanda bunu etmişdi. Üstəlik, atası da daxil olmaqla bütün yaxınlarından tələb edirdi ki, onlar da Allah yoluna gəlsin, yəni vəhhabi olsun. Bakıda bir yəhudi iş adamı vardı, hətta onu da vəhhabi etməyə çalışırdı... Vəhhabiliyin Azərbaycanda geniş yayılması məsələsi Cabir İmanovun vəfatından sonra yenidən gündəmə gəldi. Bir daha bəlli oldu ki, o da vəhhabidir və elə vəhhabi qaydası ilə də dəfn olundu. Bir düşünün, uzun müddət Daxili İşlər Nazirliyində və Dövlət Təhlükəsizliyi Xidmətində yüksək vəzifədə işləyən adam vəhhabiymiş. Məncə, bu son dərəcə yanlış bir şeydir. Bir gün gözümüzü açıb görəçəyik ki, Azərbaycanda strateji xarakterli vəzifələrdə vəhhabilər lövbər salıb. Bu məsələ dövlətin təhlükəsizliyi məsələsi ilə birbaşa bağlıdır. Nədənsə, bizim başbilənlər belə önəmli məsələyə məhəl qoymayıblar...

Mən Azərbaycanda mövcud olan dini tolerantlığı yüksək dəyərləndirirəm. Azərbaycanın fəxr edə biləcəyi dəyərlərdən biri məhz budur. Şiələrlə sünnilərin eyni məsciddə namaz qılması da, anlaşma içərisində-qarşılıqlı hörmət əsasında yaşaması da möhtəşəmdir. Təəssüf ki, hələ də İslam Dünyasının bəzi yerlərində müsəlmanı müsəlman sünni və ya şiə olduğuna görə sorğu-sualsız öldürür. Belə bir fonda Azərbaycan ortaya islama başucalığı gətirən nümunə qoyur...

Mövzudan kənar olsa da deyim ki, bu məsələ ilə bağlı bəzi materiallar baxanda məlum oldu ki, 2015-ci ildə verdiyi müsahibədə cənab İmanov polisin "çox maraqlı bir iş olduğunu", eyni zamanda "bəzən tamamilə günahsız insanların həbsxanaya düşdüyünü" etiraf etmişdi...

**Elbəyi HƏSƏNLİ (Surix)**

# Gediş haqqı artırıldı: sərnişinlərin dözümü tükənməz deyil!

*Avtobus və metro bahalaşdı, amma maaşlar eyni qaldı - yük yenə xalqın üzərindədir...*




**...Bax beləcə, yenə də "şad xəbər" aldıq - metroda və avtobuslarda gediş haqları artırıldı. Rəsmi izahda deyirlər ki, guya bu artım "maliyyə dayanıqlığının güclənməsinə, ekoloji təmiz avtobusların istifadəsinə və sərnişindaşımada şəffaflığa" müsbət təsir edəcək. Yəni, bunun tərtəmiz mənası belədir ki, bizim cibimizdən çıxan pulla onların şəffaflığını artıracaq, ekologiya təmizlənəcək, xidmət yaxşılaşacaq.**

Sanki bizim cibimiz bəzi qurumların universal açarıdır - nə desən, ordan çıxmalıdır. Bəs belə bir sual: niyə hər yaxşılıq vətəndaşın cibinə zərbə vurmaqla başlamalıdır? Əslində isə həqiqət çox sadədir: xalqın cibinən girmək ən asan yoldur. O cibdə isə qu desən, qulaq tutular! Orda pensiya var, banklara kredit borcları var, işıq pulu var, qaz və su pulu var, məktəblərə fond pulu var, internet pulu var...

Dayan! Axı bizim Büdcəmiz də var, sərvətlərimiz var, bəs maaşlar? Burda düz yox, tərcmütənasiblik meydan sulayır! Təqaüdlər artırmı? Yox! İnsanların gündəlik qazancı eyni qalır, amma gediş haqqı qalxır.

Axı bu marşrutlardan əsasən kasıb təbəqə istifadə edir. Və əziyyəti sadə insan çəkir. Şəxsi maşını olan, yüksək maaş alan zatən avtobusa minməz. Amma gündə 4-5 dəfə övladını məktəbə, hazırlığa göndərən ailə nə etsin? 10 qəpik belə onlar üçün böyük puldur.

Yeni tariflərə əsasən, metroda bir gediş haqqı 60 qəpik müəyyən olunub. Avtobuslarda isə müasir tələblərə cavab verən, kart sistemi ilə işləyən marşrutların aşağı həddi 60 qəpik olub. Məsafədən asılı olaraq qiymətlər 90 qəpik, 1,20 manat, 1,40 manat və 1,50 manata qədər dəyişir.

Dedim, rəsmi izahatda bildirilir ki, tarif artımı maliyyə dayanıqlığının gücləndirilməsi, avtobus parkının yenilənməsi, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin istifadəsinin təşviqi və sərnişindaşıma xidmətlərində şəffaflığın artırılması və s. məqsədi daşıyır. Ancaq bu, əslində vətəndaşların cibinə əlavə yükdür. Yəni, ekoloji təmizlik də, şəffaflıq da, xidmətin yaxşılaşdırılması da birbaşa insanların ödədiyi əlavə qəpiklərin hesabına baş verir. Uzun müddətdir müzakirə olunan bu artımlar indi reallığa çevrilib.

İnsanların maaşları, pensiya və təqaüdləri artmadığı halda, gediş haqqının qaldırılması sosial vəziyyəti daha da çətinləşdirir. Adi ailələri düşünək: uşaqlarını məktəbə, hazırlığa göndərən, gündə bir neçə dəfə marşrutdan istifadə edən insanlar bu artımı necə qarşılayacaq? Bu gün gediş haqqı qalxır, sabah isə ərzaq məhsulları bahalaşır. Onsuz da gündəlik bazarda qiymətlər hər gün artır: ət, süd, çörək, yem məhsulları - hamısı yüksəlir.

Məsələ ondadır ki, dövlətin kifayət qədər gəlirləri, büdcəsi və təbii sərvətləri olduğu halda, bütün yük vətəndaşların üzərinə qoyulur. Maaşlar artmadan, sosial vəziyyət nəzərə alınmadan hər dəfə qiymətlərin qalxması insanları çıxılmaz vəziyyətə salır. Bu qərarlar cəmiyyətdə belə bir sual doğurur: doğrudanmı AYNA millət üçündür, yoxsa millət AYNA üçün?

Rəsmi açıqlamalarda "şəffaflıq", "ekologiya", "dayanıqlılıq" kimi gözəl sözlər işlədilir. Amma əslində bu, kasıb təbəqənin belini qıran yeni bir yükdür. Çünki imkanlı adam maşınına minib gedir, olan yenə də avtobus və metrodan istifadə edənlərə olur. Əlavə suallar da var: niyə bəzi rəsmi qurumlar üçün dövlətin büdcəsi, təbii sərvətləri, gəlirləri xalqın sosial yükünü azaltmaq üçün deyil, əksinə, artırmaq üçün "əsaslandırıcı arqument"ə çevrilir? Niyə hər dəfə bahalaşma məhz insanların cibindən qarşılanır?

***

Bax belə. Biz də hər dəfə təəccüblənirik, amma sonda susuruq. Çünki xalqımız dözümlüdür. Amma bir sual var: birdən o dözüm tükənsə, onda necə olacaq? Yəqin o zaman "əsəblərin qaldırılması xidmət haqqı" adlı yeni tarif də tətbiq edilə bilər. Çünki AYNA-dan nə desən gözləmək olar... Bakının bütün küçə və prospekti isə xalqa yox, AYNA-ya parklama və BUS-lama... kimi xidmət etməkdədir. Sanki Bakı AYNA-nın ulu babasından miras qalıb...

**Elşad FƏRMANOĞLU**

# Dünya mediası və Azərbaycan müxalifəti Putinin "AZAL etirafı" haqqında

*Ay qurban olum sizə, arada bir dünyanın media nəhənglərinə də nəzər salın*



**..."The Guardian", "Sky News", "CNN", "The Moscow news", "Meduza", "The İndependent", "Al Jazeera", "Euronews", "Radio Free Europa/Radio Liberty", "Gazeta Express"... Bu sadaladığım media orqanlarının manşeti (məqalənin əsas başlığı) belədir: "Putin says Russian air defenses responsible for Azerbaijani jet's crash last year, killing 38" (Ötən il 38 nəfərin ölümünə səbəb olmuş Azərbaycan təyyarəsinin qəzaya uğramasında Rusiyanın hava hücumundan müdafiə qüvvələrinin məsuliyyət daşıdığını Putin dilə gətirib. Bəzi başlıqlarda isə "etiraf edib" kimi gedib).**

Diqqət edin, təqdim etdiyim siyahıda Rusiya mətbuatı da var.

Məsələn, "The Moscow news"un başlığı belədir: "Russian Missiles Exploded Near Azerbaijani Plane That Crashed Last Year, Putin Admits" (Rusiya raketləri keçən il qəzaya uğrayan Azərbaycan təyyarəsinin yaxınlığında partlayıb, Putin etiraf edib).

"Meduza"nın başlığı isə belədir: "Putin admits Russian air defenses downed Azerbaijan Airlines flight last year, killing 38" (Putin etiraf edib ki, Rusiya hava hücumundan müdafiə qüvvələri keçən il Azərbaycan Hava Yollarının təyyarəsini vurub, 38 nəfər həlak olub)...

Bizim müxalifətçilər də Əli Kərimlinin sözünə qüvvət vermək məqsədi ilə özünü öldürür ki, Vladimir Putin-İlham Əliyev görüşündə Rusiya millimetr də olsa geri çəkilməyib...

Ay qurban olum sizə, arada bir dünyanın media nəhənglərinə də nəzər salın. Bir görün ki, başına and içdiyiniz Qərb bu məsələni necə dəyərləndirir...

**Elbəyi HƏSƏNLİ, Surix**

# Nifrətin xaç atası...

*"Vətənə xəyanət etmək üçün ruhun ifrat dərəcədə alçaqlığı tələb olunur" - rus yazıçısı və filosofu Nikolay Çernışevski*

**Ötən həftə ölkə gündəmini zəbt edən və bütün diqqəti öz üzərinə cəmləyən hadisə baş verdi: çoxlarının odda yanmaz, suda batmaz zənn etdiyi Ramiz Ənvəroviç Mehdiyev barədə Səbail Rayon Məhkəməsi xüsusilə ağır cinayət əməllərinə görə 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri qərarını bəyan etdi. O, Azərbaycan Cinayət Məcəlləsinin 274 (dövlətə xəyanət), 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) kimi dağdan ağır maddələri ilə ittiham edildi. Məlum olduğu kimi, həmin məlumat rəsmi mənbələrdə dərc edilib ictimaiyyətə geniş çatdırılmasa da, KİV-ə sızdırıldı...**



Bəs, düz 24 il (1995-2019-cu illərdə) AR Prezident Administrasiyasına rəhbərlik etmiş, 81 yaşında təmtəraqla, təltiflə, yaşı-başı, xətri əziz tutularaq, incidilmədən yola salınmış və bu yaşında belə kreslo öyrəncisi, əmr vermək sevdalısı vəzifəsiz qoyulmamış, elm ocağına - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (2019-2022-ci illər) təyin edilmiş Ramiz Mehdiyevin ağır cinayətlərdə ittiham edilməsi məsələsi ictimaiyyəti təəccübləndirdimi?! Əsla! Bir çoxu bunu çoxdan gözləyirdi. Sadəcə, bu anın reallaşma, yəni cinayət məsuliyyətinə gec cəlb olunma məsələsi daha çox müzakirəyə çıxarıldı. Bu barədə daha sonra...

Onun barəsində hər küncdə-bucaqda danışılırdı. Çoxu bu heybətli adamın adını çəkməkdən belə qorxurdu. Sanki hər yerdə gözü- qulağı vardı... "Kəsdiyi başa sorğu-sual yoxdur" deyilirdi... Lakin bütün qorxu-hürküyə baxmayaraq, mətbuatda, bəzi internet televiziyalarında bu "boz" adamın "fəaliyyəti" gündəmə gətirilir, ara-sıra müsahibələr, şikayətlər dərc edilir, sosial şəbəkələrdə müzakirə obyektinə çevrilir (administrasiyadan uzaqlaşdırıldıqdan sonra bu daha da artdı) və onun yüksək səlahiyyət, söz sahibi olmasından, rəsmi dövlət kanalına rəhbərlikdən, baş redaktorluqdan tutmuş, deputat, icra başçısı, nazir... təqdimatlarında və təyinatında böyük rol oynamasından, ətrafına bir kəlməsini iki etməyəcək komanda yığması, milyardlara sahib olması, Rusiya ilə bağlılığı açıqlanırdı. Hətta bir çox deputatlar (sabiq vəzifəlilər) belə onun tənqidçisinə çevrilmişdi... Son dövrlər isə Ramiz Mehdiyev bu sel axınının qarşısında sanki gücsüzləşmişdi, onları hədələməkdən başqa çarəsi qalmamışdı..

Elə qəflətən ev dustaqlığı xəbəri yayılan anındaca illərdir yığılıb qalmış arxivlər açıldı, Ramiz Mehdiyev və ətrafı ilə bağlı xəbərlər paylaşılmağa başlanıldı. Məlum olduğu kim, onu indi yaşının bu çağında məhkum kürsüsünə götürən isə təkcə var-dövlət sahibi olması deyil, ən dəhşətlisi - dövlətinə xəyanət etmək idi!

İttiham edildiyi üç maddədən biri:

**«274-cü maddə - Dövlətə xəyanət:**

Dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə əmlakı müsadirə olunmaqla və ya olunmamaqla on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**278.1.** Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər- on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**193-1.3.2.** xeyli miqdarda törədildikdə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə , əmlakı müsadirə olunmaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Maraqlıdır, görəsən, illərlə vəzifə postunda saxlanılmış, böyüklüyünə hörmət edilmiş hüdudsüz səlahiyyət sahibi nədən Azərbaycan xalqına üz çevirsin, nədən dövlət əleyhinə işlər görsün, niyə torpaqların işğaldən azad edilməsinə sevinməsin, niyə Ali Baş Komandana dəstək olmasın?!

O, bu hakimiyyətdən nə istəmişdi ki, ala bilməmişdi?! Qəzəbi kimə idi? Övladları, kürəkəni, xanımı, dostları... yüksək vəzifə postlarında təmsil olunur, yağ-bal içində yaşayır, özü isə qazancı ət alıb yeməyə yetməyən vətəndaşlar kimi ehtiyac girdabında çapalamırdı. Əksinə, açıq mənbələrdə dərc edilən varidat siyahısına nəzər saldıqda ailə üzvlərinə məxsus əmlakı saymaq hesabına görə kralları belə ötüb keçib.

**Siyahının bir hissəsini dərc edirik:**

Bakı, Abşeron və Goranboy rayonlarında hektarlarla torpaq sahələri, Novxanıda üzüm bağları, İstiqlaliyyət küçəsi, 11 ünvanında yerləşən mənzil - "İnfonet" MMC və "Caspian Telekom" MMC-nin hüquqi ünvanıdır. Mehdiyevə Dilarə Əliyeva küçəsi, 251A ünvanında bir sıra obyektlər, "Topaz" və "Qala-R.L" Mənzil Tikinti Kooperativləri, NLT MMC və "Premium Store" MMC-nin məxsus olduğu deyilir. Daha sonra NLT, "Servis", "Grand Palace", "Astoriya", 2020-ci ildən "German Hospital" kimi tanınan "Astoriya Tibb Mərkəzi" MMC, "Qrandezza Ticarət Mərkəzi" MMC, "BTB ASC" bankının 75 %-i də R.Mehdiyevin nəvəsinə məxsusdur. Həmçinin "BTB Lizinq" ASC və "BTB Kapital İnvestisiya Şirkəti" ASC-nin təsisçisidir. Şərq-Qərb nəşriyyatı da, həmin ərazidə agentliyin binasında 408 mənzilli 16 mərtəbəli yaşayış binası və yaxınlıqda daha bir 16 mərtəbəli bina inşa olunub. Əlaqəli şirkətlər arasında "Şərq-Qərb Nəşriyyat Evi" MMC və "Qlobal East West" MMC göstərilir.

Ailəyə, həmçinin "Sədərək" və "Binə" ticarət mərkəzlərində paylar, eləcə də bir neçə villa aid edilir: Bakıda Tbilisi prospektində 36 sot, satış qiyməti 8 milyon dollar olan əmlak, həmçinin Göyçay, Şamaxı və Göygöl rayonlarında yerləşən bağ evləri və ilaxır...

Bütün bu iddia edilən və bixəbər olduğumuz əmlak siyahısının ən dəqiqini isə təhlükəsizlik xidməti bilir və araşdırır.

Əslində, 2020-ci ildə koronavirus epidemiyası yayıldığı zaman ölkə başçısı tərəfindən Ramiz Mehdiyevə ərköyün ailə üzvlərinin toxunulmaz olmadığı və bu ölkənin qanunları qarşısında hamı bərabərdir mesajı verilmişdi. O zaman karantin rejimini pozaraq Novxanıda qızına toy edən Mehdiyevin kürəkəni, sabiq deputat İlham Əliyev və qudası Rövşən Mustafayev Abşeron Rayon Məhkəməsinə gətirildi və 15 sutka həbs edildilər. Və hamı düşündü ki, bu, bütün məmurlara gələcək fəaliyyətlərində dərs olar, özlərini sıravi vətəndaşdan üstün tutanların, korrupsiya ilə məşğul olanların, qanunları heçə sayanların ağlı başına gələr. Prezident isə demək olar ki, bütün çıxışlarında məmurlara bu barədə xəbərdarlıq edirdi və edir. Ramiz Mehdiyevin "gecikmiş məsələsi"nə gəldikdə isə, **Prezident hər zaman vurğulayır: "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm".** Və görünür ki, 44 günə Ermənistan hakimiyyətini şanlı və qalib ordumuzla diz üstə gətirən Ali Baş Komandan "Mehdiyev komandasının" da astarını üzə çıxarmağın tam zamanının yetişməsini gözlədi...

***

Qeyd edək ki, bir çox dövrlərdə ağır cinayətlərdə ittiham edilmiş vəzifəli və səlahiyyətli şəxslər - icra başçıları, nazirlər, səfirlər... olub. Amma sosial şəbəkələrdə, insanların bir-biri ilə ünsiyyəti zamanı da bu şəxslərin hansısa xoş əməli, yaxşı bir keyfiyyəti, Vətən yolunda hansısa xidməti barədə söz açanlar tapılıb - "Allah qapısını açsın" deyənlər olub. Lakin bu bir həftə ərzində Ramiz Mehdiyevlə bağlı belə bir nə yazıya, nə də şərhə rast gəlindi. İnsanlar sanki bu günü çoxdan gözləyirmişlər. Sosial şəbəkələrdə bir çox tanınmış insan Ramiz Mehdiyevin onlara vurduğu zərbələrdən yazır. **Tanınmış jurnalist, AZTV-də, Azərbaycan Radiosunun xəbər müdirinin müavini vəzifəsində çalışan Jalə Mütəllimova da onlardan biridir.**

**Sitat:** "Dörd ay yaxşıdır...dörd ay nədir ki?!. Mən, "Təfəkkür" Universiteti cinayətlərindən, Azərbaycanın rayonlarında məktəbli qızların erkən nigaha cəlbindən və qazanılan "yaxşı" məbləğlərdən, yerli təhsil şöbələrinin icra orqanlarının inhisarından çıxarmaq istiqamətində aparılan mübarizədən, təhsil büdcəsindən oğurlanan vəsaitlərdən, ölkədə dərslik nəşrinin inhisarı məsələsini gündəmə gətirdiyimə görə, dərsliklərin hazırlanmasında Təhsil Nazirliyinin iştirakı və rolu olmadığını faktlarla yazdığıma və sair onlarla məsələdən dolayı, düz doqquz il qeyri-rəsmi ev dustağı oldum. Hələ də Ramiz Mehdiyevdən gələn, "mənim başıma dönər, canıma qurban olar o, Azərbaycanda bir yerdə iş tapsa" mesajı qulağımdadır...".

Sonda jurnalist "Ramiz Mehdiyevə cəza kimi verilən bu dörd ay, mənim kimi onlarla milli ruhlu vətəndaşın doqquz və daha artıq itmiş illərinin cəmi dörd aynın kompensasiyasıdır. Və o itmiş illər daha geri qayıdası deyil. Odur ki bu əslində çox xırda cəzadır. Bu, çox azdır qardaşlar, çox az!

Sonda deyəcəyim, bəlkə kiməsə qəribə görünər. Amma mən Ramiz müəllimin simasında, layiq olmadıqları halda, insanlara pislik yaşadanların hamısına, çox, lap çox uzun ömür arzulayıram. Diləyirəm ki, heç kim yaşatdığını yaşamadan, bu dünyadan köçməsin", - deyə J.Mütəllimova vurğulayıb.

Yaxud, **Multi-Media Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz** bildirib ki, Ramiz Mehdiyevin ona etdiyi pislik pisliklər arasında dərya bir damla olub, amma edib: "2005-ci ilin elə bu vaxtlarında Balakəndə parlament seçkilərilə bağlı seçki kampaniyası keçirirdik. Deputat seçilmək şansım çox yüksək idi. Hər şey əlaydı. Əsas alternativim də Rəbiyyət Aslanova idi. Ramiz Mehdiyevin ən yaxın adamı hesab olunurdu. Mənə namizədliyimi geri götürməyimlə bağlı təkliflər olsa da, qəti imtina etmişdim. Əvvəldən də buradan deputat olan bu xanım heç seçicilərlə görüşlər belə keçirə bilmədi. Seçkiyə az qalmış ATƏT, hətta PA-dan gəlmiş sorğu keçirənlər mənim deputat olaraq seçilməyimi təbrik edirdilər. Elə həmin arada xəbər çıxdı ki, rayonun icra başçısını Ramiz Mehdiyev Bakıya çağırıb. Seçkiyə təxminən bir neçə gün qalmışdı. İcra başçısı Bakıdan qayıdan anda hər şey dəyişdi".

Həmin vaxt namizədliyinin ləğv edildiyini deyən Osman Gündüz əlavə edib ki, baş verən bütün bu tip ədalətsizliklər, qanunsuzluqlar və saxtakarlıqlar üçün Ramiz Mehdiyevin hesabat verməK məqamı yetişib. "Əminəm ki, o zaman xeyli əziyyət çəkən seçki komandam, bizə dəstək verənlər, bütün Balakən seçiciləri də indi ədalətin zəfər çalmasından məmnundurlar. Gec olsa da...", - deyə o vurğulayıb.

**YAP üzvü, Naftalanın keçmiş icra başçısı, sabiq deputat Musa Musayev** də Ramiz Mehdiyevi özünəməxsus şəkildə ""Ağsaqqalı" təbrik edirəm! Düşərli olsun. Məni 12 il işsiz qoymağın və xəyanətin nəticəsi!" yazaraq təbrik edib.

"Haqq nazilər, lakin üzülməz! Məni qəbul edəndə deyirdi ki, məndən sənə əmanət, çalış pambıqla baş kəs (özü kimi). Sən çox prinsipial adamsan, qılıncı almısan əlinə kim gəldi başını kəsirsən. Mən heç vaxt yıxılanı baltalamamışam. 2000-2005-ci illər deputat olanda parlamentdə, 2006-cı ildə martın 24-də Naftalana icra başçısı göndəriləndə isə kabinetində Ramiz Mehdiyevə öz sözümü demişəm. Nəticəsi də hər kəsə bəllidir", - deyə qeyd edib.

Belə insanlar beşdimi, ondumu, yüzdümü?! Əminəm ki, bunu bu gün açıqlamayanların çoxu zamanı gəldikdə, xofdan çıxıb özlərində bu gücü tapacaqlar.

***

Bəli, sanki insanların daxilində illərlə yığılıb qalmış küskünlük, acı, aldıqları zərbə, zamanında layiq olduqlarını əldə edə bilməmələrində günahkar olduğunu, lakin cəzasız qalacağını düşündükləri şəxsin bu gün qanun qarşısında cavab verməsi, ədalətin təntənəsini görmələri onlara bir başqa ruh verir: gələcəyə inam, haqq nazilər üzülməz... həm də ona- səbəbkara qarşı nifrət fışqırır! Əməlləri nifrətlə yad edilən nəhəng bir nifrət! Bəlkə də bu nifrətin çəkisini ölçmək mümkün olsaydı, ölçüyə belə gəlməzdi... Bu nifrət fərdiləşdirilmiş olsa da, cəm halda nə qədər ölçüyə gəlməz zənn edilsə də, Vətənə xəyanətlə bağlı qazandığı nifrətin, qəzəbin qarşısında kiçikdir... Və onun hansı cəzaya layiq görülməsindən asılı olmayaraq, tarixdə əzilmiş və məhv edilmiş "Boz kardinal" kimi iz qoyacaq.

*"Bəlkə də bu nifrətin çəkisini ölçmək mümkün olsaydı, ölçüyə belə gəlməzdi..."*

***

Hər kəsə meydan oxuyan "boz" adam bu gün təkcə sahib olduğu əmlakını deyil, hər şeyini itirməkdədi. Ona verilənlər bir-bir geri alınır və alınacaq. Hətta verilmədən əldə etdikləri də...

Arzu edək ki, hakimiyyət eşalonunda bu utancverici və acı sonluqdan dərs alanlar olacaq!

**Yasəmən MƏMMƏDLİ**



**P.S. Onu da qeyd edək ki, mətbuatda "Ramiz Mehdiyev işi"ndə bir çox vəzifəli, yaxud vəzifədən getmiş şəxslərin adları çəkilir. Ümumiyyətlə, istintaq nəticəsi ortada olmayan, təsdiqlənməmiş, iddia edilən məlumatlar yayılır. Nəzərə alsaq ki, əli media orqanlarınadək uzanmış Mehdiyevin, pərdələnib canfəşanlıq göstərə biləcək maşaları da olmamış deyil. Və bu baxımdan, bəzi məlumatlar nəzərləri başqa istiqamətə yönəltmək məqsədi də daşıya bilər... Yəqin ki, DTX mediada dərc edilən, sosial şəbəkələrdə paylaşılan məlumatları ciddi şəkildə araşdırır.**

# Ramiz Mehdiyevin Azərbaycanı ilə Bəxtiyar Sadıqovun “Azərbaycan”ı...

## *Ulu Öndərin və Cənab Prezidentin bir dənə də olsun portretini otaqlardan asmağa icazə verilməmişdi*

**...Mən on səkkiz yaşımda qələm götürdüm əlimə və o gündən bəri gördüyümü, duyduğumu, inandığım həqiqəti yazmaqdan heç vaxt çəkinmədim. Mənim üçün yazmaq var olmağın, nəfəs almanın, vicdanın diktəsidir. Hər yazımda səmimiyyətim, xarakterim, ruhumun yanğısı hiss olunur və oxucularımdan aldığım rəylərdən bilirəm ki, bunu anlayırlar. Çünki yalanın kölgəsi uzanan mühitdə səmimiyyət azadlığın ən etibarlı məkanıdır. Mən o məkanı vicdanımda və qələmimin ucunda tapmışam.**




84.2 Az
H 39

Məsləhətçi və ön sözün müəllifi: Ramiz MEHDİYEV, fəlsəfə elmləri doktoru, professo

Redaktoru: Əli HƏSƏNOV, tarix elmləri doktoru, professor

Buraxılışa məsul: Bəxtiyar SADIQOV

Tərtibçi: İxtiyar HÜSEYNLİ



Bu gün illər əvvəl yaşadığım bir hadisəni (mən bunu hadisə kimi xatırlayıram) yazmaq istəyirəm. Yazmaqdan çox, etiraf etmək istəyirəm. İnsan bəzən susmaqla özünü xilas etdiyini sanır, halbuki susqunluq ruhu paslandırır. Mən isə pas qəbul etməyən bir ruhun sahibiyəm.

2022-ci ildə Milli Məclis orqanı olan “Azərbaycan” qəzetində çalışmağım üçün rəsmi dəvət aldım. Bu dəvət ilk başdan mənim üçün illərlə çəkilən zəhmətin doğurduğu etimadın nəticəsi sayılırdı. Bildirmək istəyirəm ki, həmin qəzetdə yazılarım o dəvətdən öncə də mütəmadi dərc olunur, “Azərbaycan” qəzeti redaksiyası tərəfindən rəğbətlə qarşılanırdı. Bu dəvət isə mənim üçün dövlətin rəsmi tribunasına çıxmaq, fikrimi millətin səsi ilə qovuşdurmaq anlamına gəlirdi.

Baş redaktor müavini İxtiyar Hüseynli ilə illərin tanışlığı, əbədi sandığım “dostluğu” vardı. Yazılarımı tez-tez redaksiyaya təqdim edir, ədəbi müzakirələrdə qələminə xüsusi dəyər verildiyini vurğulayırdı. Yaradıcılığıma istiqamət verən, “sözün məsuliyyətini çiyində daşımaq çətin olsa da, bu yük şərəf sayılır” deyən ustadım Məhəmməd Nərimanoğlu da uzun illər həmin qəzetdə çalışmışdı. Mən redaksiyaya qədəm qoyanda o, artıq orada görünmürdü və orada bildim ki, o, redaksiyadan birdəfəlik ayrılıb. Amma otaqların havasında onun nəfəsini, divarların sükutunda inciklik səsini duyurdum.

Dəvətdən sonrakı səhər iki kitabımı çantama qoyub sevinc içində redaksiyaya yollandım. “Azərbaycan” qəzeti mənim üçün Milli Məclisin rəsmi orqanı, dövlət düşüncəsinin sözlə ifadə edildiyi bir məbəd sayılırdı və bu məkana gəlişimi həm peşəkar pillə, həm də mənəvi zirvə hesab edirdim.

Xülasə, ikinci mərtəbədə yerləşən, o vaxt Milli Məclisin deputatı olan (indi seçilməmiş) baş redaktor Bəxtiyar Sadıqovun otağına daxil oldum. Qarşılaması ilk an səmimi təsiri bağışladı. Tərcümeyi-halımı danışdım, əvvəlki yazılarımı xatırlatdım, qələmim barədə xoş sözlər söylədi, “yaxşı qələm sahibisən” dedi. Mən də təvazökarlıqla fəaliyyətim, planlarım, gələcək layihələrimdən danışdıb sonda iki kitabımı təqdim etdim. Elə bu anda onun üzündə ifadə dəyişdi, baxışlar dondu, gözlərinin dərinliyində xoşagəlməz narahatlığın kölgəsi göründü, səsindəki istilik çəkildi. Qəlbinin içində mənə qarşı görünməz səəd ucaldığını hiss etdim. “Noyabrın birindən işə çıxarsan” dedi və soyuq təbəssümlə görüşə nöqtə qoydu.

Otaqdan çıxarkən baxışım tavana ilişdi. Baş redaktorun masasının arxasında Ramiz Mehdiyevin kitabı iri ölçüdə böyüdülərək çərçivəyə salınmışdı və elə mərkəzdə asılmışdı ki, sanki divardan baxan adam redaktor yox, elə həmin Ramiz Mehdiyev idi. Şəkilin asılması onun ağasına etibarlılığın həddini göstərirdi. Həmin an içimdə bir səs pıçıldadı: bu divarlar arasında söz azad ruhdan çox itaət nəfəsi ilə yaşayır.

Noyabrın birində işə başladım. Kollektivin böyük hissəsi mənə doğma idi, çünki qeyd etdiyim kimi yazılarım uzun müddət həmin qəzetin səhifələrində yer almışdı. Amma ilk təəssürat həm qəribə, həm də ağır gəldi. İxtiyar Hüseynli məni kollektivə təqdim etdi və “bu masa sənin yerindir” söylədi. Həmin masa Məhəmməd Nərimanoğlunun, mənim ustadımın illərlə oturduğu, sözün və vicdanın sınaqdan keçdiyi, bir ay əvvəl isə dərin hüzünlə qalxıb istefa verdiyi yer idi. Bütün otaqlarda boş yer olduğu halda niyə mənə məhz ustadımın stolu seçilmişdi.O stula əyləşəndə gözlərim doldu, çünki bu masa yaddaşın ağrısı, incidilmiş bir ziyalının iziydi.

İlk gün başa çatdı. Səhəri şöbə müdirinə yaxınlaşıb soruşdum: “Yazı yazım?” “Yaz, sabah verərik qəzetə”, -dedi.

Mövzu olaraq ilk yazımı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həsr etdim. Yazı səmimi idi, içimdən gələn düşüncələri rəsmi dövlət qəzetinin üslubuna uyğunlaşdırmışdım. Cümlələri süni bəzəklərlə yükləməmişdim, çünki Mehriban xanımın şəxsiyyəti özü zərifliyin bəzəksiz nümunəsidir. Yazını təqdim etdim. Şöbə müdiri bəyəndi: “Çox yaxşı yazmısan, İxtiyar müəllimə ötürək, sonra baş redaktora göstərilər.”

Gözlədim, cavab gəlmədi. Səhəri yenə soruşdum: “Yazının taleyi necədir?” Sualıma cavab aldım ki, “üç ay ərzində yazı verməyəcəksən, sadəcə qəzetin stilini izləyib mənimsəyəcəksən.” Mən isə dəfələrlə yazı vermişdim və qəzetin stilini çox yaxşı bilirdim. Bu cümlə içimdə sükutu sərtləşdirdi. “Nə üçün üç ay?” dedim. “Baş redaktor belə münasib görüb”, cavab eşitdim. Səbəb izah olunmadı, amma mən anladım ki, bu qərar istedada yox, sərbəst düşüncəyə kəsilən cəzadır. Mən bunlara etiraz etmədən, sadəcə işimi davam etdirdim. Müxbir kimi ilk fəaliyyətimi Birinci xanıma həsr etmişdim və buna görə qəlbim rahat idi.



Buna baxmayaraq, hər gün yenə yazırdım. Mətnləri redaksiyanın elektron ünvanına göndərir, bir nüsxəni də çap bölməsinə verirdim. Bir müddət sonra məni müavin çağırıb bildirdi ki: “Biz necə məsləhət görürüksə, kiminlə danışma, kimin adını çəkmə, yaxın getmə deyiriksə, onu edəcəksən.” Bu adların içində mənim ustadım və həyatımda mənə mayak olan, adını çəkmək istəmədiyim çox dəyərli bir ziyalı vardı. Həmin şəxs məni ora yönləndirən idi. Bir sözlə, söz azadlığının qapısına görünməz qadağalar vurulmuşdu və təbii ki, mən bunları qəbul edəcək əqidə sahibi deyiləm.

***

Bir hadisəni də xatırladım. İşə gəldikdən bir gün sonra stolumun üstünə Bəxtiyar Sadıqovun fotosu gətirilib qoyuldu və “bu şəkil burada qalmalıdır” söyləndi. Səbəbini soruşanda “burada qayda budur, bütün işçilərin stolunda baş redaktorun şəkli olur” bildirildi. Mən isə cavab verdim ki, masamın üstündə yalnız qələmim və vicdanım dura bilər. Gözümü hər qaldıranda bir insanın simasına yox, bir ideala baxmaq istəyirəm. Rəhbəri stolun üzərindəki çərçivədə deyil, əməl və davranışda görmək daha doğrudur.

*İşə gəldikdən bir gün sonra stolumun üstünə Bəxtiyar Sadıqovun fotosu gətirilib qoyuldu*

Həmin anlardan qəti anladım ki, burası itaət mexanizmi ilə işləyən bir sistemdir. Ulu Öndərin və Cənab Prezidentin bir dənə də olsun portretini otaqlardan asmağa icazə verilməmişdi. “Bəxtiyar müəllim icazə vermir”, deyilirdi, amma Ramiz Mehdiyevin kitabının böyüdülmüş fotosu dəhlizdə və onun öz otağında başının üstündə asılmışdı. “Həmin ilin dekabrında Şuşa-Laçın yolunda ölkəmizin ziyalıları, gəncləri, ekoloqları və jurnalistləri ilə birgə keçirilən dinc etiraz aksiyası zamanı mən də müxbir kimi ora gedib sujet hazırlamaq istədim. Məqsədim sadə idi: həqiqəti görmək,ordakı aksiya iştirakçılarından müsahibə almaq və yazmaq. Amma bu fikrimi bildirdiyim an Sadıqov məni otağına çağırdı və elə sözlər dedi ki, bir anlıq elə bildim, mən Vətənimə yox, düşmənə xidmət etməyə gedirəm.

Hər gün bu mühitdə nəfəsimin daraldığını hiss edirdim və sonda qərar verdim: yolumu ayırmalıyam.

***

...Son iş günündə Bəxtiyar Sadıqovla üz-üzə dayandım. Aylardır içimdə yığılmış sözləri səsləndirdim: “Siz mənim kimi gənclərin yaradıcılığına dəyər vermirsiniz. Bunun səbəbini də anlayıram. Başınızı qaldırıb baxın, başınızın üstündə bu ölkənin memarının, qurucusunun, Qalib Sərkərdəsinin, Birinci xanımının şəkli deyil, Ramiz Mehdiyevin kitabı iri şəkildə çərçivələnib divara vurulub. Sizin sədaqət göstərdiyiniz tərəf odur. Mənim sədaqətim isə Ulu Öndər Heydər Əliyevin ideyalarına bağlıdır. On səkkiz yaşdan o ideyalarla yazmışam; bu gün Qalib Sərkərdə İlham Əliyev və onun Zərif Gücü Mehriban xanım haqqında kitabların müəllifiyəm.

O, səsini qaldıraraq, tərəddüd etmədən qürurla cavab verdi: “Mən Ramiz Mehdiyevlə fəxr edirəm.” Bu yazını yazdıqca bu gün də həmin səs və cavab qulağımda cingildəyir. Mən isə cavabında dedim: “Mənim fəxrim 30 illik işğalda olan torpaqlarımızı bizə qaytaran bizi qalib xalq edən Qalib Sərkərdəmdir.” Mən redaksiyadan çıxarkən qapının ağzında bir daha sakit, amma fəxarətlə mənə səsləndi: “Sənin kimi on yeddi jurnalisti buradan yola salmışam.” O anda həmin jurnalistlərin adları yadıma düşdü və düşündüm ki, bəli, o jurnalistlər bu qapıdan çıxıblar, amma indi ölkə başçısının ən ali mükafatlarına layiq görülən dəyərli qələm sahibləridirlər. Bəlkə də o, fərqinə varmadan ən doğru işi görüb azad düşüncəni, vicdanla yazanları bu dar otaqlardan azad edib. Mən də o sıraya qoşuldum, çünki bəzi qapılardan çıxmaq, əslində azadlığa doğru atılan ən şərəfli addımdır.

Bu, qələm ilə kölgə arasında gedən mübarizənin qısa xülasəsi idi. Həmin illərdə anladım ki, yollarımızın istiqaməti tamam fərqliymiş. O, kölgələrin sükutuna sığınıb, mən isə gün işığına sarı addımlayıram.

Bu hadisəni bu gün sizlərlə bölüşməkdə məqsədim bir şəxsi hədəfə almaq deyil, vicdan tarixinin bir səhifəsini oxucuma çatdırmaqdır. Mən bu yazıda yalnız qısa və məni ən çox sarsıdan anları qeyd etdim. Halbuki başdan-ayağa o redaksiyada gördüklərim haqsızlıq, feodal düşüncənin qalığı olan itaət sistemi, işçilərin əzilməsi, iclaslarda təhqir edilməsi, yaşlı insanların çörəklə sınağa çəkilməsi, istedadın yerinə yaltaqlığın mükafatlandırılması, səssizlərin ruhunun boğulması vicdanı olan hər kəsi narahat edəcək qədər ağır mənzərələr idi.

Bəli, hamımız bilirik ki, Ramiz Mehdiyevin uzun illər ərzində qurduğu kölgə sistemi bəzi kabinetlərdə əsasən də rəsmi dövlət qəzeti olan “Azərbaycan” qəzetində hələ də nəfəs alır. Həmin sistemin qulları kiminin adı gizlində, kiminin isə açıq kresloların arxasında dayanmağa çalışır. Lakin zaman dəyişir. Xalq hər şeyi daha aydın görür, gənclik qorxunu kənara qoyur, çünki sözün azad nəfəsi qorxunun ən böyük rəqibidir.

Mən əminəm ki, haqqın səsi nə qədər basdırılsa belə, bir gün səssiz divarları belə çatladır. Çox şükür mənim qələmim o divarların üzərinə yazılıb yaltaqlıqdan, qorxudan, təmənnadan uzaq.

Zaman keçəcək, amma bir həqiqət öz yerində qalacaq: Ramizlərin və onların himayə etdiyi kölgələrin izi silinməyə məhkumdur, vicdanla yazılan söz isə millətin yaddaşında yaşayacaq.

Özümü xoşbəxt insan hesab edirəm ki, mən o sözə imzamı atmışam. Qürurla, cəsarətlə, heç kimə baş əymədən. Çünki mənim üçün qələm ədalətin nəfəsidir, vicdanın səsi, susanların dilidir. O qələm ki, bir dəfə həqiqətin mürəkkəbinə batır, artıq heç vaxt yalanın kağızına toxunmur.

Bu gün isə Ramiz Mehdiyevə mədhiyyə yazanlar, dünən qarşısında boyun əyənlər indi yazdıqlarını bir-bir silir, özlərini mələk cildində “dövlət sevdalısı” kimi göstərirlər. Zaman dəyişəndə saxta təriflərin mürəkkəbi quruyur ey mənim yaltaqlığı bacarıq, nankorluğu ağıl, ədalətsizliyi siyasət sayan millətim, tək silinməyən isə xalqın vicdanı olur. Çünki xalqın yaddaşı heç bir senzura tanımır. O, kimin həqiqət uğrunda yandığını, kimin kreslo işığına aldanıb kölgəyə çevrildiyini çox yaxşı bilir...

Vallah, mədhiyyələr unudulur, rütbələr solur, amma vicdanın səsi ədalətin nəfəsi kimi ömürlük qalır, haqqın səsi bəzən gec gəlir, amma gələndə susqunluğu darmadağın edir...

**P.S. Ulu Öndərin bir kəlamı yadıma düşdü: “Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir insan özü seçir.”**

**Aygül Bağırova**



# Bu yazıq taksilərdən nə istəyirlər?

## Taksilərdə yeni qaydalar: AYNA sıxır, sürücülər əzilir, sərnişinlər isə...

**Son iki ildə taksi fəaliyyəti sanki "islahat" adı ilə boğulur. Qayda üstə qayda, rüsum üstə rüsum: bir tərəfdən sistem yaratmaqdan danışılır, digər tərəfdən minlərlə sürücünün çiyninə yeni yük qoyulur.**

Bir neçə il əvvəl taksi sürmək üçün "buraxılış vəsiqəsi" (125 manat) və "buraxılış kartı" (25 manat) almaq tələbi qoyuldu. Üstəlik, sürücülər ödənişli təlimlərə (təxminən 76 manat) cəlb olunur. Bütün bunlar, əslində, taksi fəaliyyəti üçün əlavə xərclər demək idi. Avtomobillərin yaşı da sərt tənzimlənib: buraxılışı 8 ildən köhnə maşınla taksi sürmək olmaz. Bu qaydalara görə, 15 ili keçmiş avtomobil isə ümumiyyətlə, istismardan çıxarılmalıdır. Qaydalara tabe olmayanlar üçün isə ağır cərimələr nəzərdə tutulub. İcazəsiz fəaliyyətə görə hüquqi şəxslərə 10 min manatdan 40 min manata qədər, buraxılış kartı olmadan işləməyə görə 50 manat cərimə tətbiq edilir. Üstəlik, rəng, nişan və texniki göstəricilərlə bağlı da vahid tələblər qoyulub. Bütün bunlar isə, sadə bir nəticə doğurur: sistem nizama salınır, amma bu nizama sürücülərin hesabına nail olunur.

Lakin görünür, "islahatlar" bununla bitmir. Bütün bu qaydaların ardınca indi də yeni məhdudiyyət gündəmdədir. Axı, bu yazıq taksilərdən nə istəyirlər? Sanki hər yeni qərar bu sahəyə yönəlir. İndi də paytaxtda fəaliyyət göstərən taksilərə 25 min limit qoyulur. Amma bu qərarın məntiqi və nəticələri barədə suallar səngimir.

Xəbər verilir ki, Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, Bakı şəhərində taksi fəaliyyəti üçün verilən icazələrin sayı 25 min sayı ilə məhdudlaşdırılır. Yeni qaydalar 2025-ci il noyabrın 1-dən qüvvəyə minəcək.

### Tıxacların səbəbi taksilərdə deyil...

Rəsmilər iddia edirlər ki, guya taksi sayını azaltmaqla paytaxtı tıxacdan xilas edəcəklər. Amma bu, tamamilə reallıqdan uzaq yanaşmadır. Taksilər tıxacların əsas səbəbi deyil. Problem dərin və sistemlidir, infrastrukturun zəifliyi, yol tənzimlənməsinin qüsurları, parklanma, lüzumsuz velosiped zolaqlarının yaranması, onsuz da dar olan yolların bir az da daraldılıb avtobus zolaqlarına çevrilməsi və ictimai nəqliyyatın nizamsızlığı tıxac probleminin yaranmasında başlıca rol oynayır. Hə, az qala unutmuşdum, bir də şəhər mərkəzində göydələnlər tikib əhalini süni surətdə mərkəzə köçürmək!

Bundan əlavə, paytaxtda yolların süni şəkildə daraldılması, yük avtomobillərinin pik saatlarda hərəkəti, taksilər üçün dayanacaq yerlərinin azlığı, avtobusların interval probleminin həlli olunmadan tıxacların aradan qalxması mümkün deyil. Taksilərin sayını azaltmaq bu problemləri ört-basdır etmək cəhdindən başqa bir şey deyil. Süni tıxaclar yaradıb, sonra isə məsuliyyəti taksi sektorunun üzərinə yıxmaq ədalətsiz yanaşmadır.

### Gənclər işsiz qalacaq...

Bu qərar təkcə nəqliyyat məsələsi deyil, həm də sosial məsələdir. Çünki bu gün gənclərin böyük bir hissəsi ailəsini taksi fəaliyyəti ilə dolandırır. Hətta rəsmi mənbələrə görə, son islahatdan sonra Bakı şəhərində təxminən 50 min taksi fəaliyyət göstərir və əgər icazə sayı birdən-birə 25 minlə məhdudlaşdırılarsa, minlərlə sürücü işsiz qalacaq. Nəzərə alsaq ki, hər bir sürücü ən azından 4 nəfərlik ailənin yeganə qazanc mənbəyidir, onda 100 min insanın çörəksiz qalması sosial problemlərə səbəb olacaq. Bəs bu insanlara hansı alternativ təklif olunur? Yeni iş yerləri varmı?

Əgər məqsəd nizam yaratmaqdırsa, birinci addım kimi alternativ məşğulluq imkanlarını yaratmaq olmalıdır və yeni iş yerlərinin açılması barədə düşünmək lazımdır. Yalnız bundan sonra hansısa məhdudiyyətlər tətbiq edilə bilər. Əks halda, bu, sosial ədalətsizlikdir.

### Qərar tıxacı aradan qaldırmayacaq, əksinə, problemi daha da dərinləşdirəcək...

Əgər taksi sayı azaldılarsa, nəqliyyatda yaranan boşluğu kim dolduracaq? İctimai nəqliyyatın keyfiyyəti hələ də çox geridədir. İnsanlar səhər-səhər avtobus dalınca qaçır, metroda tıxac yaşanır. Belə vəziyyətdə taksilərin sayını azaltmaq, əksinə, şəhər nəqliyyatında xaosu artıracaq.

Bu qərar, əslində, problemi həll etmir, sadəcə "rəqəm" üzərində görüntü yaradır. Tıxacın, narazılığın, sosial gərginliyin azalması üçün real islahatlara ehtiyac var. Yeni marşrut şəbəkəsi, parklanma sistemi, yol hərəkəti intizamının gücləndirilməsi və ictimai nəqliyyatın modernləşdirilməsi lazımdır.

### Artıq yol taksisi tapmaq mümkün deyil...

Onsuz da bu gün Bakıda taksi çatışmazlığı var. Sözün əsl mənasında, yol taksisi tapmaq müşkülə çevrilib. Əvvəllər bircə əl hərəkəti ilə, "qulağının dibini qaşıyan kimi", maşını yanında saxladırdın. İndi isə bu mənzərə tamamilə itib. Yol taksiləri artıq yoxdur, onların yerini şirkət taksiləri tutub. Amma bu taksilər də çatdıra bilmir.

Şirkət taksilərində sifariş intervalları 30-40 dəqiqəyə qədər uzanır. Sadə dillə desək, yolda taksi saxlamaq mümkün deyil, tətbiqlə çağıranda da çox vaxt tapmaq olmur. Məsələn, dünən "Maksim" taksi xidmətinə, 2111-ə zəng vurdum. Düz 30 dəqiqə keçdi, hələ də "maşın axtarılır" cavabını verirdilər. Axırda sifarişi ləğv etməli oldum, şəhərdə taksi yox idi.

İndi təsəvvür edin, bu vəziyyətə üstəlik, bir də 25 min limit əlavə olunacaq. Onsuz da bu gün şirkətlərin özündə taksi çatışmazlığı var. Bəs limit qüvvəyə minəndə nə baş verəcək?

Rəsmi statistikaya görə, guya Bakıda 2 milyon 500 min əhali var. Amma hamı bilir ki, faktiki olaraq, Azərbaycanın yarısı Bakıda yaşayır. Əgər icazə sayı 25 minə endirilərsə, o qədər insana bu qədər taksi necə bəs edəcək?

Məqsəd aydındır: qiyməti qaldırmaq. Taksilərin sayını azaldıb süni çatışmazlıq yaratmaq, nəticədə qiymətlər öz-özünə qalxacaq. Düzdür, hazırda taksilərin qiyməti aşağıdır, müəyyən artım da ola bilərdi. Amma bu cür yox! Bu, islahat deyil, bazarın boğulmasıdır.

### Nəticə: qərar yox, plan lazımdır...

Taksi limitindən əvvəl aidiyyəti qurumlar peşə hazırlığı, iş yerlərinin təşkili və infrastrukturun yenilənməsi kimi məsələləri həll etməlidir. Yoxsa "taksiləri azaltdıq" deməklə nə tıxac aradan qalxacaq, nə də insanların güzəranı yaxşılaşacaq.

Əksinə, bu qərar minlərlə ailənin dolanışığını risk altına atacaq və paytaxtda sosial gərginliyi artıracaq. Belə çıxır ki, aidiyyatı qurumlar tıxacla yox, bir tikə çörək üçün səhərdən axşama kimi sükan arxasında oturub hər cürə söz götürən taksi sürücüləri ilə mübarizə aparır... Hansı ki, sürücülərlə yox, problemlərlə mübarizə aparılmalıdır

**Elşad FƏRMANOĞLU**

# Kamikadze tipli pilotsuz uçuş aparatı "KARGU FPV" zirehli avtomobili məhv edir...

***...Zirehdələn döyüş başlıqlı kamikadze tipli pilotsuz uçan aparatı olan KARGU FPV, ilk sursat partlatma sınağında zirehli avtomobili dəqiqliklə məhv edib. Bu, Türkiyə istehsali olan zirehdələn başlıq və hərbi standart qoruyucu ilə təchiz edilmiş FPV-nin ilk uğurlu sınağı olub.***




Türkiyənin müdafiə sənayesində aparıcı mühəndislik şirkəti olan STM müasir döyüş mühitlərində asimmetrik təhlükələrə qarşı effektiv və sərfəli həllər hazırlamağa davam edir.

Əvvəllər piyada əleyhinə döyüş başlığı ilə təchiz edilmiş KARGU FPV yüksək muxtariyyətlə dəstəklənən dəqiq zərbə qabiliyyəti ilə fərqlənmisdi. İndi isə zirehdələn döyüş başlığı sayəsində zirehli maşınlara və qorunan hədəflərə də yüksək dəqiqliklə zərbə vurur.

Asimmetrik müharibə şəraitində dinamik təhdidlərə qarşı çəkindirici qüvvə təmin edən KARGU FPV kamikadze pilotsuz uçan aparatı operator tərəfindən idarə olunan real vaxt görmə sistemi ilə düşmən elementlərini hədəf alır və hədəfini piyada əleyhinə və ya zirehdələn sursatlarla zərərsizləşdirir.

KARGU FPV sabit və ya hərəkətdə olan hədəflərə dəqiq zərbələr endirmək imkanı verən yüksək manevr qabiliyyəti, effektiv gündüz və gecə əməliyyatı və aşağı radar kəsişməsi təklif edir. İnteqrasiya edilmiş fiber-optik kabel sayəsində KARGU FPV elektromaqnit müdaxiləsinə qarşı immunitetlidir. Bu, GPS və ya RF siqnallarına etibar etmədən təhlükəsiz uçuş və hədəf təyin etməyə imkan verir.

KARGU FPV, MIL-STD-331 standartlarına uyğun olaraq təkmil hərbi dərəcəli təhlükəsizlik qoruyucusu ilə təchiz edilmiş Türkiyədə yeganə FPV dron həllidir. Bu, missiyalar və nəqliyyat zamanı tam təhlükəsizliyi təmin edir.

İnteqrasiya edilmiş gecə-gündüz kamerası ilə təchiz edilmiş KARGU FPV tıxanma/boşaltma kimi elektron döyüş sistemlərindən təsirlənmədən işləyə bilər.

Platforma yaxınlıq qoruyucu sensoru ilə tənzimlənən məsafələrdə avtomatik atəş təklif edir və təsvirin işlənməsi ilə dəstəklənən avtonom terminal dalış qabiliyyəti hədəfi qeyd edir və dəqiq vuruşları təmin edir.

KARGU taktiki İHA ailəsi ilə eyni döyüş sursatı və tüfəng sisteminə sahib olan KARGU FPV, FPV konseptində mövcud KARGU sursatlarından istifadə etməyə imkan verir.

STM dizaynlı hərbi standart fünyelərlə təchiz olunmuş zirehli deşici və piyada əleyhinə sursatlar həm Türkiyənin ilk milli kamikadze İHA-sı olan KARGU, həm də KARGU FPV ilə heç bir deyişiklik edilmədən istifadə oluna bilər.

**Ədalət Verdiyev,**
**hərbi ekspert**

# "Mixaylo" haqqında bunları bilirdiniz?

**...Əfsanəvi partizan "Mixaylo" - Mehdi Hüseynzadə barədə bilinməyən MARAQLI FAKTLAR: Mehdi rəssamlıq məktəbində Məhəmməd Əmin Rəsulzadənin oğlu Azər Rəsulzadə ilə birlikdə oxuyarkən sifarişli əsər hazırlayır, birgə iş görürlər. Lakin iş başa çatana yaxın M.Rəsulzadənin ailəsi, Azər Rəsulzadə Qazaxıstana sürgün olunurlar.**



Mehdi Hüseynzadə çətinliklə Qazaxıstanda Azərin qaldığı ünvanı öyrənir və qazandıqları pulun yarısını ona göndərir. Bu barədə Azər Rəsulzadə sonralar görkəmli alimimiz Nəsiman Yaqubluya danışır.

Poliqlot Mehdi Hüseynzadə 7 dil bilirdi. Mehdi 7 il 19 nömrəli məktəbində oxuyub. Onun ədəbiyyat müəllimi dahi Süleyman Sani Axundov, musiqi müəllimi Səid Rüstəmov olub. Bu müəllimlər Mehdinin tərbiyəsinə çox böyük təsir ediblər.

Leytenant rütbəsi alan Mehdi müharibə zamanı xüsusi partlayış üsulu icad etmişdi. "Mixaylo" çevikliyinə, xarici dilləri bildiyinə və cəsurluğuna görə ən çətin və ən ağır əməliyyatlara cəlb olunurdu. O, əməliyyat vaxtı hətta yeraltı kanalizasiya xətlərində, çirkab sularda üzürdü. Mehdi həm də şair idi. Onun şeirləri "Azərbaycan" qəzetində çap edilirdi. Sevdiyi qıza da məktublarında şeirlər yazırdı. Mehdinin aktyorluq istedadı da vardı. Kəşfiyyatçı kimi aktyorluq istedadından istifadə edib.

**Anar Tağıyev,**
**Tədqiqatçı**

# Firidun Şuşinski Mir Nərimanov haqqında

**Azərbaycan Respublikasının Birinci vitse-Prezidenti, Heydər Əliyev Fondu-nun Prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşıbbüsü və rəhbərliyi ilə ölkəmizdə muğam sənətinin inkişafına göstərilən tarixi qayğı- Bakıda möhtəşəm Muğam Mərkəzinin fəaliyyəti, burada keçirilən muğam müsabiqələri vaxtilə bu sahədə xidmətləri olmuş hər bir sənətkarın xatirəsinə dərin ehtiramdır. Həmin ehtirama layiq olanlardan biri də Azərbaycan muğam tarixinin əvəzolunmaz tədqiqatçısı, xalqımıza məlum olmayan 100-ə yaxın muğam ifaçılarımızın tədqiq olunmasında misilsiz xidmətlər göstərmiş Əməkdar incəsənət xadimi Firidun Şuşinskidir.**

İnsanları bir-birinə yaxınlaşdıran, dünyada heç bir sərhəd tanımayan, duyğularını sərbəst çatdırmağı bacaran musiqi qədər insana doğma olan ikinci bir sənət təsəvvür etmək çətindir. Bu sənətin sahibləri dünyanın hər bir yerində fəaliyyət göstərən həmkarları ilə “öz dilləri”ndə danışmağa qadirdirlər. Təsadüfi deyil ki, “Musiqi insanların universal dilidir” deyən XIX əsrdə yaşamış məşhur Amerika şairi və tərcüməçisi Henri Uodsuort Lonqfello yanılmamışdı. İngilis filosofu, tarixçi və publisisti Tomas Karleyl isə musiqini sözsüz, bəzən də çox dərin mənalar ifadə edən nitqə bənzədir. Həmin “nitq”lə dünyanın hər yerində insanlar bir-birini duyur və başa düşür. Musiqiçilər isə yeganə peşə sahibləridir ki, onların öz “danışıq dilləri” var. Bu “dil”lə onlar millətindən, irqindən, dinindən, dilindən asılı olmayaraq bir-birləri ilə ünsiyyət yarada bilir.

***

Hər bir xalq öz musiqisinin pərəstişkarı olduğu kimi, onun tarixini öyrənməyə, bu sahənin yaradıcılarını arayıb-axtarmağa, təbliğ etməyə can atır. Bu baxımdan, milli musiqimizin yaranıb inkişaf etməsi yollarını, onun ifaçılıq sənətini araşdırıb, xalqa çatdırmaq missiyası, ilk növbədə, sənətşünasların üzərinə düşür. Lakin çox təəssüflər olsun ki, musiqi sahəsi ilə məşğul olan bəzi sənətşünaslar bir-iki məqalə yazmaqla işlərini bitmiş hesab edir və daha asan yollar axtarmağa meylli olurlar. Çünki musiqi tarixini araşdırmaq nə qədər ağırdırsa, bir o qədər də məsuliyyətlidir.

Unutmaq olmaz ki, musiqi tədqiqatı ilə, ələlxüsus, muğam tarixinin tədqiqi ilə məşğul olmaq istəyən sənətşünas musiqi savadına sahib olmaqla bərabər, tarixi, ədəbiyyatı, coğrafiyanı bilməli, qələm təcrübəsinə malik olmalıdır.

Qeyd etdiyimiz keyfiyyətləri özündə birləşdirən, bu ağır, çətin, məsuliyyətli işi üzərinə götürən, musiqişünas-alim Firidun Şuşinski idi.

***

Firidun Məhəmməd oğlu Həsənov (Şuşinski) 20 oktyabr 1925-ci ildə Qarabağın tacı sayılan Şuşada dünyaya göz açıb. Atası ləl-cəvahirat pərəstişkarı olduğu üçün ona el arasında “qızıllı Məhəmməd bəy”deyərdilər. Firidunun adını əmisi Şəmil görkəmli ədəbiyyatşünas-alim, yazıçı-publisist, xain əli ilə güllələnmiş Firidun bəy Köçərlinin şərəfinə qoyub. Şəmil Firidun bəy Köçərli ilə qonşu, həm də dost imiş...

***

...1920-ci ildə Gəncədə bolşeviklərə qarşı üsyan qalxır. Gəncə üsyanı yatırıldıqdan sonra XI Qızıl Ordunun xüsusi şöbəsi tərəfindən bir sıra ziyalılarla yanaşı, Firidun bəy Köçərli də güllələnir. Xüsusi Şöbənin rəisi Liberman ətrafında dolaşan milliyyətcə erməni S.Danilyanın “məsləhəti” ilə Firidun bəy Köçərlinin güllələnməsi haqqında 4 iyun 1920-ci il tarixli hökmə imza atır: “Mən 20-ci diviziyanın Xüsusi Şöbəsinin hərbi müstəntiqi bu gün Firidun bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq etmişdir. Köçərlinski Qazaxda “Müsavat” partiyasının sədri olarkən millətçilik ehtirasını qızışdırmışdır. Nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç də inandırıcı deyildir... Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini rədd etmək lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər”.

***Qərara alınır: müttəhim Köçərlinski güllələnsin!***

***Təsdiq edirəm: 7№ li Xüsusi Şöbənin rəisi Liberman.***

***Təsdiq edirəm: Fövqəladə komissarı Həmid Sultanov”.***

***

F.Şuşinski ilk təhsilini Şuşada alsa da, orta məktəbi və üçillik musiqi təhsilini Füzulidə başa vurmuşdu. Fitri istedadı olan Firidun bir çox alətlərdə - tar, kaman, kanon, piano, hətta skripkada professional şəkildə ifa edə bilirdi. O, həmçinin nəfəsli alətlərdə də sərbəst ifa edə bilirdi. Uşaqlıqdan musiqiyə həvəs evlərində tez-tez xanəndələrin, musiqi ifaçılarının olması səbəbindən yaranmışdı.



***

Firidun on altı yaşında məktəbi bitirir. Lakin vətən müharibəsi başlandığından ali təhsil almaqdan imtina edir. Müharibəyə getmək üçün könüllü olaraq hərbi komissarlığa ərizə ilə müraciət edir. Yaşı az olduğundan ərizəsinə müsbət cavab ala bilmir.Yalnız bir gözlənilməz hadisə onun cəbhəyə getməsinə “yol açır”. Həmin il Şuşaya həmişəkindən daha çox qar yağmışdır. Şuşa camaatı xizək sürmək üçün “Bazarbaşı” deyilən yerə toplaşmışdılar. Firidun başında buxara papaq buz üzərində sürüşənlərə tamaşa edirdi. Bu zaman milliyyətcə erməni olan şəhər prokuroru gümüşü qoyun dərisindən papaq qoymuş Firidunu görüb, yanına çağırır. Başına qoyduğu papağın yaşına uyğun olmadığını səbəb gətirərək ondan almaq istəyir. Orta məktəbi yenicə bitirmiş, ötkəm, qabağından yeməyən, hazırcavab Firidun özünü təhqir olunmuş hesab edib, prokurora sərt şəkildə “kişiyə papaq yaraşar”, -deyib, uzaqlaşır. Bu təhqirə dözə bilməyən prokuror “ağzından süd iyi gələn” uşaqdan qisas almaq qərarına gəlir və Firidunun müharibəyə gedişini tezləşdirir.

**“Bu təhqirə dözə bilməyən prokuror “ağzından süd iyi gələn” uşaqdan qisas almaq qərarına gəlir və Firidunun müharibəyə gedişini tezləşdirir”**

O, müharibənin sonuna qədər alman faşistlərlə döyüşür və ordunun qalib əsgəri kimi bir çox orden və medallarla Vətənə dönür. Müharibədən qayıdan kimi təhsilini davam etdirmək qərarına gəlir. 1946-cı ildə sənədlərini Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə verir. Fitri istedada malik olan Firidun Şuşinski çox zaman onu düşündürən sualların cavabını təhsil aldığı universitetin professor və müəllim heyətindən ala bilmirdi. Günün əksər vaxtını kitabxanalarda, arxivlərdə keçirən Firidun, onu maraqlandıran sualların cavabını məhz orda axtarardı. Etiraf etmək lazımdır ki, böyük tədqiqatçı bütün şüurlu həyatını Azərbaycan musiqi mədəniyyətinin mühüm bir dövrünü, XIX və XX əsrlərdə Qarabağda yetişən müğənni və xanəndələrin həyat və yaradıcılığını öyrənməyə səy göstərmiş, çoxlu arxiv sənədləri, tarixi faktlar toplamış, onlar haqqında mükəmməl məlumat əldə etmişdir.

## Səməd Vurğun Firidun Şuşinskiyə nəyi xahiş etmişdi?

1948-ci ilin may ayında Bakının ali məktəblərinin birində elmi konfrans keçirilməsi nəzərdə tutulduğu üçün təşkilat komitəsi yaradılmışdı. Elmi konfransa münasibət ciddi olduğundan təşkilat komitəsinə Heydər Hüseynov, Abdulla Qarayev, Mirəli Qaşqay, Məhəmməd Əfəndiyev, Mehdi bəy İrəvanski, Zülfəli İbrahimov, Əli Sultanlı, Cəfər Xəndan, Səməd Vurğun, Qasım Cəfəroğlu kimi alimlər daxil idi. Firidun tələbə elmi cəmiyyətinin sədri olduğuna görə bu konfransa daha ciddi hazırlaşmışdı. Onun mövzusu “Vaqif və Qarabağ” idi. Bu mövzunu ona tarixçi-alim Əlövsət Quliyev təklif etmişdi. Mövzu Firidun üçün çox doğma idi. Çünki hələ I kursda oxuyarkən o, Şuşanın tarixi ilə maraqlanır və doğma torpağı haqqında sənədlər toplayırdı. Bir də məlum idi ki, Molla Pənah Vaqif şair olmaqla yanaşı, həm də görkəmli dövlət xadimi və Qarabağ xanı İbrahimxəlil xanın baş veziri olmuşdu. Mövzularla tanış olan təşkilat komitəsinin üzvü, şair Səməd Vurğun “Vaqif və Qarabağ” mövzusunun müəllifi ilə görüşmək istəyini bildirir... Görüş zamanı şair Firiduna üz tutub: -Qarabağlı balası, məruzən çox xoşuma gəldi, lakin razılıq versən, onun adını “Vaqif və Qarabağ” yox, “Vaqif bir dövlət xadimi kimi” qoyardım. Çünki bu əsərdə Vaqif bir dövlət xadimi kimi verilib.

Sonra şair əsərin adının üzərindən bir xətt çəkib, qara qələmlə “Vaqif bir dövlət xadimi kimi” sözlərini yazır və aşağıda da imzasını qoyur. Beləliklə, Firidunun qələmə aldığı bu mövzu onun ilk mətbu əsəri olur.

1949-cu ildə ölkədə “Ellər atası”nın anadan olmasının 70 illiyi ilə əlaqədar qızğın iş getdiyi ərəfədə Firidun həmişəki kimi kitabxanaların sirlə dolu qapılarını açmaq üçün “açar” axtarırdı. Bu sirlərdən biri də Stalinin Nəriman Nərimanova yazdığı məktub idi. Həmin məktubla o, Stalinin kitabını oxuyanda rastlaşmışdı. Firidun bir anlığa duruxur, fikrə gedir. Axı ona yaxşı məlum idi ki, həmin illər Nərimanovun adını çəkmək qadağan idi. Məktub tələbənin marağına səbəb olur. O, universitetin professor-müəllim heyətindən bu barədə soruşsa da, sualına nəinki cavab almır, hətta ona bu barədə düşünməyi belə, qadağan edirlər. Hər sualın cavabını axtarmağa can atan Firidun əlacsız qalıb Mərkəzi Komitənin katibi Mir Cəfər Bağırova müraciət etməli olur. Müraciətdə xahiş edir ki, mümkün olarsa, aşağıdakı məsələləri izah etsin:

**«1. Partiyamızın N. Nərimanova münasibəti necədir? 2. Nərimanovun buraxdığı səhvlər nədən ibarətdir?**

**ADU-nin tarix fakültəsinin II kurs tələbəsi Firidun Həsənov”.**

**Tələbənin bu gözlənilməz hərəkəti universitetin bütün professor-müəllim heyətini təşvişə salır.**

Firidun Bağırovun qəbul otağına daxil olanda artıq köməkçi Novikova onu gözləyirdi: «Unutma ki, “xozeyin” səni səkkiz dəqiqə qəbul edəcək. Lakin bu görüş bir saatdan çox uzanır. Məktub təşkilat şöbəsinin müdiri tərəfindən oxunduqdan sonra Bağırov üzünü Firiduna tutaraq: -Ay oğul, bu sualla sən nə üçün yoldaş Stalinə yox, mənə müraciət etmisən?”.

Gənc tələbə bu cavabdan bir qədər özünü itirir. Düzü, o, Bağırovdan bu sualı gözləmirdi. Lakin tezliklə özünü ələ alıb deyir:

**- Yoldaş Bağırov, evdə mənə belə tərbiyə veriblər ki, heç vaxt böyüyün başı üstündən iş görmə...**

Bağırov bir qədər gülümsünür. Lakin söhbətə müdaxilə edən ideologiya üzrə katib canfəşanlıq edir və özünü çoxbilmiş kimi göstərmək qərarına gəlir:

**- Bilmirsən ki, Nəriman Nərimanov Zaqfederasiyanın əleyhinə olmuşdur?**

**- Xeyr, belə olmamışdır! - deyə Firidun katibə özü də hiss etmədən sərt cavab verir.**

*“Firidun Bağırovun qəbul otağına daxil olanda artıq köməkçi Novikova onu gözləyirdi: «Unutma ki, “xozeyin” səni səkkiz dəqiqə qəbul edəcək”*

**- Nəriman Nərimanov yox, Ruhulla Axundov və təminat və səhiyyə komissarı Möhsün İsrafilbəyov (Qədirli) onun əleyhinə cıxıblar.**

**- Sən hardan bilirsən?**

**- Yoldaş Lavrenti Beriyanın “Zaqafqaziya bolşevik hərəkatı tarixindən” kitabından oxumuşam.**

Bu zaman Bağırov tələbənin sözlərini təsdiqləyir: «Sən haqlısan! Moskvada Nəriman Nərimanovun dəfn mərasimində Azərbaycan xalqı adından iştirak etmək Ruhulla Axundova təklif olunsa da, o, boyun qaçırmışdı. Mən ona həmişə yaxşı münasibət bəsləmişəm. Dəfn mərasimində də çıxış etmişəm”.

Həmin dəfn mərasimdəki çıxışında M.C.Bağırov “alovlu” nitq söyləmişdi:

“Yoldaş Nərimanovun roluna bizim İttifaqımız tərəfindən, xüsusilə də, Azərbaycan zəhmətkeşləri tərəfindən layiqli qiymət verilmişdir. Nəriman Nərimanov hər kəsdən fərqli olaraq həqiqi inqilabçı idi. O, həyatının 30 ilini ictimai-siyasi və ədəbi yaradıcılığa sərf etmişdi. Nərimanov türk qadınlarını ilk dəfə köləlikdən ayağa qaldıran, burjua ideoloqlarına layiqli cavab verən ən fəal azərbaycanlı ziyalılardan biri olmuşdur. Yoldaş Nəriman Nərimanovun uzunillik inqilabi fəaliyyətinin bəhrəsi yalnız Azərbaycan türk əməkçilərindən deyil, həm də keçmiş Rusiya imperiyasında, hazırda Sovet İttifaqında yaşayan 30 milyonluq müxtəlif türk-tatar (azərbaycanlı --A.K.) tayfaları sakinlərindən ideyalı inqilabçılar hazırladı. Onun xatirəsi Azərbaycan zəhmətkeşlərinin qəlbində əsrlər boyu yaşayacaq, bədii yaradıcılığı, ideyaları, əməyi uzun illər əsarətdə yaşamış bütün Şərq xalqlarına nümunə olacaq. N.Nərimanov bizim aramızdan getsə də, onun ideyaları, 30 illik inqilabi hərəkatı və fəaliyyəti illər boyu inkişaf edəcək. Budur Nəriman Nərimanovun ən böyük xidməti”.

***

...Deyirlər, quşun hünəri uçuşda, atın hünəri qaçışda, alimin hünəri isə xalqın mənəvi dünyasını üzə çıxartdığı sərvətlərdə bilinər. F.Şuşinskinin də bir alim-tədqiqatçı kimi hünəri ondan ibarət idi ki, alim tarix elminin nəzəri problemlərini dərindən mənimsəməklə xalqın mənəvi dünyasına müdaxilə etmiş, çıxardığı sərvət isə musiqi tariximizin öyrənilməsi olmuşdur.

Firidun bəy köhnəlmiş yollarla addımlamağı sevməyən tədqiqatçılardan idi. Ona yaxşı məlum idi ki, musiqi tariximiz geniş şəkildə tədqiq edilməmişdir və bu sahədə bir boşluq var. Gənc tədqiqatçı bu ağır yükü çiyninə götürəndə özündə təpər tapdı, qələmini həmin səmtə yönəltdi. Çox çəkmədi ki, respublika qəzetlərində ayrı-ayrı xanəndələr, musiqiçilər haqqında məqalələr dərc edilməyə başladı. O, həmçinin radio və televiziyada xalq sənətkarları haqqında şirin, duzlu söhbətləri ilə tez bir zamanda ətrafına geniş tamaşaçı kütləsi topladı. Bununla da, F.Şuşinski musiqimizin tədqiqatçısına çevrildi. O, nəinki Azərbaycanın, hətta SSRİ-nin bir çox şəhərlərində tədqiqat işi aparmaqla musiqi tariximizin açılmamış səhifələrini vərəqləməyə başladı. O, tədqiqatla yanaşı, həmin dövrdə Azərbaycanın qəhrəman oğulları, mədəni abidələrimizin qorunub-saxlanması haqqında da mətbuatda vaxtaşırı yazılarla çıxış edirdi. Bu məqalələr “F.Məhəmmədoğlu”, “F.Həsənov”, “Firidun Həsənov”, “Firidun Şuşinski”, “F.Şuşinski”, “Firidun Şuşalı” “Firidun bəy Şuşalı” imzaları ilə dərc olunurdu. O, mətbuat aləmində “Şuşinski” kimi tanınsa da, ömrünün sonlarında məqalələri “Şuşalı” imzası ilə dərc edilirdi.

F.Şuşinskinin ilk kitabı 1962-ci ildə nəşr etdirdiyi “Şuşa” əsəridir. 1962-ci il Azərbaycan ədəbiyyatında mühüm bir hadisəyə çevrilən “Şuşa” kitabı çapdan çıxmışdı. Bundan sonra F.Şuşinskinin musiqi tariximiz haqqında ilk əsəri 1964-cü ildə nəşr etdirdiyi “Şərq musiqisinin peyğəmbəri” (S.Yesenin) haqqında qələmə aldığı “Cabbar Qaryağdıoğlu”dur. Əsər Azərbaycan vokal sənətinin əvəzolunmaz sənətkarı C.Qaryağdıoğlunun həyat və yaradıcılığına həsr olunmuşdur. Qeyd edək ki, əsər bir neçə dəfə müəllif tərəfindən çap olunmuşdur. Təvazökarlıqdan uzaq olsa da, qeyd etməliyik ki, bu sətirlərin müəllifi də F.Şuşinskinin C.Qaryağdıoğlunun həyat və yaradıcılığına həsr olunmuş kitabına müəllifin sonralar yazdığı fəsli əlavə edərək ona ön söz yazmış və “Şərq musiqisinin peyğəmbəri” adı altında nəşr etdirmişdir.

C.Qaryağdıoğlunun həyat və yaradıcılığı haqqında geniş monoqrafiya yazmasına baxmayaraq, kitabın işıq üzü görməsindən 5-6 ay sonra Z.Səfərova imzalı bir akademik böyük sənətkar haqqında həmən adda kitab nəşr etdirir. Maraqlıdır Z.Səfərova bu kitabında F.Şuşinskidən əlavə yeni nə deyə bilər. Yalnız desə də F.Şuşinskinin fikirlərini başqa bir şəkildə yaza bilərdi. Bu əsərdən sonra bir-birinin ardınca o, “Seyid Şuşinski”, “Xan Şuşinski” monoqrafiyalarını nəşr etdirir. Nəhayət, uzunmüddətli ciddi axtarışlardan sonra Azərbaycan musiqi aləmini təhlil-tədqiq edən, az qala unudulmaqda olanları üzə çıxaran, nəinki SSRİ-də (MDB ölkələri), hətta xaricdə böyük əks-sədaya səbəb olan “Azərbaycan xalq musiqiçiləri” adlı kitabı nəşr edilir. Bu kitab barədə xalq şairi Xəlil Rza Ulutürk “F.Şuşinski bütöv bir elmi kollektivin görməli olduğu işi, çətin və şərəfli vəzifəni təkbaşına görən”, Azərbaycanın qəhrəman oğlu, akademik Ziya Bünyadov isə əsəri “böyük bir akademiyanın tədqiqat işi” adlandırmışdı.

Qeyd edək ki, Azərbaycanda muğam tariximizin ilk və son tədqiqatı Firidun müəllimin adı ilə bağlıdır. Respublikamızda elə bir musiqi tədqiqatçısı yoxdur ki, Firidun müəllim kimi sırf musiqi tədqiqatı ilə məşğul olsun. Az-çox varsa da, həmin şəxslər heç kimdən maddi kömək görməyən arxivlərdə, muzeylərdə aylarla, illərlə işləyən Firidun müəllimin yazdığı əsərlərdən bəhrələnmişlər. Həmin “tədqiqatçılar” ruhu xoş olsun deyə, Firidun müəllimin əsərlərinə istinad etdiklərini bəzi hallarda qeyd edirlər. Bu “xətir-xoşluğun” nəticəsidir ki, həmin şəxslər indiyə qədər böyük tədqiqatçının əsərlərini latın qrafikasında nəşr etdirməkdən ötrü əlaqədar təşkilatların qarşısında məsələ qaldırmamışlar.

Həmin şəxslər öz güzəranlarını xoş keçirtmək üçün min-bir yolla yüksək adlar, təqaüdlər almağa can atmışlar.

XVIII əsrdə yaşamış məşhur Fransa yazıçısı, maarifçisi, filosofu və ensiklopedist olan Deni Didro yazırdı: “Sənətkar pul haqqında düşündüyü andan gözəllik hissini itirməyə başlayır”.

# Cəfər Bağırova Nəriman hansı xahişi etmişdir?

Lakin Firidun müəllim yuxarıda qeyd etdiyimiz “sənətkarlardan” çox-çox uzaq idi. Müəllif təmənnasız olaraq, hökumətdən heç bir maddi yardım almadan müxtəlif şəhərlərin arxivlərində axtarışlar apararaq, əldə etdiyi nadir şəkillərlə, müdrik kəlamlarla, şeir inciləri ilə, rəvayət və əhvalatlarla kitabını zənginləşdirmişdir. O, ömrüboyu öz hesabına respublikanın rayonlarında, SSRİnin (MDB) müxtəlif yerlərində olmuş və oradan xalqımıza aid olan qiymətli sənədləri alıb vətənimizə gətirməklə böyük işlər görmüşdü.

F.Şuşinskinin yaradıcılığına, onun tənqidi çıxışlarına qarşı çıxanlar yeni bir üsula əl atmalı olurdular. Onu əsərlərində erməniləri “təbliğ” etdiyinə görə tənqid edirlər. Bu sənətkarlar haqqında mənimlə söhbət edən həmin şəxslər öz hisslərini gizlətmirdilər. Mən özüm də arxiv sənədləri ilə tanış olanda onun fondunda kifayət qədər erməni “sənətkarları”n şəkilləri olduğunun şahidi oldum. Etiraf etməliyik ki, acı da olsa, bu, belədir.

Mən dəfələrlə yazılarımda Firidun bəyin ermənilərə qarşı olan nifrətini sübutlarla göstərmişəm. Firidun bəyi bu barədə suçlayanlara bir daha xatırlamağı özümə borc bilirəm: Ermənilər əsrlər boyu xoşumuza gəlmək üçün qapımızda nökər olar, hər bir hərəkətimizə göz qoyar, öz “sadiqliklər”ini göstərmək üçün dəridən-qabığdan çıxardılar. Aydındır ki, erməni kimi yaltaq, simasız, namussuz, qeyrətsiz ikinci millət tapmaq qeyrimümkündür. Bunu dünyanın bir çox ölkələrinin tanınmış nümayəndələri etiraf etsələr də, onlar erməniləri bir alət kimi indi də əllərində saxlayırlar. Mənafeləri naminə məqamı gəldikdə onlar ustalıqla bu simasızlardan istifadə etmişlər və hazırda da etməkdədirlər. Bu baxımdan, XIX əsrin əvvəllərindən həmin simasızlar “Əli rəhmi” olan Azərbaycan xalqının qəlbinə yol tapa bildilər. Onlar nəinki mədəniyyətimizin, incəsənətimizin bütün sahələrinə, hətta adət-ənənəmizə də hakim kəsildilər. Həmin illərdə Azərbaycanda bir-iki nəfər tarzənimizdən, kamança çalanımızdan başqa kim var idi? Bu xainlər nəinki XIX əsrin əvvəllərində, hətta keçən əsrin sonlarına qədər toylarımızı, şənliklərimizi musiqiçilərimizlə birgə aparar və bu yolla da pul qazanardılar. Onlar nəinki toylarımızda, hətta televiziya ekranlarında, dövlət tədbirlərində də xalqın sevimli sənətkarları ilə birgə “tüğyan” edərdilər. Onlar şəkillərini bizim sənətkarlarla çəkdirməkdən xüsusi həzz alardılar. Ermənilərə yaxşı məlum idi ki, bu çəkilən şəkillər, kinolentlərdə olan görüntülər tarixdir. Onlar gələcəkdə həmin görüntülərdən ustalıqla istifadə edəcəklərinə əmin idilər. Necə ki, etdilər.

Firidun bəyə ermənipərəst deyənlərin nəzərinə çatdırıram ki, mətbuatın, televiziyanın və yaxud respublikanın arxivlərində saxlanılan keçən əsrə aid şəkillərə baxsalar, mütləq ermənilərin yaltaq sifətləri ilə rastlaşacaqlar. Həmin şəxslər unutmasınlar ki, televiziya ekranlarında hər hansı bir sənətkardan söz açılırsa, onun ifası verilirsə, orda kamança, balaban çalan, ya da dəf vuran erməni olacaq. Məgər buna da F.Şuşinski günahkardır?

***

70-ci illərdə “armyanskie muqamı” ifadəsi mətbuatda özünə yer tapmışdı. Etinasızlıq gör nə yerə çatmışdı ki, həmin ifadəni bəzi üzdəniraq “musiqişünaslar”ımız da işlədirdilər. Firidun müəllim bu ifadə ilə qəti razılaşmırdı. O qətiyyətlə həmin ifadənin əleyhinə çıxaraq yazılarında göstərirdi ki, sənətkar milliyyətcə erməni olsa belə, o, Azərbaycan musiqisini ifa edir.

1978-ci və 1983-cü illərdə Səmərqənddə keçirilən Beynəlxalq Muğam Simpoziumundan Tahirə Kərimova kimi ermənipərəst “musiqişünasın”, Ramiz Zöhrabov kimi “alimlər”in yazılarına sərt cavabı yalnız F.Şuşinski vermişdir. Lakin ona “ermənipərəst” yarlığı yapışdırmaq istəyənlər bu məqamda ağızlarına su alıb dururdular. T.Kərimova yazırdı: “Simpoziumda Özbəkistanda təqribən iyirmi məruzə dinlənilir. Erməni musiqişünasları erməni muğamını (?!) həm nəzəri, həm də əməli surətdə nümayiş hüququna nail olurlar”.

Buna cavab olaraq F.Şuşinski yazırdı: “Burda müəllifin (T.Kərimova --A.K.) “erməni muğamı” məfhumu çox gülüncdür. Görəsən, müəllif “erməni muğamı” sözünə harda rast gəlib?! Bu, sadəcə müəllifin “Don-Kixot” gopçuluğu və yaxud dərviş bayatılarıdır.

Hələ keçən əsrin axırlarında heç kimə gizli deyil ki, qədim musiqi alətlərinə, muğamlarımıza qarşı düşünülmüş şəkildə ögey münasibət yaranmışdı. O zaman nə tanınmış muğam ifaçıları, nə muğamsevərlər, nə də ümumilikdə xalq bu özbaşınalığa bir reaksiya vermirdilər. Son anda bu qədim muğamlarımızın qorunmasına dayaq duran tapıldı. Bununla da xalq öz qədim mirasına sahib durdu. Bu qədim xəzinənin yaşamasında nəinki muğam ustaları, bütün xalqımız Mehriban xanım Əliyevaya minnətdar olmalıdır.

Maraqlıdır ki, bu təşəbbüsdən sonra “xalq artisti” adını daşıyan muğam ifaçıları “fəallaşmağa” başladılar. Müxtəlif hökumət mükafatlarına sahib oldular. Onlar hər bir muğam yarışlarının münsiflər heyətində, dövlət yığıncaqlarında iştirak etmək üçün bir-birləri ilə yarışa girdilər. Bununla da onlar muğamın təəssübkeşləri olduqlarını sübut etməyə çalışırdılar. Lakin xalqın gözü tərəzidir.

Nə yaxşı ki, muğamlarımız son günlərini “yaşayan” ərəfədə Azərbaycan Respublikasının Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva şəxsi təşəbbüs göstərərək unudulmaqda olan bu qiymətli xəzinəmizi yenidən xalqımıza qaytarmağa müvəffəq oldu. Bu təşəbbüsdən sonra həmin şəxslər indi özlərini muğamlarımızın təəssübkeşi kimi qələmə verməyə çalışırlar. Beləlləri muğamlarımızın təəssübkeşi yox, öz mənafelərinin təəssübkeşidirlər.

***

F.Şuşinski arxivlərdə günlərlə, həftələrlə, aylarla bəzən illərlə işləməsinə baxmayaraq, Azərbaycan televiziyasında hamının səbirsizliklə gözlədiyi “İfaçılıq sənəti” adlı verilişin aparıcısı və müəllifi kimi də dinləyicilərin qarşısına çıxmağa vaxt tapırdı. Musiqi tariximizin yorulmaz tədqiqatçısı, muğam fəlsəfəsinin yaradıcılarını xalqa çatdırılmasında əvəzsiz xidmətləri olan bir insana ögey münasibət nədən irəli gəlirdi? Nə səbəbdən keçən əsrin ortalarına qədər muğam ifaçıları və onları müşayiət edənlər haqqında məlumatımız olmadığı bir zamanda, bu boşluğu doldurmaq missiyasını üzərinə götürən və onu ləyaqətlə yerinə yetirən F.Şuşinskini yaddan çıxartdıq?!

Muğam və onun ifaçıları haqqında söhbət açılanda, böyük tədbirlər təşkil olunanda Firidun bəyi hansı səbəbdənsə tez unuduruq. Yaddan çıxartmaq istəyənlər muğamdan və onun yaradıcılarından danışanda və yaxud musiqi haqqında hər hansı bir məqalə hazırlayanda məhz F.Şuşinskiyə müraciət etmək məcburiyyətində qalırlar. Təəssüflə qeyd edək ki, həmin fikirləri, cümlələri, böyük abzasları F.Şuşinskinin yazılarından köçürsələr də, həmin yazıda öz adlarını göstərməkdən həya etmirlər.

F.Şuşinski çəkinmədən sözü üzə deməklə yaltaqlara, musiqimizə xor baxanlara, heç bir səsə malik olmayanlara, muğamın guşələrini bilməyib, özünü muğam ustadı sayanlara qənim kəsilir, onları bu ağır, şərəfli yoldan uzaqlaşdırmağa çalışırdı. O, belə “xanəndələr”ə “muğama dürtülənlər” deyirdi. Azərbaycanın qüdrətli bəstəkarı Fikrət Əmirov yazırdı: “Mən iki Firidun tanıyıram. Birinci ziyalıların 95 faizini lağa qoyan, satira qırmancına dolayan Firidunmuzdur. İkinci Firidun alim, vətəndaş, böyük əməlpərvər musiqişünas və jurnalist qardaşımızdır. Əslində, bu iki, Firidunu bir-birindən ayırmaq olmaz”.

F.Şuşinski daim arayıb-axtaran, çətinlikdən qorxmayan, maraqlı hadisələrin mənbələrinə qədər gedib çıxan tədqiqatçı idi. Yüksək peşəkar zövqə malik olan F.Şuşinski musiqidən, xanəndədən söhbət açanda o dövrün ovqatını, koloritini yaratmaq üçün şairlərdən, tarixçilərdən, yazıçılardan tutarlı sübutlar gətirir, oxucunun xəyalında tamam başqa bir aləm canlandırmağa nail olurdu. Materialı dərindən bildiyindən o, hər hansı sənətkar haqqında ürəklə və məhəbbətlə, inamla və ilhamla danışırdı.

F.Şuşinski klassik muğam ifaçılarının izinə düşməklə bərabər, istedadlı gənclər haqqında da mətbuat səhifələrində vaxtaşırı məqalələr dərc etdirir, onları televiziyada və radioda aparıcısı olduğu verilişlərə dəvət edirdi. O,1964-cü il fevralın 27-də Habil Əliyevi müəllifi və aparıcısı olduğu “Gözəl çalğıçı” konsert-oçerkə dəvət etmiş, 1964-cü il aprel ayının 17-də isə ona həsr etdiyi “Habil segahı” məqaləsini “Azərbaycan gəncləri” qəzetində dərc etdirmişdir. Məqalə tanınmış musiqişünasın qəleminin məhsulu olduğundan H.Əliyev tez bir zamanda şöhrət tapır. Həmin ilin iyun ayında H.Əliyevə “Əməkdar artist” fəxri adı verilir. Onu tez-tez xarici səfərlərə dəvət edirlər. Dövlət tədbirlərində iştirakı üçün şərait yaradılır. Bir sözlə, Habil Əliyev üçün hər yerdə “yaşıl işıq” bərq vururdu.



Heç kimə gizli deyil ki, Azərbaycanda kamança çalanların əksəriyyəti ermənilər olub. Buna görə də F.Şuşinskinin respublikamızın rayonlarından birindən yenicə gəlmiş, musiqi sahəsində hələ tanınmamış Habil Əliyevi təbliğ etməkdə məqsədi həm gənc ifaçını respublikada tanıtmaq, həm də xalqımıza məxsus olan kamanı ermənilərin əlindən almaq idi.

*“Sonralar məlum olacaq ki, bu gözlənilməz hadisə musiqişünasın qələminin iti olduğu zamanda deyil, yalnız ömrünün qürub çağında akademik Rafael Hüseynovun başçılığı ilə Firidun bəyə qarşı bir çox sənətkarlar tərəfindən haqsızlıq olacaq”*

F.Şuşinski kamançaçalan Habil Əliyevin yaradıcılığına yüksək qiymət verəndən sonra 1979-cu ildə “Çalğı musiqimiz” adlı məqalə dərc etdirir. Məqalə müəllifi Habil Əliyevin son vaxtlar üzərində işləmədiyini qeyd edərək yazır: “...Öz şirin və yaradıcılıq fantaziyası ilə xüsusi bir məharətlə çaldığı “Segah”ı (“Habil Segahı”nı) belə, yadırğamışdır. Artıq Habilin çaldığı “Segah” 5-10 il bundan əvvəl çaldığı “Segah”a bənzəmir. Bunu yəqin Habil özü hiss edir. Habil geniş diapozonlu sənətkardır. O bütün muğamları sərbəst və asanlıqla çala bilir. Ondan yeni-yeni sənət nümunələri tələb etməyə haqqımız var. Qüdrətli sənətkarın öz məktəbi olmalıdır”.

Musiqişünasın Xalq artisti, tarzən Ramiz Quliyev haqqında vaxtilə söylədiyi fikirlərə də nəzər yetirək. “Ramizdə son dərəcə iti barmaqlar var. Şübhəsiz, tar çalanda iti barmaqların olması ümdə şərtdir. Lakin iti barmaqlarla yanaşı, tarzəndə sanballı bilək də olmalıdır.Lakin Ramizin biləyi bir qədər zəifdir”.

F.Şuşinskinin 1984-cü ildə qələmə aldığı “Segah dəsgahı” məqaləsində Arif Babayev haqqında yazdığı sətirlərdən: “Arif Babayevin səsi olduqca zil, həm də məlahətlidir. O, gözəl “Segah” ifaçısıdır. Lakin Arifin səsinə “Çahargah”, “Hey-ratı”, “Mahur” muğamları uyuşmur. Çünki onun səsində əzəmət və mübariz ruh zəifdir. Belə bir səslə yalnız “Segah”, “Şur”, “Bayatı-Şiraz”, “Şüştər” kimi muğamları oxumaq daha məqsədəuyğundur.”

Bu xeyirxahlıq qarşısında Firidun bəyə məlum deyildi ki, o, gələcəkdə hansı gözlənilməz hadisələrlə üzləşəcək. Sonralar məlum olacaq ki, bu gözlənilməz hadisə musiqişünasın qələminin iti olduğu zamanda deyil, yalnız ömrünün qürub çağında akademik Rafael Hüseynovun başçılığı ilə Firidun bəyə qarşı bir çox sənətkarlar tərəfindən haqsızlıq olacaq. Halbuki R.Hüseynovun başına toplaşmış sənətkarlar düşünməli idilər ki, nə vaxtsa F.Şuşinskinin onların inkişafında və şöhrətlənməsində kifayət qədər rolu olmuşdur. Bu sətirləri yazanda şair-publisist Nizami Süleymanoğlunun bir ifadəsini xatırlamaq istərdim. “Əgər “Üzeyir bəy Qafqaz musiqisinin atası, Şərq musiqisinin peyğəmbəri, dünya musiqisinin şöhrətidirsə, Firidun bəy onun ən güclü davamçılarından olmaqla, Azərbaycan musiqisinin yenilməz tənqidçisi, tədqiqatçısı, tarixçisi və sözün əzəmətli mənasında dəli-divanəsiydir”.

1995-ci ildə sağlığında nəşr etdirdiyi “Musiqişünasın düşüncələri” kitabı “Şuşa” əsərindən də artıq dərəcədə F.Şuşinskini haqsız ittihamlara məruz qoymuş, hətta onu həbs olunmaq həddinə çatdırmışdı. (Bu ayrıca bir mövzudur). Qeyd edək ki, ayrı-ayrı oçerk və məqalələrdən ibarət olan bu kitabın yazılmasına o, ömrünün çoxunu sərf etmişdi. Bu yazıları tədqiqatçı ömrünün müxtəlif illərində qələmə almış və respublikanın ayrı-ayrı mətbu orqanlarında dərc etdirmişdi. O, həmçinin uzun müddət radio və televiziyada müəllifi və aparıcısı olduğu verilişlərdə kitabda gedən fikirlərini dinləyicilərlə bölüşmüşdü. Bu illər ərzində xalqımızın müxtəlif təbəqələrinin nümayəndələri tədqiqatçının oxunaqlı yazılarına və cürətli, inamlı çıxışlarına görə minnətdarlıqlarını bildirirdilər. Əgər “Şuşa”nın əleyhinə gedən yalnız ermənilər və erməni düşüncəli azərbaycanlılar idisə, “Musiqişünasın düşüncələri”nin əleyhinə gedənlər isə adını sənətkar qoyan və kitabın məhv edilməsi, müəllifini isə ağır cəzalandırması üçün dəridən-qabıqdan çıxan musiqiçilərimiz idi. Həmin şəxslər 1968-1970-ci illərdə F.Şuşinskiyə qarşı olan ermənilərdən daha sərt mövqedə durmuşdular...

***

...F.Şuşinski “Müəllifdən” başlıqlı yazısında əsərin yazılma səbəblərini belə izah edir: “Oxuculara təqdim olunan bu kitabda son 25-30 ildə qəzet və jurnal səhifələrində çap olunmuş yazılarım və respublika televiziyası və radiosu ilə apardığım verilişlərdəki çıxışlarım toplanmışdır. Kitab bir musiqi tədqiqatçısı kimi mənim musiqi mədəniyyəti tariximizin yazılmamış səhifələri haqqında düşüncələrimi, əsasən, müasir ifaçılıq sənətinin hamını narahat edən ciddi qüsurları haqqında tənqidi mülahizələrimi əhatə edir. Mənə elə gəlir ki, milli musiqimizin müqəddəratı haqqında düşünən hər bir musiqişünasın ən ümdə vəzifəsi təkcə musiqi mədəniyyətimizin tarixini araşdırmaqla bitmir. O, eyni zamanda bir musiqi tənqidçisi kimi musiqi “cəbhə”sində baş verən və xoşagəlməyən hadisələrə öz münasibətini bildirməyə də borcludur. Buna görə də oxuculara təqdim etdiyim bu kitabda əsas yer tənqidi düşüncə və qeydlərə verilmişdir... Son illər milli musiqimizdə, ələlxüsus muğam və mahnı ifaçılığı sənətimizdə Azərbaycan musiqisinin ruhuna və köklərinə tamamilə yad olan elementlərin günbəgün artması təbii ki, bizi narahat etməyə bilməz. Televiziya və radioda, konsert salonlarında, toy məclislərində və restoranlarda səslənən qondarma mahnılara, təsniflərə, təhrif olunmuş muğamlara, oxunan şit və bayağı sözlərə qulaq asdıqca bir daha əmin olursan ki, musiqimiz müəyyən mənada öz kökündən ayrılmaq təhlükəsi qarşısındadır. Buna görə də bir tədqiqatçı-tənqidçi, daha doğrusu, bir vətəndaş kimi öz qayğı və dərdlərimi hörmətli oxucularımla bölüşmək niyyətindəyəm”.

Maraqlıdır ki, “Musiqişünasın düşüncələri” kitabının nəşri bitmədiyi, satışa çıxarılmadığı, tənqidçilər tərəfindən qiymətini almadığı bir halda, məhkəmə tərəfindən müəllifə qarşı iddia qaldırılır, kitabla bağlı məhkəmə qurulur. 995-ci ildə F.Şuşinskinin “Musiqişünasın düşüncələri” adlı kitabı 16500 tirajla nəşr olunur. Bu kitab F.Şuşinskinin ölümünə bais olur. Əsər mətbəədə çap olunan ərəfədə bir çox tanınmış xalq artistləri Nizami muzeyində olan otağa toplanır. Kitabın siqnal nüsxəsinin birini də tapıb gətirirlər. Bu ifaçıların Nizami muzeyindəki otağa toplaşmaqda məqsədi nə idi? Keçmişə boylananda məlum olur ki, F.Şuşinski 1983-cü ildə dərc etdirdiyi “Hazır kökə “xəstəsi” məqaləsində R.Hüseynov uzun-uzadı tənqid edilib.

Akademikin diktəsi ilə hər bir şikayətçi Səbail rayon Məhkəməsinə ərizə ilə müraciət edir. Məhkəmə sənədlərilə tanış olanda aydın olur ki, müraciət edənlərin ifadələri nəinki eynilik təşkil edir, hətta bir xətlə yazılmışdır. Xalq artistlərinin iddia ərizəsində göstərilir ki, F.Şuşinski kitabda onların şərəf və ləyaqətinə toxunan sözlər işlətmisdir. İddiaçılar bəzən məqsəddən kənara çıxıb 40 il Azərbaycan musiqi sənətinin əvəzsiz tədqiqatçısı olan F.Şuşinskini “ictimai-faydalı əməklə məşğul olmayan, öz-özünə musiqişünas, musiqi tədqiqatçısı adını verən ideoloji təxribatçı, mənəvi terrorçu” kimi təqdim edirlər. 200 illik bir dövrü əhatə edən Azərbaycan musiqisi və onun görkəmli nümayəndələri haqqında yazmış olduğu “Azərbaycan xalq musiqiçiləri”, Sovet dövründə uzun müddət təqiblərə məruz qalmış “Şuşa”, xalqımızın tariximizin nadir incilərindən olan “Cabbar Qaryağdıoğlu”, “Seyid Şuşinski”, “Xan Şuşinski”, “Sadıqcan” və neçə-neçə kitabların, 100-ə yaxın sənətkarları tanıtdıran, radio və televiziyada aparıcısı və verilişlərin müəllifinə bu cür haqsız damğa vurmaq nə qədər insafdandır?

Qeyd edək ki, ona Azərbaycan CM-nin o vaxtkı 121-ci maddəsinin 2-ci hissəsi və 122-ci maddəsinin 2-ci hissəsi ilə ittiham irəli sürülür. Qisasçılar və məhkəmə 72 yaşlı qocaman musiqişünasın ağır xəstə olmasını nəzərə almadan prokurorun iddiasına əsasən, F.Şuşinskinin iştirakı olmadan işə baxılır. Maraqlıdır ki, ittiham olunanın hüquqlarını müdafiə edən vəkil belə bu haqsızlığa etiraz etmək əvəzinə, onların təklifi ilə razılaşır. Lakin hakimin çıxartdığı qərar heç də şikayətçilərin ürəyincə olmur. Çünki Firidun Şuşinskinin onilliklər boyunca qələmə aldığı əsərlə bağlı verilən qərarda deyilir: “Satışda olan nüsxələrin köçürülməsini onun və həmin variantda gələcəkdə nəşrinin qadağan olunmasını qərara almışdır. Cavabla razı olmadığınız təqdirdə həmin cavabı əlavə etməklə Azərbaycan Respublikası Ali Məhkəməsinə müraciət edə bilərsiniz. Sədr müavini: A.İ.Kabılenkova”.

Göründüyü kimi, şikayətçilərin düşündükləri kimi əsəri tamamilə məhv etmək yox, yalnız qərarda göstərildiyi kimi, “Musiqişünasın düşüncələri”nin müəyyən düzəlişlə nəşri barədə hökm çıxarılır. Bir də maraqlıdır ki, məhkəmə sədri nə səbəbdənsə “dəstədən” vaxtilə haqlarında yazılan tənqidi məqalələrə vaxtında niyə etiraz etmədiklərini soruşmur. Bizə elə gəlir ki, professor Kamil Vəli Nərimanoğlunun həmin suala cavabı kifayət edir: “Rəsmi dairələrdə kifayət qədər incidilən bu bəy məğrur adam idi və onunla kəllə-kəlləyə gəlmək hər kişinin işi deyildi.”.

Lakin məhkəmənin sədri və bu “oyun”u quranlar bilmirlər ki, həmin kitabların bir hissəsinin məhv edilməsinin qarşısı alınmışdır. Həm də hal-hazırda respublikanın ən böyük Milli Kitabxanasında “Musiqişünasın düşüncələri” kitabı qiymətli əsər kimi qorunmaqla yanaşı, həm də oxucuların istifadəsindədir.

***

Böyük tədqiqatçı-alim Firidun Məhəmməd oğlu Şuşinskinin ürəyi bu cür haqsızlıqlara dözə bilmədi. O, 1997-ci ildə həyatla əbədi vidalaşmalı oldu....

**Aslan Kənan,**
**tədqiqatçı**



# SSRİ-nin dağılmasını ilk xəbər verən jurnalist Bakıda böyüyüb və...

*O, vaxtilə Rusiyanın "Vesti" proqramının aparıcısı, hazırda isə "Rusiya mədəniyyəti" TV-nin rəhbəri Vladislav Flyarkovskidir...*

**Keçək mətləbə: 1991-ci ildə Sovet televiziyasının yeni xəbər buraxılışı yayımlanır və aparıcı öz təqdimatı ilə hamını heyrətə gətirir: "Salam, bu "Vesti"dir. SSRİ artıq mövcud deyil".**

O, efirdən ölkənin siyasi liderlərinin bəzi respublikaların ayrılması ilə bağlı müqavilə imzaladığını da açıqlayır. Hamı şokdadır! Alma-Atada SSRİ-nin dağılmasını təsdiqləyən sənədin imzalanmasını əks etdirən görüntülərdə başqaları ilə yanaşı, Boris Yeltsin və dövləti parçalamaq qərarını imzalamaq üçün respublika nümayəndələri də görünür. Və təsəvvür edin ki, kommunizmin işıqlı sabahını səbrsizliklə gözləyən, hətta yuxularında belə görən ölkə vətəndaşları indi nə hissləri yaşayır...

***

"Təzadlar" Rusiya mediasına istinadla və arxiv materiallarını tədqiq edərək xatırladır ki, həmin jurnalist Başqırdıstanda doğulub. Sovet İttifaqının dağıldığını bütün ölkəyə və dünyaya elan edən aparıcı-müxbir Başqırdıstanın lap kənarında yerləşən Oktyabrski şəhərində anadan olub. O, Vladislav Flyarkovskidir.

Tarixə diqqət edin: o, doğulandan bir gün əvvəl anası sürgündən sonra orada məskunlaşan və yerli neft şirkətində işləyən atasının yanına Başqırdıstana gəlir. Gələcək jurnalist 1958-ci il martın 15-də Oktyabrski doğum evində anadan olur.

***

Vladislav Flyarkovski 2020-ci ildə "Başqırinform" xəbər agentliyinə müsahibəsində görün nə deyir: "...mənim üçün ləyaqətsiz adamlardan biri də ana tərəfdən babam olan Leopold Xristianoviç idi, hansı ki, indi onun soyadını daşıyıram... Tiflis almanı, sonra Bakı almanı... İnqilabdan ta 1941-ci ilin yayınadək Bakı Politexnik institutunun məzunu kimi Bakıda mühəndis-inşaatçı kimi çalışıb... Onun qoca valideynləri Xristian və Sofiya isə çoxdan ölüb...".

***

Doğulduqdan az sonra anası Leopold Xristianoviçi doğma Bakıya aparır. Gələcək jurnalistin uşaqlığı Bakıda keçir... Daha sonra Moskvaya köçürlər və orada orta məktəbi bitirir, Memarlıq İnstitutuna sənəd verir, lakin qəbul olunmur, Vladislav Pieroviç donanmada xidmət etməyə gedir.

Nəhayət, 1979-cu ildə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olur, daha sonra televiziyada əfsanəvi "Vzqlyad", "Vremya" və "Vesti" verilişlərində işləməyə başlayır... Və əvvəl qeyd etdiyim kimi, o, "Vesti"-nin müxbiri kimi bütün ölkəyə SSRİ-nin dağılması kimi sensasion xəbəri ilk çatdıran jurnalist olur. V.Flyarkovski daha sonra televiziyada işləməyə davam edir, 2001-ci ildə isə "Kultura" telekanalına rəhbərlik edir, məncə, elə indinin özündə də.

Sonda: Leopold Xristianoviç indi də rus jurnalistikasının aparıcı simalarından hesab olunur...

**Asif MƏRZİLİ**

**"Təzadlar" qəzetində Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, 76 saylı binanın sakinlərinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova ünvanladığı şikayət ərizəsinin surəti daxil olub.**

# Xətai rayonunun bir qrup sakini Eldar Əzizova müraciət edib

*"Dövlət Şəhərsalma norma və qaydalarına zidd olaraq məhəllədaxili yollar ayrı-ayrı iaşə obyektlərinin sahibləri və idarələr tərəfindən zamanla aparılan qanunsuz qazıntı işləri nəticəsində yararsız hala gətirilib"*

**45 sakinin imzaladığı şikayət ərizəsində deyilir:**

**"Hörmətli Eldar müəllim!**

İlk növbədə qeyd etmək istərdik ki, paytaxt Bakıda aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri nəticəsində şəhərimiz bütün qonaqlar üçün sevimli istirahət guşəsinə çevrilib və bütün bunlarla yanaşı, dünyaca məşhur şəhərlər arasında öz dinamik inkişafı ilə sağlam rəqabət aparmaq bazasına malikdir. Məlumdur ki, ilin bütün fəsillərində bunları həyata keçirmək - şəhərin park, xiyaban, meydan və küçələrinin təmizliyi, sanitar-gigiyenik tələblərə uyğunluğu müntəzəm diqqət və qayğı tələb edir. Bu məqsədlə yuxarıda qeyd etdiyimiz çoxşaxəli unkişaf mexanizmini nəzərə alaraq, paytaxt Bakıda, ona bitişik rayon və qəsəbələrdə antisanitariyaya qarşı ciddi mübarizə tədbirləri həyata keçirilir, ekologiyanın qorunması, çirklənmənin qarşısının alınması, yaşıllıqların salınması və qorunması ilə bərabər, əhalinin də sağlamlığının qorunması hər zaman əsas vəzifə kimi qarşıya qoyulur. Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, Bakı Şəhər İcra Hakimiyyəti Bakı şəhərinin idarə edilməsində, onun sosial-mədəni inkişafında üzərinə düşən vəzifələri yerinə yetirir və bu, öz növbəsində həm də uğurlu dövlət siyasətinin tərkib hissəsi kimi qəbul edilir.









Lakin yuxarıda qeyd etdiyimiz uğurlara kölgə salan bir faktı, Bakı şəhərinin gözəlliyinə xələl gətirən bəzi məqamları diqqətinizə çatdırmaq istəyirik və inanırıq ki, məsələyə məhz sizin müdaxiləniz nəticəsində mövcud xoşagəlməz hallara birdəfəlik son qoyulacaq.

Bildiririk ki, yaşadığımız Xətai rayonunun Babək prospektində 76 saylı binanın qarşı tərəfinin bir hissəsi, arxa tərəfi isə tam olaraq illərdir ki, baxımsız qalib və geniş bir ərazidə ciddi şəkildə antisanitariya hökm sürür. Ərizəyə əlavə etdiyimiz fotoşəkillərdən və videogörüntülərdən də aydın göründüyü kimi, yaşadığımız ünvanda mövcud vəziyyət olduqca acınacaqlıdır. Dövlət Şəhərsalma norma və qaydalarına zidd olaraq məhəllədaxili yollar ayrı-ayrı iaşə obyektlərinin sahibləri və idarələr tərəfindən zamanla aparılan qanunsuz qazıntı işləri nəticəsində yararsız hala gətirilib, piyadalar üçün nəzərdə tutulan səkilər demək olar ki, məhdudlaşdırılıb. Bundan əlavə, bir-neçə evsiz-eşiksiz və spirtli içki aludəsi olan və digər asılılıqdan əziyyət çəkən insanların yaşayış binasının arxa tərəfindəki ağacların altını yaşamaq üçün özlərinə məkan seçməsi gələcəkdə yarana biləcək ciddi təhlükələrdən xəbər verir və ona görədə bu özbaşınalığa son qoyulmalıdır. Hesab edirik ki, sizə etdiyimiz bu rəsmi müraciətdən sonra Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Şəhər Baş Polis İdarəsi əməkdaşları tərəfindən qeyd edilən əraziyə baxış keçirilərkən, digər neqativ halların da qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçiriləcək. Xüsusilə qeyd etmək və xahiş etmək istəyirik ki, gecə saatlarında səs-küy salmaqla, birgəyaşayış qaydalarına uyğun olmayan şəraitdə başqalarının narahat edən şəxslərin ərazidən uzaqlaşdırılması təmin edilməklə yanaşı, insanlarımızın rahatlığını təmin etmək məqsədilə baxımsız qalan ərazinin abadlaşdırılması istiqamətində lazımi tədbirlər görəsiniz.

Sizdən xahiş edirik ki, Prezident cənab İlham Əliyevin verdiyi tapşırıqları rəhbər tutularaq, Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, 76 saylı binanın həyətyanı sahəsində "ABAD Məhəllə" layihəsi çərçivəsində abadlıq-quruculuq işlərinin aparılması, yaşıllıq zolaqlarının salınması, məhəllədaxili yolların asfalt örtüyü ilə təzələnməsi, binanın fasadının və giriş hissələrində təmir işlərinin aparılması ilə yanaşı, xüsusilə azyaşlı uşaqların və ahıl yaşda olan insanların istirahətinin, onların asudə vaxtlarının səmərəli təşkili üçün əlverişli şəraitin yaradılması istiqamətində tədbirlər planının hazırlanması və həyata keçirilməsi istiqamətində aidiyyəti üzrə öz müvafiq tapşırıqlarınızı verəsiniz.

İnanırıq ki, yuxarıda qeyd etdiyimiz xoşagəlməz halların aradan qaldırılması istiqamətində tərəfinizdən atılacaq müsbət addımların nəticəsində ictimai təhlükəsizliyimizin təmin edilməsi ilə bərabər, insanlarımızın firavan həyat sürməsində və eyni zamanda, ekoloji mühitin mühafizəsinin təşkili prosesində aidiyyəti üzrə qurumlar öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

Sizə əvvəlcədən öz dərin minnətdarlığımızı bildiririk".

Aidiyyəti qurumların məsələyə münasibətini dərc etməyə hazırıq.

**E.ŞİRİNİOV**

# Onlara göstərilən ehtiram, əslində, öz gələcəyimizə və millətimizə göstərilən ehtiramdır

**Hər birimiz həyatımızın dönüş nöqtəsində bir adı xatırlayırıq: Müəllim. Müəllim adı, müəllim sözü daim yüksək sanılıb, müqəddəs sayılıb, "Ana" və "Vətən" kəlmələrinə bərabər tutulub. O kəslər ki, bizə yalnız "Ana, Ata, Vətən" kəlmələrini yazmağı öyrətmirlər, həm də onların mənasını izah edir, sadə rəqəmlərin, uzaq ulduzların sirrini açır, keçmişimizlə, tariximizlə tanış etdir, eyni zamanda daxilimizdəki potensialı oyadır, arzularımıza istiqamət verirlər.**

*"Müəllimlik sənəti əsrlər boyu dəyişsə də, onun cəmiyyətdəki mərkəzi rolu dəyişməz qalıb"*




Bu səbəbdən Beynəlxalq Müəllimlər günü təqvimdəki adi bir tarix deyil; bu, bəşəriyyətin ən müqəddəs və fədakar peşəsinə, elm ocağının memarlarına borcumuzu etiraf etdiyimiz, saysız-hesabsız zəhmətə və fədakarlığa "təşəkkür" etdiyimiz gündür. Müəllimlik sənəti əsrlər boyu dəyişsə də, onun cəmiyyətdəki mərkəzi rolu dəyişməz qalıb. Bəs bu gün müəllimi sadəcə "dərs deyən şəxs"dən fərqləndirən nədir? Bu, onların çoxşaxəli missiyası və fədakar əməyidir. Müəllimlərin əməyi yalnız sinifdə keçdikləri dərs saatları ilə ölçülmür. Evə aparılan sənədlər, hər bir şagirdin fərdi inkişaf planının qurulması, valideynlərlə kommunikasiya və davamlı özünü təhsil - bütün bunlar bu peşənin böyük fədakarlıq tələb etdiyini göstərir. Onlar hər bir uğursuzluğa rəğmən ruhlandırmağı bacaran, hər çətinlikdə dayaq olan, tez-tez öz şəxsi ehtiyaclarını şagirdlərinin rifahı üçün qurban verən insanlardır. Müəllim həm də mədəniyyətin daşıyıcısıdır. Onlar dili, milli dəyərləri, tarixi və adət-ənənələri gənc nəsillərə çatdıraraq bir millətin kimliyini qoruyub saxlayırlar. Onların işi sayəsində gələcək nəsillər keçmişlə əlaqəni itirmir, öz köklərindən qüvvət alırlar. Bütün bunlar göstərir ki, müəllimə göstərilən ehtiram, əslində öz gələcəyimizə və millətimizə göstərilən ehtiramdır.

Nümunə olaraq sizə öz təhsil aldığım məktəbdən söz açım. Natiq Tağıyev adına 212 nömrəli tam orta məktəbdən. Bu məktəbdə müəllimlərin şagirdlər üçün əməyi çox böyükdür. Ən əsası direktorumuz Sevil Cavadova çox böyük səylər göstərir. O, sadəcə, direktor vəzifəsinin yox, uzaqgörən liderliyin və misilsiz idarəçiliyin simvoludur. Məktəbimizi təhsil ocağından bilik mərkəzinə çevirən, hər zaman inkişafa yönələn təşəbbüskar ruhun daşıyıcısıdır. Sevil Cavadova hər bir müəllimin potensialını görən, onlara ilham verən və peşəkar inkişafda dəstək olan əsl bir mentordur. Mən inanıram ki, Sevil Cavadova kimi güclü və fədakar liderlərin rəhbərliyi altında təhsilimiz parlaq gələcəyə doğru inamla irəliləyir.

**Səma TAĞIZADƏ,**
**Bakı şəhəri 212 nömrəli tam orta məktəb**

# İran Aşıqlar Birliyinin qurucusu İran Musiqi Evinin sözçüsünü saxtakarlıqda ittiham etdi

*Aşıq Səlcuq Şahbazi Daryuş Pirniyakan-Gərgərliyə sərt cavab verdi, bəyanat yaydı...*

**“Təzadlar” qəzetinə və eyni adlı tezadlar.az portalına İrandan göndərilən bəyanatı olduğu kimi təqdim edirik.**

Onu da qeyd edirik ki, Kanada və Türkiyədə yaşayan mədəniyyət təəssübkeşləri də bu məsələ ilə bağlı İran və Azərbaycan Mədəniyyət nazirliklərinə müraciətlər göndəriblər.

Beləliklə, **Aşıq Səlcuq Şahbazi** Daryuş Pirniyakan-“Gərgərli”yə cavab bəyanatında deyir:



“Əziz və hörmətli İran xalqına, mədəniyyət və incəsənət camiyəsinə salam və ehtiramlarımı bildirirəm.

Əvvəlcə xatırlatmaq istərdim ki, aşıq ədəbiyyatı və musiqisinin tarixi dünyadakı muzeylərdə və etibarlı arxivlərdə olan mövcud sənədlərə əsasən, yeddi min ildən artıq keçmişə malikdir. Bir çox tədqiqatçılar hesab edirlər ki, muğam musiqisi, əslində, aşıq musiqisindən yaranmış və ondan bəhrələnmiş, qaynaqlanmış, təsirlənmişdir.

Bu zəngin keçmişi nəzərə alaraq, Gərgər şəhərində (indiki Hadi şəhr-şəhər, Şərqi Azərbaycan vilayəti) doğulmuş Daryuş Gərgərli Pirniyakanın son açıqlamasında belə bir təxribatçı bəyanat olmuşdur: “Azərbaycan adlı bir xalq yoxdur. Azərbaycan, əslində, Aran olub və bu adı, həmçinin Azərbaycan musiqisini, İrandan oğurlayıblar”.

**“Cənab Pirniyakan, görünür ki, siz Azərbaycan Respublikasının mövqeyini anlamırsınız və İran türklərinə qarşısınız”**

Bu sözlər tamamilə əsassızdır, tarixin saxtalaşdırılması və milyonlarla türkdilli İran vətəndaşının mədəniyyətinə və kimliyinə təhqirdir. Biz bu fikirləri qətiyyətlə pisləyir və etirazımızı bildiririk.

## Keçmiş hadisələr və Pirniyakanla ilk görüş...

Cənab Pirniyakan, bəlkə xatırlamırsınız, amma Musiqi Evinin təsis edilməsi üçün keçirilən ilk iclasa mən də dəvət olunmuşdum. Həmin yığıncaqda təklif etdim ki, digər şöbələrlə yanaşı, “Xalqlar və bölgələr musiqisi şöbəsi” də yaradılsın ki, aşıqlar, baxşılar, xanəndələr və yerli ifaçılar da Musiqi Evində təmsil olunsunlar. Lakin siz heç kimin fikrini dinləmədən, tələsik və hörmətsiz şəkildə dediniz: “Belə bir şöbəyə ehtiyac yoxdur!”. Elə o anda mən sizin xalq musiqisinə qarşı təkəbbürlü və təhqiramiz münasibətinizi anladım və etiraz əlaməti olaraq iclası tərk etdim. Sonradan isə həmin Musiqi Evi sənətə və xalq mədəniyyətinə sadiq olanlarla məsləhətləşmədən, birtərəfli qaydada yaradıldı.

## Sonrakı illər və seçkilər...

Bununla belə, illər sonra-2011-ci ildə aşıqların və vətənpərvər sənətkarların tələbi ilə Musiqi Evinin seçkilərinə qatıldım. Təqdimat nitqimdə sizə üz tutaraq dedim ki, məqsədim Musiqi Evini öz sahiblərinə, yəni xalq musiqisini yaşadan sənətkarlara qaytarmaqdır.

Həmin iclasda siz ustad Toluinin yanında əyləşmişdiniz və mənim sözlərimə tab gətirə bilmirdiniz. Mən ədalətli tənqidlərimi və sübutlarla dolu iradlarımı səsləndirmək istəyəndə, siz Toluinin qulağına nəsə pıçıldadınız və o, mənim çıxışımı yarımçıq kəsməyə məcbur oldu. O seçkilərdə açıq saxtakarlıq edildi- bəziləri bir nəfər əvəzinə bir neçə səs verdi. Buna baxmayaraq, mən yenə də ikinci ən yüksək səs topladım. Etiraz etdikdə siz belə dediniz: “Bəzi dost sənətkarlar gələ bilmədilər, kartlarını mənə veriblər ki, adları ilə səs verim”.

İlk iclasdan etibarən israr edirdiniz ki, “şöbə sədri o şəxs olmalıdır ki, Musiqi Evində daha uzun müddət fəaliyyət göstərib”. Beləcə, yuxarı səviyyədə razılaşdırılmış təzyiqlərlə, həmin vəzifəyə özünüz oturdunuz.

## Pirniyakanın aşıq musiqisinə baxışı və tənqidlər...

Mən sizin təkəbbürlü və özünü yuxarıda görən xarakterinizi bildiyim halda, ümid edirdim ki, Musiqi Evində mədəni və ədalətli bir birlik yarada bilərik. Mən təkliflər verdim ki, hər il xalqların və bölgələrin musiqi festivalının keçirilməsi, eləcə də müxtəlif vilayətlərdə ustadların böyük tədbirlərlə yad edilməsi və regional şöbələrin yaradılması vacibdir. Belə ki, sənətkarlar hər iş üçün Tehrana səfər etməyə məcbur olmasınlar. Lakin siz bütün bu təkliflərə də qarşı çıxdınız və heç bir addım atmadınız. Hətta o dövrdə sizə demişdim: “Siz Azərbaycan ədəbiyyatı və musiqisi sahəsində mütəxəssis deyilsiniz və heç bir bilginiz yoxdur, mən İdarə Heyətində olduğum müddətdə sizin aşıqlar haqqında fikir söyləməyə haqqınız yoxdur”! Amma siz buna məhəl qoymadınız və hər işə qarışdınız. Hətta bir müsahibədə belə demişdiniz: “Türküstanda aşıq yoxdur. Aşıqlar Sasanilər dövrünün kozanlarıdır, sonra adları dəyişdirilib” və sair. Daha sonra iddia etdiniz ki, aşıqların yalnız “Məsri” adlı bir mahnısı var, o da ”Mitralara” ayinindən qaynaqlanıb.

Maraqlıdır! Əgər belədirsə, niyə siz həmin mahnını ifa etmədiniz? Və necə ola bilər ki, siz deyirsiniz ki, “Türküstanda aşıq yoxdur”, amma eyni zamanda onları Sasanilər dövründən qalma hesab edirsiniz?

## Tarixi faktlar və irsi qorumaq...

Eşitmədinizmi ki, Haqq Gərgərli adlı aşıq beş yüz ildən çox əvvəl Gərgər şəhərində doğulmuşdur və onun əsərləri 2023-cü ildə İran Aşıqlar Birliyi tərəfindən milli irs olaraq qeyd edilmişdir! Siz necə özünüzə icazə verirsiniz ki, gücünüz çatmayan yükün altına girirsiniz? Sən öz doğulduğun şəhərin nəhəng aşığını tanımırsan, amma o gödək əlini əlin çatmayan muqəddəs zirvələrə uzadırsan???

Ey məlumatdan uzaq Pirniyakan! Sizin doğulduğunuz yer həmin böyük aşığın vətənidir. Necə olur ki, belə dəyərli irsi inkar edirsiniz? Əlbəttə ki, bilmirsiz, indi deyim, qulağında sırğa olsun: türk millətinin şifahi ədəbiyyatının böyük qolu Aşıq ədəbiyyatı və tarixidi, dünyanın tarixçiləri Azərbaycan tarixini yazmaq istəyəndə, ancaq aşıqlara və aşıq sənətinə muraciət ediblər. Aşıqların sinələrində olan dastanların isə, sən heç adlarını da bilməzsən. Halbuki, min illər tarixi olan o dastanlarda hansi ərazilərin adları və kəndlərin adları çəkilib və türklər yer kürəsinin yarıdan çoxuna səpələnib, hökmranlıq ediblər. Mən hardan başlayım, hardan deyim ki, sən bir şey başa düşəsən, çünki bir vərəq tarix oxumayıbsan, hardan biləsən?!

Bizim ana dilimizdə belə bir deyim var: “Qınından çıxıb, qının böyüyünə minməz!”. Yəni, kimsə öz kökündən və vətənindən uzaq düşsə, dəyərini itirər. Sizlər bu əsassız sözlərinizlə türklərin tarixini, mədəniyyətini və mövcudiyyətini sual altına aldınız. Sizə üzülürəm ki, Musiqi Evindəki mövqeyiniz və davranışınız mədəni və milli birliyi zədələdi.

## Aşıq musiqisinin əhəmiyyəti və çağırış...

Bilin ki, aşıq musiqisi təkcə yerli bir şöbə deyil, həm də muğam musiqisinin kökündür. Musiqi quruluşlarının bir çoxu aşıqların ənənələrindən qaynaqlanır və aşıqlar bu melodiyaların ilk daşıyıcıları olmuşlar. Beləliklə, Azərbaycan musiqisini və aşıqları inkar etmək, eslində, İran və Şərq musiqisinin bir hissəsini inkar etməkdir.

Cənab Pirniyakan, görünür ki, siz Azərbaycan Respublikasının mövqeyini anlamırsınız və İran türklərinə qarşısınız. Biz bilirik ki, bu bəyanatlarla qonşu ölkələr arasında ixtilaf yaratmaq istəyirsiniz, amma İran türkləri və Azərbaycan xalqı həmişə dostluq, hörmət və sülh şəraitində yaşamışlar. Təəssüf edirəm ki, Musiqi Evində qazandığınız mövqe və ələ keçirdiyiniz alət, ilahi niyyətlə yaradılmış sənət aləti, sizin şəxsi ambisiyanız üçün istifadə olunub. Lakin mən hazıram ki, mədəniyyət və musiqi ustadları qarşısında sizinlə açıq debat edim. Siz sadəcə, mənim bir sualıma cavab verin, mən isə bütün suallarınıza cavab verəcəyəm, əlbəttə, əgər ana dilinizdə iki dəqiqədən çox danışa bilsəniz.

## Nəticə və çağırış...

**Sonda:** mədəni missiyama əsaslanaraq bəyan edirəm: Cənab Pirniyakan bu ağılsız və məsuliyyətsiz bəyanatı ilə yalnız sənət və türkdilli cəmiyyətimizi incitməyib, həm də milli birliyi zədələmişdir. Buna görə, mən İran Aşıqlar Birliyinin qurucusu və rəhbəri olaraq İran İslam Respublikasının hökumətindən, Mədəniyyət və İncəsənət Nazirliyindən, eləcə də digər mədəni və təhlükəsizlik qurumlarından xahiş edirəm ki, bu cür parçalanma yaradan və irsi təhqir edən düşüncə sahibi ilə ciddi və qanuni şəkildə məşğul olsunlar. Belə ki, heç kəs İran xalqının tarixi və mədəniyyətinə hörmətsizlik etməyə cürət etməsin. Bu sözlər yalnız mənim deyil, bütün aşıqların və İran türklərinin səsləridir. Biz bu haqsız bəyanatdan dərindən sarsılmışıq. Unutmayın: İran hamımızın evidir və heç kəsin bu böyük evin mədəniyyətini və kimliyini inkar etməyə haqqı yoxdur.

**Hörmət və mədəni məsuliyyətlə,**
**Aşıq Səlcuq Şahbazi,**
**İran Aşıqlar Birliyinin qurucusu**
**Tehran - 2025**

# Etibarnamə ilə etibar...

*Əminəm ki, Azərbaycan parlamenti və Azərbaycan hökuməti belə bir lazımsız, əhalidə ciddi narazılıq yaradan qaydanın aradan qaldırılması üzrə müvafiq tədbir görəcək”*

**Sovet repressiya və korrupsiya aparatının tərkib hissəsi olan ETİBARNAMƏ dünya miqyasında yalnız Azərbaycanda yaşadılır.**



Beynəlxalq şəffaflıq təşkilatının hesablamalarına görə keçmiş SSRİ -də ən çox korrupsiya törədici amil dövlət avtomobil müfəttişliyi sistemində maşınları idarə etmək üçün istifadə olunan başı bəlalı “ETİBARNAMƏ” sistemi olmuşdur. Bunu nəzərə alaraq kommunist sistemi dagildıqdan sonra bütün ölkələr bu sistemi ləğv etdilər və korrupsiya xeyli azaldi. Bir yalnız Azərbaycanda nəinki ləğv olunmadı, əksinə, daha da aqressivləşdirildi, kəskinləşdirildi. Bu “süni qaydaları” pozanların cərimələri isə dəfələrlə artırıldı və kəskinləşdirildi.

**Dünyada başqa hansı ölkələrdə avtomobil idarə etmək üçün etibarnamə sistemi qalır?**

Hazırda Azərbaycan doğrudan da dünyada avtomobil idarə etmək üçün yazılı etibarnamə sistemini gündəlik praktikada mütəmadi tətbiq edən yeganə ölkə kimi qalır: BMT üzvü olan 193 ölkədən yalnız biri -Azərbaycan Respublikası.

**“Kommunist sistemi dagildıqdan sonra bütün ölkələr bu sistemi ləğv etdilər və korrupsiya xeyli azaldi”**

**Digər ölkələrdə vəziyyət necədir?**

**- Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Gürcüstan, Ermənistan, Moldova - bu ölkələrdə etibarnamə ləğv olunub. Avtomobili idarə etmək üçün yalnız sürücülük vəsiqəsi və avtomobil sənədləri kifayətdir. Etibarnamə yalnız satış və ya hüquqi prosedurlar üçün istifadə oluna bilər.**

**- Şimali Koreya- məhdud məlumatlara əsasən, gündəlik sürücülük üçün etibarnamə tələb olunmur. Avtomobillər əsasən dövlətə və təşkilatlara məxsusdur və idarəetmə daxili qaydalarla tənzimlənir.**

**- İran, Türkmənistan, Özbəkistan - bu ölkələrdə etibarnamə istifadə oluna bilər, lakin məcburi deyil. Əsasən sərhəd keçidi və ya hüquqi əməliyyatlar üçün tələb olunur.**

**- Bəzi Afrika və Asiya ölkələri - etibarnamə kommersiya və ya hüquqi kontekstdə istifadə oluna bilər, lakin adi sürücülük üçün məcburi sənəd deyil.**

**Nəticə**

2025-ci ilə olan məlumata görə, Azərbaycan - avtomobil idarə etmək üçün etibarnamə sistemini qoruyub saxlayan və gündəlik həyatında tətbiq edən yeganə ölkədir. Digər ölkələrdə bu sistem ya ləğv olunub, ya da yalnız xüsusi hallarda istifadə olunur.

**Sual olunur:** nə üçün BMT üzvü olan 193 ölkənin 192-si bu mənfur qaydanı (korrupsiya törədici, butun hüquqlara zidd, vətəndaşlıq hüququna, mülkiyyət hüququna zidd amili) tətbiq etmir, bir yalnız Azərbaycan Respublikası günü-gündən bu tətbiqi “təkmilləşdirir”, genişləndirir, gücləndirir? Təsəvvür edin, ailə üzvləri ortaq mülkiyyətdə olan bir maşını (nə fərqi var, soyuducu, televizor, qayıq və s) istifadə etdiyinə görə 100 manat cərimə olunur və mülkiyyət cərimə meydançasına aparılır.

Əminəm, bu faktları təhlil edəndən sonra Azərbaycan parlamenti və Azərbaycan hökuməti belə bir lazımsız, əhalidə ciddi narazılıq yaradan qaydanın aradan qaldırılması üzrə müvafiq tədbir görəcək.

**Saleh Məmmədov,**
**Professor**

# Ağdam sakininin SAXTA VÖEN üzərindən 6437, 88 manat vergi borcu yaranıb

*“Hansı tikinti şirkəti barədə məlumat verməsə də, aylıq əmək haqqı 800-1000 manat arası olacağını söylədi”*



**Tezadlar.az-a Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 76, mənzil 19 ünvanında müvəqqəti yaşayan Ağdam rayonunun Quzanlı qəsəbə sakini Abdullayev Murad Nizami oğlunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanladığı müraciətinin surəti daxil olub.**

**Müraciətdə deyilir:**
**“Hörmətli cənab Prezident!**

İnanıram ki, aşağıda bəhs edəcəyim hadisəyə, başıma gətirilən müsibətə biganə qalmayacaqsınız və məsələni nəzarətə götürməklə, aidiyyəti üzrə tapşırıqlar verəcəksiniz və yaranmış problemin həlli istiqamətində əlinizdən gələn köməkliyi əsirgəməyəcəksiniz.

Bildirirəm ki, təxminən 2021-ci ilin ortalarında Bakının Nizami rayonunda yerləşən çay evlərinin birində tanış olduğum Zamir adli şəxs mənimlə dostluq münasibəti yaratmışdır. Bundan sonra o, məni Nərimanov rayonunda yeni tikintisi gedən yaşayış binalarının birində suvaqçı kimi işə düzəldəcəyini bildirmiş və bundan bir neçə gün sonra həmin işdə çalışmağın mümkünlüyünü adıma VÖEN açılacağı təqdirdə baş tutacağını dedi. Hansı tikinti şirkəti barədə məlumat verməsə də, aylıq əmək haqqı 800-1000 manat arası olacağını söylədi. Qeyd etmək istəyirəm ki, Dövlət Vergi Xidmətində məni qeydiyyatdan keçirdikdən sonra, o, müxtəlif bəhanələrlə verdiyi sözə əməl etmədi və telefon zənglərimə cavab vermədi. Daha sonra bu barədə onu tanıyan insanlarla əlaqə yaratmağa çalışdıqda, məlum oldu ki, o, eyni əməli digər şəxslərə də qarşı törədib. Hadisənin baş verdiyi müddətdən bir həftə sonra onu tanıyan insanların tövsiyəsi ilə Vergi Xidmətinə gedərək, adıma rəsmiləşdirilmiş VÖEN üzrə fəaliyyətin dayandırmasını xahiş etdikdə, məlum olmuşdur ki, son bir həftə ərzində üzərimə 6437, 88 manat ( altı min dörd yüz otuz yeddi manat, səksən səkkiz qəpik) vergi borcu öhdəliyi qoyulub.

Belə ki, Cəfərov Zamir Nadir oğlu inamımdan və etibarımdan sui-istifadə edərək, adıma VÖEN açdıraraq qanunsuzluq etməsi nəticəsində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Kiçik Sahibkarlıqka İş Üzrə Baş İdarəsinin iddia tələbi əsasında Gəncə Kommersiya Məhkəməsi tərəfindən qəbul edilmiş 28.03.2024-cü il tarixli QƏTNAMƏ ilə 100 manat dövlət rüsumu tutularaq tərəfimdən dövlət büdcəsinə ödənilməklə, ölkədən getmək hüququmun müvəqqəti məhdudlaşdırılmasına dair QƏRAR qəbul edilmişdir. Bir məqama xüsusi diqqət ayrılmasını xahiş edərək bildirmək istəyirəm ki, fəhlə kimi gecəni gündüzə qatıb min bir əziyyətlərə qatlaşaraq iki azyaşlı qız övladımın maddi ehtiyaclarını təmin etməyin və həyat yoldaşımın əlillik dərəcəsinə qədər keçirdiyi ağır cərrahiyyə əməliyyatı nəticəsində əməkqabiliyyətsiz olduğu bir vaxtda bu əsassız öhdəliyin ağırlığı fonunda sosial qayğılarla mübarizə aparmağın nə qədər çətin olduğunu hər kəs qəbul edər yəqin.

**Hörmətli cənab Prezident!**

Sizdən xahiş edirəm ki, baş verən qanunsuzluqlara hüquqi qiymətin verilməsi - Cəfərov Zamir Nadir oğlunun dələduzluq əməlləri nəticəsində üzərimə qoyulan 6437,88 azn vergi borcunun hadisəni törədən şəxsin üzərinə qoyulması üçün Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyevə və Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə mənə köməklik göstərilməsi istiqamətində öz müvafiq tapşırıqlarınızı verəsiniz.

İnanıram ki, sizə etdiyim bu rəsmi müraciətdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin rəisi Kənan Quliyev də baş verənlərə biganə qalmayacaq və cəmiyyətdə cəzasızlıq mühitinin yaranmaması naminə istintaq tərəfindən ədalətli qərar qəbul olunacaq, qeyd edilən 6437,88 manat borc məbləğinin Cəfərov Zamir Nadir oğlunun üzərinə qoyulmasına dair ədalətli qərar qəbul olunacaq.

Hörmətli cənab Prezident! Sizə əvvəlcədən bütün ailə üzvlərimiz adından dərin minnətdarlığımı bildirirəm”.

Müraciətdə irəli sürülən iddialarla bağlı qarşı tərəflərin mövqeyini dərc etməyə hazırıq.

**E. ŞİRİNOV**

# Balaca idmançı Rüqəyyanın uğur hekayəsi

**Sizə bu dəfə Rüqəyya Qarazadənin həyatının uğur hekayəsini danışacağam. Bu balaca qız 2022-ci ildən gimnastika ilə məşğuldur.**




Rüqəyya 5 yaşından Abşeron Olimpiya İdman Kompleksinin üzvüdür. Artıq 3 ildir ki, yarışlarda da iştirak edir. Arzusu idman müəllimi olmaqdır. Çox həvəslidir. Onda idmana həvəsi müəllimi Aygül Babaşova yaradıb. Aygül xanım peşəsini sevən müəllimədir. O, yetirmələrinə bədii gimnastikanın sirlərini öyrədir. Elə Rüqəyya Qarazadənin yarışlarda qazandığı uğurlarda Aygül Babaşovanın az əməyi olmayıb.



Rüqəyya Nişad qızı Qarazadə ilk yarışa Naxçıvan Muxtar Respublikada start verib.

4 aprel 2023-cü il tarixdə Milli Gimnastika Arenasında “Ocaq Sport” klubunun bədii gimnastika üzrə 2-ci açıq birinciliyində 1-ci yeri tutub.

12 noyabr 2023-cü ildə Milli Gimnastika Arenasında 2nd İnternational “Ojaq Cup”in Rhythmic Gymnastics-də 3-cü yerdə qərarlaşıb.

15 dekabr 2023-cü ildə Ocaqda Su İdman Sarayının bədii gimnastika üzrə “Winters Drop” açıq birinciliyində 3-cü yeri, qrup hərəkətləri ilə 1-ci yeri tutub.

22 dekabr 2023-cü ildə Ocaqda bədii gimnastika üzrə “Xəyala bir addım” açıq birinciliyində 1-ci yer tutub.

1 fevral 2024-cü ildə Bakıda “Baku Gym For All İnternational Challenge”-də 1-ci yer turub (qrupla).

24-26 sentyabr 2024-cü ildə Qubada keçirilən bədii gimnastika üzrə “GRACE OF NATURE” turnirində 2-ci yer tutub.

Və nəhayət, 2025-ci ildə “Gimnastika hamı üçün” 3-cü Bakı Beynəlxalq “Challenge” festivalında Abşeron gimnastları 1-ci yeri tutub.

Rüqəyya Qarazadə bu uğurlara, bədii gimnastikanın sirlərini ona aşıladığına görə müəllimi Aygül Babaşovaya dərin təşəkkürünü bildirir.

Mən də bir gənc olaraq bütün gənclərimizə tövsiyə edərdim ki, gələcək həyatlarında Rüqəyya Qarazadə kimi düzgün seçim etsinlər. Çünki uğur qazanmağın yolları, nəyəsə nail olmaq, daim irəli getmək, digər insanlardan fərqli olmaq, etdiyin işin yaxşı nəticəsini görmək məhz düzgün seçimdən keçir...

Xüsusi olaraq onu da vurğulamaq istəyirəm ki, biz gənclər hər uğurumuzda, hər qələbəmizdə dövlətimizin qayğısını öz üzərimizdə hiss edirik. Odur ki, yaşasın Azərbaycan! Yaşasın Azərbaycan xalqı! Var olsun Azərbaycan gəncliyi!

**Səma TAĞIZADƏ,**
**Bakı şəhəri**

# İsa Həbibəylinin qızının Almaniyada milyon avrodan çox pulu... - OĞURLANDI!

**Naxçıvan Dövlət Universitetinin keçmiş retkoru, AMEA-nın prezidenti İsa Həbibəylinin qızı Günay Məsimovanın Almaniyada bank seyfində saxladığı bir milyon avrodan artıq nəğd pulu və qiymətli əşyaları fırıldaqla ələ keçirilib. Hadisədən sonra polis təhqiqata başlayaraq, bu pulların hansı yollarla Almaniyaya gətirilməsini araşdırır.**




Tezadlar.az elektron mediada yayımlanan məlumatlara istinadla bildirir ki, Günay Məsimovanın yaxınlarına verdiyi məlumata görə, bankdakı seyfində 790 min avro dəyərində dollar və brilliyant, 330 min avro pul olub. Pulları və qiymətli əşyalarını ələ keçirən isə, onun Almaniyada yaşayan tanışı F.M. olub. O, pulları götürüb aradan çıxa bilsə də, polis qiymətli əşyaların bir hissəsini tapıb və məsələ aydınlaşana kimi müsadirə edib. Pulun dəqiq məbləği ilə bağlı rəsmi məlumat yoxdur.

Pulun və qiymətli əşyaların mənbəyini örənmək üçün Nürnberqdə araşdırma başlanılsa da, Günay Məsimova qaçdığından, işi başa çatdırmaq mümkün olmayıb.

Bu ilin əvvəlində baş verən hadisə ictimaiyyətdən gizlədilməyə çalışılsa də, Gündəlik Naxçıvan“ın araşdırmaları bəzi məqamları üzə çıxara bilib.

Araşdırmalarımız zamanı bəlli olub ki, Günay Məsimova Almaniyada saxta evlilik vasitəsi ilə yaşama hüququ alıb. Bundan sonra o, dəyəri 1 milyon avro olan villa və mənzil alıb. Villanın ünvanını dəqiqləşdirə bilməsək də, mənzil Berlin şəhr Kohulfurter küçəsində yerləşir.

Oğurluq hadisəsinin qısa təfərrüatı: “Günay Məsimova ötən ilin iyununda Bakıdan Almaniyaya gətirdiyi pullarını və qiymətli əşyalarını Nürnberqdə yaşayan tanışı F.M. vasitəsi ilə Sparkasse bankında seyfə qoymaq qərarına gəlib. Almaniyada bu cür seyflər qiymətli sənədlər və 10 min avro dəyərinə kimi qiymətli əşyalar üçün nəzərdə tutulsa da, bankın seyfləri açıb, yoxlamaq hüququ yoxdur.

Günayla görüşməzdən öncə F.M., bankın Fürth filialında dostlarından birindən xəbərsiz onun adına seyf hesabı açıb. O daha bir seyf hesabı da Günay Məsimovanı adına açıb və kartını özünə verib. Banka gəldikdən sonra F.M. ona güvənən Günayı aldadaraq, pulları onun yox, dostunun seyfinə qoyub. Yanvar ayında brilyant qaşlı qızıl saatlarından birini götürmək üçün banka gələn Günay Məsimova seyfinin boş olduğunu görüb. Telefon əlaqəsi saxladıqdan sonra Günay, F.M.-nin onu aldatdığını, pulu onun yox, dostunun adına olan seyfə qoyduğunu, bir müddət sonra isə götürüb, pribaltika ölkələrindən birinə qaçdığını öyrənib. O, pulların mənbəyinin soruşulacağını bildiyindən, oğurluq barədə polisə məlumat verməndən Bakıya qaçıb. Lakin F.M-nin aldadaraq adına gizli hesab açdığı Almaniyada yaşayan dostunun atası Ələsgər Vəliyev bütün olanlarla bağlı polisə məlumat verib. Polis zinət əşyalarından bəzisini tapa bilsə də, pullarla bağlı dəqiq məlumat toplaya bilməyib.

Bir ucu Azərbaycana gedib çıxan hadisə bununla bitməyib. Günay Məsimova polisə məlumat verən atadan qisas almaq üçün Bakıda Gbandotdel“dən istifadə edib. İyun ayında istirahət üçün Bakıya gedən Ələsgər Vəliyevin həyat yoldaşı Amaliya Vəliyeva aeroportda saxlanılaraq, bu idarəyə aparılır. Daha sonra ondan tələb ediblər ki, 500 min manat dəyərində olan Heydər Əliyev prospektindəki evlərini Günay Məsimovanın adına keçirsin. Bundan sonra onun Azərbaycandan çıxışına da qadağa qoyulub. Davamlı həbslə hədələnən Amaliya Vəliyeva sonunda evi Günayın adına keçirməklə razılaşmağa məcbur olub. Nəhayət, bundan sonra onun ay yarımlıq girovluğu başa çatıb və ölkədən çıxışına icazə verilib...”.

Maraqlıdır ki, bu pullar Azərbaycandan xaricə necə və hansı yollarla daşınır ki, Azərbaycan gömrüyünün xəbəri olmur? Bəlkə, əksinədir...

**“Təzadlar”**

# Ramiz Mehdiyev: nankorluq və xəyanət anatomiyası - onun planında kimlər olub?

*"Azərbaycan" qəzetini Ramiz Mehdiyevə həsr etmiş və ona "Atam, ağsaqqalım..." demiş, 20 il Ağdamdan sərasər deputat edilmiş Bəxtiyar Sadıqov və Bəxtiyar Əliyev də diqqətdən kənarda qalmamalıdır, çünki...*

**Prezident İlham Əliyev Azərbaycanın siyasi tarixinin dəyərlərinə, ənənələrə, siyasi irsə dərin ehtiram göstərən dövlət adamıdır. O, müstəqillik tariximizdə dövlətin və xalqın maraqları uğrunda cəsarətlə mübarizə aparan ictimai-siyasi xadimlərin, nüfuzlu şəxsiyyətlərin, habelə ağır, mürəkkəb bir dövrdə Azərbaycanın dövlət müstəqilliyinin bərpası və sonrakı mərhələdə ölkənin inkişafının təmin edilməsində misilsiz xidmətləri olan Ulu Öndər Heydər Əliyevin komandasında təmsil olunmuş şəxslərə də həmişə hörmətlə yanaşıb.**



İlham Əliyev Ulu Öndərin komandasının üzvlərinin böyük bir qismi ilə siyasi hakimiyyətini davam etdirib, onların uzun illər iqtidarda təmsil olunmasına şərait yaradıb. Zamanı çatanda isə bu şəxslər yüksək dövlət təltifləri ilə mükafatlandırılaraq, hörmətlə təqaüdə yola salınıblar. Məsələn, sabiq baş nazir Artur Rasizadə "İstiqlal", "Şöhrət", "Şərəf" ordenləri ilə təltif olunub. O, təqaüddə olduğu dövrdə belə İlham Əliyev Artur Rasizadəni, onun xidmətlərini unutmayıb, Azərbaycan dövlətinə sadiqliyini dövlətin ən ali ordeni ilə qiymətləndirib. Bu il Prezident Əliyev təqaüddə olan Artur Rasizadəyə "Heydər Əliyev" ordenini şəxsən özü təqdim edib, sabiq baş naziri Ulu Öndərin və özünün sadiq dostu kimi yüksək dəyərləndirib. Eynilə, baş nazirin müavinləri Elçin Əfəndiyev, Abid Şərifov, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov və digər məmurlar da diqqətdən kənarda qalmayıblar, dövlətin ali mükafatları ilə təltif edilərək, təqaüdə yola salınıblar.

## Qüsur, xəta bağışlanır, nankorluq və xəyanət yox!

Düzdür, məsul vəzifə daşıyan bu və digər şəxslərin müəyyən qüsurları, səhvləri, xətaları da olub ki, bu, hər bir işdə var. Əgər dövlətə təhlükə yaratmırsa, cəmiyyətin mənafelərini tapdalamırsa, onları bağışlamaq, üzərindən keçmək, güzəşt etmək olar və bəzi məqamlarda dövlət başçısı bunu da edib. Prezident İlham Əliyev üçün əsas prinsip dövlətə, dövlətçiliyə sədaqətlə xidmət, siyasi irsə hörmət olub.

Heç şübhəsiz ki, uzun müddətli siyasi hakimiyyət dönəmi yalnız sadiqlər, dövlətçilik prinsipi ilə xidmət edənlərlə xatırlanmır. Bu dövrdə dövlətə də, siyasi hakimiyyətə də, Prezident İlham Əliyevin etimadına da xələf çıxanlar olub. Bunların arasında dövlətə külli miqdarda ziyan vuran, onun siyasi və iqtisadi əsaslarına təhdid yaradan, müxtəlif dövlət çevrilişi ssenarilərində yer alan nankor və xəyanətkar məmurlar, siyasətçilər olub.

Azərbaycan siyasi hakimiyyəti və xüsusi xidmət orqanları son 22 ildə bir neçə dəfə dövlət çevrilişinə cəhdi, hakimiyyətin zorla ələ keçirilməsi üçün hazırlanmış planları ifşa ediblər. Müxtəlif vaxtlarda bütün siyasi taleyi üçün Ulu Öndərə və Prezident İlham Əliyevə minnətdar olmalı olan bəzi məmurların özgə qapılarından ümid dilənməyinin şahidi olmuşuq.

## Siyasi tarixinin dəyərlərinə və siyasi irsə dərin ehtiram

## Abbas Abbasov - nankor yavər

Məsələn, Baş nazirin sabiq birinci müavini Abbas Abbasov bu siyahının "parlaq" nümayəndələrindən hesab oluna bilər. O da eynilə, 2006-cı ildə vəzifəsindən azad edildi və "İstiqlal" ordeni ilə təltif edilərək, hörmətlə yola salındı. Düşünmək olardı ki, bundan sonra o, akademik fəaliyyətlə, bizneslə məşğul ola, yaxud ailə mühitində nəvə-nəticələrinə babalıq edə bilər. Amma Abbas Abbasov hakimiyyət eşqinə düşdü və başqa paytaxtlarda nicat axtarmağa başladı.//... 2013-cü ildə Azərbaycanda dövlət çevrilişinə cəhd planlarını xatırlamaq yerinə düşər. Həmin vaxt Rusiyada "Milyarderlər ittifaqı" quruldu, azərbaycanlı iş adamları bu ittifaqa cəlb edildi, onların Azərbaycanın siyasi müxalifəti ilə əlaqələri formalaşdırıldı. Bu prosesdən bir qədər əvvəl "Ziyalılar Forumu" yaradılsa da, az sonra orda toplaşan ziyalılardan bəziləri məsələnin mahiyyətini anladılar. Məqsədini "cəmiyyətin problemlərinin müzakirəsi" elan edən Ziyalılar Forumunun bəzi üzvlərinin siyasi bəyanatlar səsləndirməsi digərlərinin bu klubdan uzaqlaşmasına səbəb oldu. Bunun ardınca isə həmin "ziyalılardan" bir qisminin və radikal müxalifətin toplaşdığı "Milli Şura" adlı rusiyapərəst birlik formalaşdı. Prezident seçkilərindən sonra bu şuranın Rusiya prezidentinə məktubu da mediada yayıldı. Bütün bu prosesdə Rüstəm İbrahimbəyov irəli verilib, "Milli Şura"nın vahid namizədi elan olunsa da, hamıya aydın idi ki, dirijorun solo çıxış üçün müəyyənləşdirdiyi şəxs məhz Abbas Abbasovdur. Abbas Abbasov həmin vaxt nəinki Azərbaycanın daxilindəki köhnə tanışlarından istifadə edir, Rusiyada onunla eyni siyasi mövqedən çıxış etməyən diplomatlara, iş adamlarına və diaspora üzvlərinə qarşı repressiv cəzalar tətbiq etdirirdi. Yeri gəlmişkən, həmin vaxt xaricdə çalışan bəzi diplomatlarımız Abbas Abbasovun Rusiya bazarlarına qədər gedib, ordakı azərbaycanlıları belə bu prosesə qoşmaq istəməsi barədə açıqlamalar verirdilər. Bu açıqlamalardan sonra Ramiz Mehdiyev onların media çıxışlarına qadağa tətbiq etmişdi, Elmar Məmmədyarov isə diplomatları XİN sistemindən uzaqlaşdırmışdı.

Həmin dövrdə bu planlar baş tutmadı, xalqımız şimaldan əsən avantüra küləyinə aldanmadı, siyasi dəllallara dəstək vermədi. Bundan sonra Abbas Abbasov müəyyən dövr itdi, efirdə görünmədi. Sonra aydın oldu ki, o, milyarder Telman İsmayılovun yanında işə düzəlib. Belə ki, Abbasov İsmayılovun qonaqlarını qarşılayır, yola salır, bir sözlə, lakeylik edir, Telman İsmayılovun yavəri qismində çalışırdı.

Bütün bu avantüradan sonra, 2013-cü ildə Rusiya prezidenti Vladimir Putin Azərbaycana səfər etdi. Həmin səfər çərçivəsində keçirilən müzakirələrlə bütün məsələlərə son qoyuldu.

Yeri gəlmişkən, Abbas Abbasov bu günə kimi Azərbaycana gələ bilmir. O, erməniəsilli qaynanasının dəfnində belə iştirak edə bilmədi.

## Şimal küləyinə oynayan daha bir ad - Ramiz Mehdiyev

Siyasi əqidəsi şimal küləyi ilə sovrulan daha bir məmur isə Ramiz Mehdiyev oldu. Sirr deyil və Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, Mehdiyevin və onun yaxın ətrafının fəaliyyəti Azərbaycana çox ziyan vurub. Bütün siyasi karyerasını, siyasi varlığını Ulu Öndər Heydər Əliyevə borclu olan bu bürokrat hələ 1980-ci illərdə Ulu Öndərin Azərbaycandan Moskvaya getməsini və orda ermənilərin Azərbaycan üçün yaratdığı problemlərlə mübarizə aparmasını fürsət bilərək, ona yaxınlığı, sədaqəti ilə seçilən şəxsləri Bakıdan uzaqlaşdırıb, əyalətlərə göndərirdi. Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra fuşesayağı riyakar üzünü geyinən Mehdiyev yenə yazıq görkəmdə onun qarşısında dayanıb, məzlum məzlum əfv dilədi. Amma "bir dəfə satan həmişə satar!"

Ulu Öndərin hakimiyyəti dövründə də mətbuat Ramiz Mehdiyevin bir sıra şəxsləri ətrafına yığaraq, hakimiyyət sevdası barədə müzakirə apardığını yazdı. Həmin vaxt Ramiz Mehdiyev ona biət edənlərin bir qismini qurban verərək, sudan quru çıxa bildi.

Ramiz Mehdiyev əlinə düşən hər fürsətdə hakimiyyət daxilində gücünü göstərmək,ona biət etməyənlərə qarşı şər torbası toxumaq şakərindən heç vaxt vaz keçmədi.

Ətrafına yığdığı deputatlar, elm adamları vasitəsilə özünü "ideoloq", "siyasətçi", "dövlət adamı", "filosof" kimi təqdim etməyə çalışsa da, Ramiz Mehdiyev heç vaxt buna nail ola bilmədi. O, sadəcə icraçı, bürokrat, kitablarını 3-5 alimə yazdıran kopyabaz, Makiavellidən əzbərlədiyi 3-4 cümlə ilə göz boyamağa çalışan diletant, Rusiyadan gələn zənglərlə özünü xoşbəxt hiss edən emissar idi.

***

Ramiz Mehdiyev həmişə kiçik intriqalardan, tələlərdən, dedi-qodudan, şantajdan və böhtandan istifadə edən məmur olub. O, özünün və şəbəkəsinin lazımlılığını göstərmək üçün daim radikal siyasi müxalifəti ayaqda saxlamağa çalışıb, Ulu Öndər və Prezident İlham Əliyev haqqında müxalifət mətbuatında iyrənc yazılar sifariş edib. Ramiz Mehdiyev müxalifətin 2003-cü ildən sonra dağılmış parçalarını zorla bir yerə toplayaraq, varlığına şərait yaradıb. Ramiz Mehdiyev özünün nəzarətində olan bu müxalifətçilərdən zaman - zaman "deputat", media rəhbəri, QHT sədri hazırlamaqla, "iş görən", müxalifəti zərərsizləşdirən" məmur obrazı formalaşdırıb.

## Ramiz Mehdiyevin limiti bitir

2017-2018-ci illərdə isə Ramiz Mehdiyevin oyunları müntəzəm xarakter almağa başladı. Qarşıda böyük hədəf-Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və suverenliyin bərpası prosesi var idi. Bu prosesi indiyə qədər dözüm göstərilən rusiyapərəstlərlə görmək mümkün deyildi.

Ümumiyyətlə, İlham Əliyevin siyasi karyerasını və siyasi gedişlərini yaxından izləyən hər bir təhlilçi bunu görə bilir ki, dövlət başçısı inanmadığı, etimad göstərmədiyi adamları dövlət üçün strateji əhəmiyyət kəsb edən heç bir prosesə daxil etmir. Bu dəfə də belə etdi. Prezident Əliyev öz xarakterinə və siyasi prinsiplərinə sadiq qalaraq, Ramiz Mehdiyevi 2019-cu ildə hörmətlə Prezident Adminstrasiyasının rəhbəri vəzifəsindən yola saldı.

Prezident Administrasiyasının rəhbəri olduğu dövrdə yaratdığı bütün problemlərə və etdiyi naqisliyə baxmayaraq, ona qoca yaşında bir daha şans verildi və AMEA Prezidenti vəzifəsi həvalə olundu. Heydər Əliyev komandasında mühüm postlardan birini tutduğu nəzərə alındı və düşünüldü ki, ahıl yaşında ömrünün sonunu rahat yaşayar.

## Ramiz Mehdiyevin AMEA-dakı siyasətbazlığı

Ramiz Mehdiyev AMEA-da növbəti rüşvət və intriqa yuvası yaratdı. Elm ocağının adı bütün tarixi boyu Ramiz Mehdiyevin dövründəki qədər elmə aid olmayan intriqa və rüşvətdə hallanmamışdı.

Ramiz Mehdiyev 2019-cu ildə AMEA-a gələndə Prezident Administrasiyasındakı köməkçilərindən olan Eldar Əmirovu da (Ramiz Mehdiyevin bəzi əsərlərinin, məqalələrinin müəllifi olduğu deyilir) AMEA-ya apardı. Onu, AMEA Prezidentinin Katibliyinin rəisi təyin etdi. Halbuki, AMEA Nizamnaməsində belə struktur nəzərdə tutulmamışdı. Ramiz Mehdiyev dərhal özü üçün belə bir "katiblik" yaratdı və AMEA-da siyasi fəaliyyətə başlayıb, qurumun saytını siyasi bəyanatların yayıldığı mənbəyə çevirdi.

Bütün AMEA institutları onu istefasını tələb etdilər və o, 2022-ci ildə AMEA Prezidentliyindən istefa verməli oldu.

Ramiz Mehdiyev vəzifəsindən uzaqlaşdırılsa da, AMEA-dan uzaqlaşmırdı. 2022-ci il fevralın 22-də AMEA-nın Ümumi Yığıncağında istefası qəbul edilən Ramiz Mehdiyevin martın 17-də Akademiyada olduğu haqda məlumat yayıldı. AMEA-dan verilən açıqlamada onun binaya şəxsi əşyalarını götürmək üçün gəldiyi bildirilmişdi. Ancaq sonra məlum oldu ki, Ramiz Mehdiyev Akademiyada, məhz Akademiya Prezidentinin otağında Rusiyadan gələn nümayəndələrlə - Rusiya Elmlər Akademiyasının prezidentinin köməkçisi ilə görüş keçirib.

## Ramiz Mehdiyevin son xəyanəti

Ramiz Mehdiyevin son illərdə də şimal küləyi ilə nəfəs aldığı məlum idi. Ümumiyyətlə, Moskvanın agentura şəbəkəsinin üzvlərinin müxtəlif vaxtlarda fəallaşmaları Azərbaycan üçün təzə xəbər deyil. Mehdiyev Azərbaycan və Rusiya arasındakı son siyasi gərginlikdən istifadə edərək, yenə də öz xidmətlərini təklif edib.

Məlumatlara görə, o, özünün rəhbərliyi ilə dövlət hakimiyyətini zorla ələ keçirmək planına dəstək istəyib. Hətta "reallaşdıracağı" çevrilişdən sonrakı planları barədə də məlumat verib. Plan Dövlət Şurası (yenə Şura!) adlı keçid hökuməti qurmaq, Şuraya da Mehdiyevin rəhbərlik etməsi ilə bağlı olub.

Amma Ramiz Mehdiyevi güvəndiyi, dövlətinə xəyanət etmək üçün kömək istədiyi tərəf də qurtarmadı. Bəzi yaltaqların sevimli "dövlət adamı" Azərbaycan siyasi hakimiyyətinin və şəxsən İlham Əliyevin hakimiyyətinin ən güclü dövründə olduğunu, dünyanın bir nömrəli mərkəzlərində hörmətlə qarşılandığını nəzərə ala bilməmişdi. Deputat Elşən Musayevin "böyük strateqi" heç özündən əvvəl şimal küləyində siyasi sümükləri Telman İsmayılovun həyətinə səpələnən Abbas Abbasovun acı taleyindən də dərs çıxara bilməmişdi.

Dərhal Dövlət Təhlükəziliyi Xidmətində istintaq başladı. Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olundu. Onun barəsində 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçilib. İstintaq davam edir.

## Ramiz Mehdiyevin şəbəkəsində kimlər var?

Ramiz Mehdiyevin həbsi onun ətrafına, onunla yaxın olanlara, iddialarına şərik çıxanlara və ya belə iddialara düşənlərə aydın mesajdır.

Ramiz Mehdiyevin yaxın ətrafında olub, onun fikirdaşı qismində tanınanlar arasında sabiq XİN rəhbəri Elmar Məmmədyarov, Prezident Administrasiyasının sabiq şöbə müdiri Əli Həsənov, sabiq mədəniyyət naziri Əbülfəs Qarayev, özünü "hakimiyyətin bolşeviki" hesab edən, vaxtilə AXCP-nin gənclər təşkilatının fəali olan Azər Qasımov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və onun müəyyən məqsədlər üçün Abxaziyaya pul ötürən qudası Cahangir Hacıyev, bu xəyanətkar şəbəkənin digər üzvləri tövbə edib, aidiyyəti yerdə sədaqət andı içməlidirlər.

Əlbəttə ki, Ramiz Mehdiyevin "qara kassası" Ziya Məmmədov da kənarda qalmamalıdır. Yeri gəlmişkən, Ziya Məmmədovun Göyçayda Mehdiyev üçün tikdirdiyi böyük villa hələ də yerində qalır. Elə bu şirin əlaqələrin nəticəsi idi ki, Ramiz Mehdiyev AMEA-ya gələndə ətrafına yığdığı "sadiqləri" arasında başda Ziya Məmmədovun qardaşı, sabiq deputat Elton Məmmədov dayanırdı. Elton Məmmədov AMEA-nın "Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru təyin edilmişdi və Ramiz Mehdiyev üçün rüşvət sxeminin qurulması, onun idarə edilməsi ilə məşğul olan əsas iki adamdan biri idi.

Ramiz Mehdiyevin dəstəsində "Tərtər işi"nə görə məhkəmə sistemindən uzaqlaşdırılmış Kamal Əliyev də var idi. Ramiz Mehdiyev ordakı tapşırıqlarını yerinə yetirən Kamal Əliyevi Akademiyanın hüquq şöbəsinin müdiri vəzifəsinə təyin etməklə işsiz qoymamışdı. Sabiq PA rəhbəri kürəkəni İlham Əliyevin qardaşı Fikrət Əliyevi isə işlər idarəsinə müdir təyin etmişdi.

Məlumatlara görə, Elton Məmmədov vasitəsilə Ziya Məmmədov da Mehdiyevlə daim əlaqədə olub.

Ramiz Mehdiyevdən "dövlət adamı" obrazı düzəltməyə çalışan və onu "atası" adlandıran Zahid Oruc, Mehdiyevi "böyük şəxsiyyət" hesab edən Məlahət İbrahimqızı və digər deputatlar, ayrı-ayrı orqanlarda oturanlar bilməlidirlər ki, nankorluğun, xəyanətin sonu acınacaqlı olur.

## Adnan Əhmədzadə və Ramiz Mehdiyev

Daha bir maraqlı məqam isə ondan ibarətdir ki, Ramiz Mehdiyevin siyasi planlarının və xəyanətinin ifşa olunması bir müddət əvvəl Adnan Əhmədzadənin iqtisadi təxribatı ilə eyni vaxta təsadüf edir.

Adnan Əhmədzadə öz əməli ilə Azərbaycanın əsas ixrac məhsulu olan nefti, ötürücü kəmərləri, tankerləri , zavodları sıradan çıxardı, ölkəyə böyük maliyyə və iqtisadi zərbə vurdu, ən əsası isə, ölkəmizin beynəlxalq müstəvidə etibarını sarsıtmağa çalışdı. Onun bunu tamah məqsədilə etdiyi, yoxsa diversiya həyata keçirdiyini istintaq daha dəqiq müəyyənləşdirəcək.

Ramiz Mehdiyev isə siyasi diversiya planları quraraq, onu həyata keçirməyə çalışdı. Bu təxribatların eyni vaxtda baş verməsi təsadüf olmaya da bilər. Hər halda, aidiyyəti orqanlar məsələni tam araşdırıb həqiqəti üzə çıxaracaqlar.

## TŞ-dan çıxarıldı, fəxri adları da geri alınacaq

Ramiz Mehdiyev Azərbaycan Respublikası Təhlükəzlik Şurasının üzvlüyündənazad edildi. APA-nın əldə etdiyi məlumata görə, o, yüksək dövlət mükafatlarından da məhrum ediləcək. Onun AMEA-nın həqiqi üzvlüyündən və YAP sıralarından xaric ediləcəyi şübhə doğurmur. Təbii ki, AMEA və YAP sıralarında dövlətə xəyanət ittihamı ilə yaşayan birini saxlamayacaq. Ramiz Mehdiyev həyatını yüksək dövlət mükafatları olan, bürokratik sistemdə uzun müddət çalışmış, ömrü boyu həsrətində olduğu ziyalı adını qazana bilməsə də, akademik elmi dərəcəsi və hakimiyyət partiyasının funksioneri kimi başa vura bilərdi. Ailəsi, övladları və yaxınları Azərbaycan Prezidentinin onlara lütf etdiyi himayənin altında yaşaya bilərdilər. Amma Ramiz Mehdiyev dövlətə xəyanət ittihamı ilə, bütün titul və adları geri alınmış, Azərbaycan dövlətinə və xalqın Zəfər Liderinə xəyanət etmiş şəxs kimi tarixdə qalmağı, belə ölməyi seçdi.

## Hamısı ifşa olunacaq!

Bütün bunlarda bir həqiqət var: bu şəbəkənin görünən və görünməyən üzvlərinin hamısı ifşa olunacaq. Amma onların özlərinin aidiyyəti orqana gəlib istintaqla əməkdaşlıq etməsi daha düzgün addım olardı. Digər tərəfdən, bir çoxlarının fəaliyyəti də, niyyətləri də, əməlləri də bəlli olduğuna görə, tövbə qapısının hələ də açıq olduğunu unutmamalıdırlar. (APA).

# Lixtenşteyndə “Qarabağ”ı tanıyanlar və tanıdanlar



**...Məzuniyyətdən istifadə edib, tezadlar.az-ın İsveçrədə xüsusi müxbiri kimi Avropada kiçik bir səyahət planı çızdıq, İsveçrəyə yaxın olan Lixtenşteynə səfər etdik. İsveçrədə hər ilin sonu növbəti il üçün məzuniyyət cədvəli tərtib edib, iş yerinə təqdim etməlisən. Əlli yaşına qədər işçilərin bir ildə 5 həftə, 50 yaşdan yuxarı işçilərin isə, il ərzində 6 həftə məzuniyyət haqqı var. Bu həftələr birlikdə və başqa-başqa aylarda ola bilər. İsveçrədə məktəblilərin yay tətilindən başqa, hər biri 2 həftə olmaqla daha 4 tətili olur. Bu tətillər fəsillərin dəyişməsi dövrünə görədir.**

Adətən valideynlər uşaqlarla birgə istirahət, səyahət etmək üçün öz iş məzuniyyət günlərini seçərkən, məktəb tətillərini nəzərə alırlar. Biz də məhz bu amili nəzərə alıb, yaxın Lixtenşteynə səyahət etmək qərarına gəldik.

Əvvəl qatarla, ardınca avtobusla davam edən yolçuluğumuz 3 saat sonra bizi Lixtenşteynin paytaxtı Vadusa gətirdi. Avropanın bu ən kiçik ölkəsi haqda geniş yazmağa ehtiyac görmürəm, sadəcə onu qeyd edim ki, ərazisi 160 kv.km., əhalisi isə, 41 min nəfərdir. Ölkə qərbdə İsveçrə, şərqdə isə Avstriya ilə həmsərhəddir. Rəsmi dilin alman dili olması (90% bu dildə danışır), mənim işimə yarayırdı. Ölkə əhalisinin 70%-dən çoxu xristianlığın katolik məzhəbinə tapınır.Ölkənin iqtisadiyyatında heyvandarlıq, əkinçilik (taxıl, tərəvəz, üzüm becərilməsi)xüsusi yer tutur. Lixtenşteyn yüksək keyfiyyətli şərabları ilə də məşhurdur.

*“Onlarla söhbət əsnasında doğma “Qarabağ” komandasının azarkeşi və həmşəhərlisi olduğumu da qeyd etdim”*

Bu kiçik Ölkənin əsas gəlirində turizmin də çox böyük payı var ki, mən özüm də bunun şahidi oldum. Burda indi payız - havanın çox da isti olmamasına baxmayaraq, hara gedirsənsə, qarşılaşdığım adamların əksəriyyəti tutistlərdir.Vadusda otel haqqı və yeməklərin qiyməti yetərincə bahadır, yəqin elə həm də buna görə Lixtenşteyn Avropanın ən bahalı ölkələrindən sayılır. Burada gördüyüm yerli sakinlər ilk baxışda heç də Almaniyada və ya İsveçrədəki kimi salamsevər deyillər, ancaq ünsiyyətə girdikdə mehribandırlar və sənin hər sorğuna məmnuniyyətlə ətraflı cavab verirlər. Mən adi avtobus sürücüsü ilə söhbətimdə bir daha buna əmin oldum. Hətta sürücü mənim azərbaycanlı olduğumu biləndə söhbətimiz daha maraqlı oldu və özləri barədə ətraflı məlumat verdi...

Vadus kiçik şəhərdir, təmizdir, səliqəlidir. Mərkəzi küçəsi elə köhnə şəhərdir. Burda ölkə muzeyi, incəsənət muzeyi, əsrlərin yadigarı kilsə, tarixi hökumət binası v.s yerləşir ki, ona görə də şəhərin bu hissəsi həmişə turistlərlə dolu olur. Bir az hündürdən - meşənin içində isə məşhur Vadus qalası boylanır. Qalaya çıxmaq üçün meşənin içində, dolanbac yollarla 15-20 dəqiqə yamaca qalxmaq lazım gəldi...

Turistlərdən söz düşmüşkən, onların əksəriyyəti Asiyadan - Çin, Hindistan və.s. ölkələrdəndir. Bütün günü Vadusda gəzib dolaşdıqdan sonra, əvvəldən sifariş etdiyimiz otelə getdik. Heç də ucuz qiymətə olmayan, ancaq yaxşı (onlayn) xidmətə malik oteldə gecəni dincəlib, sabahı şəhərin “Vadus” futbol klubunun stadionunu ziyarət etdim. Kiçik (6127 oturacaq), ancaq yaraşıqlı “Reynpark” stadionu göz oxşayan arenası ilə məndə xoş təəssürat oyatdı.

Stadionun yerləşdiyi şəhər kənarı ərazi isə, çox gözəldir, bir tərəf meşə, bir tərəf yaşıl yamac, təmiz hava və sakitlik. Lakin bütün bunlardan başqa, stadionda rastlaşdığım işçilər, məşqçilərin mehribanlığını da qeyd etməliyəm. Onlarla söhbət əsnasında doğma “Qarabağ” komandasının azarkeşi və həmşəhərlisi olduğumu da qeyd etdim. Sevindirici haldır ki, “Qarabağ”ın son illərdə Avropa arenasındakı uğurları onu indi daha da məşhurlaşdırıb və artıq komandamızı Vadusda da yaxşı tanıyırlar. Onlardan komandamız haqda qürurverici sözlər eşitməyin isə bir ayrı təəssüratı oldu. Yerlilər, hətta Azərbaycan millisi haqda da xatırladılar. Yeri gəlmişkən deyim ki, 1932-ci ildə yaranmış “Vadus” hazırda İsveçrə çempionatının 2-ci divizionunda çıxış edir. Əvvəllər avrokuboklarda da çıxış edib. Həm də bu mötəbər yarışlarda Lixtenşteyni ilk təmsil edən klub olub. Kim bilir, bəlkə yenə nə vaxtsa yenidən daha uğurlu çıxışları ilə özünü xatırladacaq və bizim Azərbaycan komandalarını da Lixtenşteynə gətirəcək...

İki günlük səfəri başa vurub, geriyə evə - İsveçrəyə döndük. Səfər məndə xoş təəssürat yaratdı. Düzdür Lixtenşteyn İsveçrədən çox şey ilə fərqlənmir, hətta bəziləri onu İsveçrənin bir kantonu (vilayəti) sanır, ancaq fərqli cəhətlər də var. Əlbəttə, ortaq alman dili, ortaq kültür, oxşar mətbəx, tədavül vahidi olan İsveçrə frankı və s. Lixtenşteyni daha da doğma edir.

Bütün hallarda salamat qal, Lixtenşteyn, hələlik Vadus. Qismət olsa, yenə gələrik.

**P.S.Ötən həftə əziz “Təzadlar-”ın media sahəsindəki bir uğurunu eşitdim, 4 əməkdaö “Veysəloğlu” Şirkətlər Qrupunda 1 birinci və 3 həvəsləndirici mükafatlara, nəhayət, qəzetin baş redaktoru Asif Mərzili isə Prezidentin Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilmişdir... Özünün yaranmasının (1993) artıq 33- cü ilini qeyd etməkdə olan qəzetin doğma kollektivini və onun rəhbəri Asif bəyi ürəkdən təbrik edirəm, hər kəsə yeni yaradıcılıq uğurları arzulayıram.**

**İlham Rəsul,**
**Vadus - Lixtenşteyn**

**Yenə dərslər başladı və yenə də uşaqlar məktəbdən çox hazırlıq kurslarına üz tutdular. Amma bu hazırlıq “yarışı”nın axırı hara gedəcək, heç kim bilmir. “Hazırlıq” sözü deyilən kimi, valideynin ağlına ilk olaraq hesab-kitab düşür: hansı müəllimə nə qədər ödənəcək? Hər evdə eyni sual, eyni narahatlıq... Artıq vəziyyət bazara bənzəyir: bir müəllim deyir filan məbləğ, digəri bir az da çox istəyir. Hərənin öz qiyməti, öz “tarifi” var. Valideynlər isə, seçim qarşısında qalır. Nəticə isə dəyişmir və ildən-ilə hazırlıq qiymətləri qalxır, amma kasıb ailələrin gəlirləri yerində sayır. Bu yükü kim daşıyacaq, bu gedişatın sonu necə olacaq? Göründüyü kimi suallar açıq qalır.**

# Orta məktəblərdə təhsil pulludursa... - NAZİR EMİN ƏMİRULLAYEVİN MENYUSUNA

## *Məktəblərdə valideyn komitələri: könüllülük, yoxsa məcburi öhdəlik?*



Söhbət təkcə hazırlıq xərcləri ilə bitmir. Yeni tədris ilinin başlanması ilə yanaşı, valideynlərin illərdir üzləşdiyi başqa bir problem də yenidən gündəmə gəlir: valideyn komitələrinin pul toplaması. Əslində, komitələrin məqsədi müəllimə və məktəbə dəstək göstərmək, lazım olan məsələlərdə valideynləri birləşdirmək olmalıdır. Lakin bir çox valideyn deyir ki, bu iş çox vaxt məcburi öhdəliyə çevrilir və ailələrin üzərinə əlavə maddi yük qoyur.

Məktəblərdə yeni tədris ili başlayır, amma köhnə problemlər də qapını döyür. Sinif otaqlarında dərs başlamazdan əvvəl bir başqa “dərs” keçirilir: valideyn komitələrinin pul yığımı. Bir müəllimənin əlaltısı olan valideyn düşür ortaya və adamı sözlə nakaut edir.

Valideynlərdən pul toplama kampaniyası başlayır: Elə bil bazarda alver gedir - biri deyir “gül pulu”, o biri deyir “gündəlik pulu...”.

Ay camaat, indi də pullu iş dəftəri peyda olub. Təhsil Nazirliyinin kitabları var axı, onları niyə veriblər? Başa düşən varsa, mənə də izah etsin! Elə bil bir tərəfdən pulsuz kitab verirlər, o biri tərəfdən də “gizli vergi” kimi geri yığırlar.

Bir sözlə, dərs başlayar-başlamaz kartlar göydən yağır: “filan şey üçün bu qədər pulu hazırlayın”. Vallah, işə çatmamış telefona mesaj gəlir: buna 5 manat at, ona 10 manat at. Adam elə bil uşağı məktəbə yox, hansısa “fond yığımına” göndərir.

İndi də qarşıdan 5 oktyabr - Müəllimlər Günü gəlir, artıq pul yığımı başlayıb. Ən azı 20 manat. Bir uşağa 20, iki uşağa 40, üç uşağı olanın vay halına - 60 manat. İnsaf da yaxşı şeydir axı, məktəb oxutmaq yox, sanki ipoteka bağlamaqdır! Mənim qənaətim budur ki, bəzi direktorlar, müəllimlər Təhsil naziri Emin Əmrullayevi saymırlar. Saymış olsaydılar, heç olmasa hörmət xətrinə onun tapşırığını pozmazdılar.

Nazirin sözlərini bir daha burda xatırladıram ki, oxumayan da oxusun, eşitməyən də eşitsin:

Emin Əmrullayev: “5 oktyabr - Müəllimlər Günü ilə bağlı məktəblərdə hədiyyə üçün və ya nağdı pul vermək üçün pul yığılması halları qətiyyən yolverilməzdir. Nazir vurğulayıb ki, bu cür hallar müəllim peşəsinə hörməti aşağı salmaqla yanaşı, rüşvət kimi qiymətləndirilir və məsuliyyət doğurur. Onun sözlərinə görə, təsdiqlənən faktlar üzrə məktəb rəhbərləri təkcə xəbərdarlıq və ya işdən azadolma ilə deyil, həm də birbaşa cinayət məsuliyyətinə cəlb olunacaqlar”.

Ancaq “balıq başdan iylənər” deyirlər. Hansı məktəbdə pul yığılırsa, hansısa özbaşınalıq baş verirsə, günahın başlıca ünvanı məhz direktorun özüdür! Çünki məktəbin içində baş verən hər şeyin məsuliyyətini daşıyan rəhbərdir. Əgər direktor istəsə, belə halların qarşısını bir günə ala bilər. Bəs nazirlik niyə yox?! Amma ya göz yumur, ya da prosesin bir parçasına çevrilirlər.

Ötən gün sosial şəbəkədə qarşıma çıxan bir valideynin sözləri də bunun bariz nümunəsidir. O, komitələrin pul toplamasını etirazını bu cür ifadə edir: “Yox, 20 manat azdır, 50 olsun, daha çox toplayaq... Nə vaxt etiraz edirsən ki, imkanım yoxdur, dərhal üzünə deyirlər: “Hər şeyə imkan var, amma müəllimə çatanda olmur? Müəllimə əziyyət çəkir.”Bəli, müəllimə əziyyət çəkir, amma axı dövlət onun əziyyətinə görə maaş verir. Rayondakı müəllimlər əziyyət çəkmir? Yalnız şəhərdəki müəllimlər əziyyət çəkir? Ali məktəblərə qəbul olunanların 90 faizi kənd uşaqlarıdır. İnanın, şəhərdə üç uşaq oxutmaq üçün gərək nazirlikdə işləyəsən. 50 manatı müəllimlər pul hesab etmir - “50 manat nədir ki, mən ona layiq deyiləm” kimi yanaşırlar. Halbuki rayonda bir plastik gül aparırsan, müəllim elə təşəkkür edir ki, sanki dünyanı bağışlamısan. Bakıda isə hər şey puldur. Sonra da deyirlər ki, orta məktəblərdə təhsil pulsuzdur.”

Bəli orta məktəblər artıq demək olar ki, korrupsiya və rüşvət yuvasına çevrilib. Bir tədbirdə nazir Emin Əmrullayevə sual verirlər ki, məktəblər də pul yığılır, bunun qarşısını necı almaq olar? Nazir belə cavab verir: “Bizim vaxtımızda da pul yığılırdı”.

Təsəvvür edin, nazir yuxarıda özünün qeyd etdiyim ki, demir ki, bunun qarşısını almaq üçün düşünürük, amma deyir ki, “Bizim vaxtımızda da pul yığılırdı”. Nazir bu cavabı ilə pul yığımına haqq qazandırmırmı? Belə olan surətdə orta məktəblərdə pul yığımı kampaniyası daha geniş vüsət götürəcək. Mən bir təcrübəli valideyn kimi bütün bunların şahidiyəm. Bir düşünün, bəzi valideynlər təkbaşına uşaqlarını böyüdürlər. Ya qadın, ya da kişi, tək baxır övladına. Bəs onlar hardan tapsın bu pulları?

Azərbaycanda normal maaşlı iş çox azdır. 10-15 faiz insan yaxşı maaş alır, qalanı sürünə-sürünə dolanır. Yeməyini-içməyini güclə çatdırır, onu da gətirib məktəbə tökür. Axı müəllimlərin maaşını dövlət verir də, daha nə istəyirsiniz?

***

...Uşaq oxumaq üçün mütləq hazırlığa getməlidir. Niyə? Məktəb oxutmaq, təhsil vermək üçün deyil??? Dövlət də məktəbli geyimlərini eyni formaya salıb ki, ayrı-seçkilik olmasın. Amma bəzi müəllimlər hazırlığa getməyən uşaqları “gözümçıxdıya” salır. Üstəlik, şərt qoyub deyirlər ki, uşaq hazırlığa getsin, amma mütləq öz müəlliminin yanına getməlidir.

Bu, artıq açıq-aydın məcbur etmədir. Qazancımızın çoxu hazırlığa gedir. Halbuki başqa ölkələrdə müəllimlər məktəbdəcə dərsi yaxşı keçir və uşaqları savadlandırır. Nənəmiz-babamız Sovet dövründə hazırlığa gedib məgər?

Bayramlarda pul yığılır. Direktor deyir ki, mənim xəbərim yoxdur. Əgər belə deyirsə, deməli, xəbəri var. Təbii ki, yığılan puldan direktora da çatır. Bunun qarşısını Təhsil Nazirliyi almalıdır, amma görünür, Emin müəllimin hələ vaxtı və həvəsi yoxdur. Məncə, nazir uşaqları xüsusi məktəb-gimnaziyalara yox, məsələn, Əhmədlidəki bir məktəbə getsə, məktəbdə tədrisin nə olduğunu gözəl bilər!

Bəzi hallarda valideynlərin özləri də günahkardır. Çünki yaltaqlıq etmək üçün qabağa düşür, “konsert” verir, başqalarını da məcbur edirlər. Bir sözlə, “Olmasaydı cahanda sarsaqlar, ac qalardı yəqin ki, yaltaqlar.”

Axırda valideynlər bezib M.Ə.Sabirin başqa şeirini deyəcəklər:

*“Uşaq mənimdir əgər, oxutmuram əl çəkin,*
*Eyləməyin dəngə-sər, oxutmuram əl çəkin”.*

**Elşad FƏRMANOĞLU**

# Tarix sizi buna görə lənətləyəcək!!!

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi məmurlara qarşı tədbir görə biləcəkmi?

**"Təzadlar" qəzeti redaksiyasına daxil olan şikayəti aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin elektron ünvanına göndərərək münasibət bildirilməsini xahiş etmişik. Lakin hələ də cavab olmadıbından aşağıda kiçik ixtisarla təqdim edirik: "Hörmətli redaksiya!**



M.Muxtarov və Nizami küçələrinin kəsişməsində yerləşən tarixi Quberniya idarəsinin binası. Əvvəlki vəziyyət



Söküntü prossesi davam edir

"Bayırşəhəri qoruyaq" təşəbbüs qrupunun rəhbəri kimi Sizə mütəmadi olaraq mədəni irsimizin incilərindən olan İçərişəhərin davamı olan Bayırşəhərin məhv edilməsinə qarşı faktlarla yazılar dərc etdiyiniz üçün təşəkkürümü bildirirəm.

Xatırladırıq ki, Bayırşəhər məhəlləsi Azərbaycan prospekti ilə M.Fətəli küçəsi ilə M.Əliyev və Nizami küçələrinin sərhəd əhatəsində yerləşən ərazini əhatə edir. Bu ərazi 150-dən çox tarixi abidələr olmaqla, tarixi abidələrin fonunda XIX əsrin sonlarında tikilən tarixi əhəmiyyətli binalarla zəngindir. Bildirirəm ki, bu ərazidə bir dənədə olsun qəzalı vəziyyətdə olan bina yoxdur. Bunu əminliklə bildirirəm.

Baş plan (Bakı-2040) işlənən zaman alman memarlar cəlb edilmişdir. Həmin memarlar ərazidə olan hər bir binanın videoçəkilişini aparmışlar. Məhz buna görə də, bu ərazi Baş planda Xüsusi Müfafizə Zonası kimi göstərilmişdir. Baş planda həmin ərazidə söküntü işləri aparılması nəzərdə tutulmamışdır.

Baş plan Prezidentin imzası və Nazirlər kabinetinin 30 dekabr 2023-cü il tarixli qərarı ilə təsdiqlənmişdir. Bu möhtəşəm ərazi indi kimlərinsə maraqlarına qurban verilərək vəhşicəsinə dağıdılır. Hətta tarixi abidə kimi Nazirlər Kabinetində siyahıya alınan bir çox evlər siyahıdan çıxarılaraq, məhv edilir.

Bildirirəm ki, dövlət büdcəsindən 2019-cu ildə bu ərazidə miyonlar xərclənərək, təmir bərpa işləri aparılmışdır. İndi həmin evlərin əksəriyyəti "qəzalı vəziyyət" damğası ilə məhv edilir. Sual yaranır: yaxşı, bəs təmir zamanı qəzalı olmasına niyə göz yumulurdu? Yaxud da, ərazi maraqlara qurban veriləndə 2019-cu ildən sonra qəzalı vəziyyətə düşdü? Bu ərazinin sökülməsi üçün isə hal-hazırda Nazirlər Kabinetinin qərarı yoxdur.

Nazirlər Kabinetinin 2018-ci ildə verdiyi 572 saylı qərarının icrasının davamı kimi, Abdulla Şaiq, Nabatxanım Aşurbəyova və Süleyman Tağızadə küçələrinin parka bitişik hissəsində söküntü aparılması üçün 38 milyon pul ayrılmışdır. Bundan istifadə edərək, Bayırşəhəri Sovetski adlandıraraq, kimlərsə nəfslərinə qurban verirlər.

### "Bakı şəhər İcra Hakimiyyətinin Nəzarət və Təftiş şöbəsinin müdiri Zülfəli İsmayılovun rəhbərliyi ilə evlər şəxsi adlara satın alınır..."

Bayırşəhərdən, sanki qisas alırlar. Bayırşəhərdə daşnaqlarla yerli əhalinin şiddətli döyüşləri olmuşdur. Ərazidə tarixi binalarda çoxsaylı gullə yerləri bu gün də gözlə görünür və bu biz sakinlərin hər görəndə yaddaşını təzələyir. Ulularımızla qurur duyuruq. Nə yazıq ki, Bayırşəhərlə bağlı əfşanələr olmasına baxmayaraq, düşməncəsinə tarixi yaddaşımız kimlərinsə tapşırığı ilə məhv edilir.

### "Cənab Prezidentin imzasına və Nazirlər Komitəsinin qərarına əhəmiyyət verməyən söküntü dəstəsi isə ərazidə meydan sulayır"

Bakı şəhər İcra Hakimiyyətinin Nəzarət və Təftiş şöbəsinin müdiri Zülfəli İsmayılovun rəhbərliyi ilə evlər şəxsi adlara satın alınır. Əhaliyə psixoloji təsir edirlər ki, dövlətlə dövlətçilik etməyin, qaz, su, işiq olmayacaq, və s. Hətta ərazidə dəfələrlə biz sakinlər günlərlə qazsız, işiqsız, susuz qalmışıq. Zülfəyi İsmayılova evlərini satmaq istəməyən sakinlərə isə divan tutulur, satın aldıqları az sayda evləri də sonradan quldurcasına dağıdaraq, ərazidə toz-duman yaradır, qazı, işiği və suyu kəsərək sakinləri Zülfəli İsmayılova evlərini satmağa təhrik edirlər. Evlər dövlət ehtiyacı adı ilə alınır deyilsə də, alqı-satqı şəxsi adamların adına alınır.

Açıqlamalarında bildirirlər ki, bu küçik bir ərazidə 150 Tarixi abidə var və ərazidə park olacaq. Ərazidə isə iki göydələn var. Parkda göydələn olması hansı tikinti standartlarına uğundur?

Biz məcburən "Bayır şəhəri qoruyaq" təşəbbüs qrupu yaratmışıq. Sakinlərdən ibarət vatsap qrupu yaradılıb. Vatsap qrupu vasitəsilə ərazidə yaşayan sakinləri marifləndiririk ki, ərazinin sökülməsi Baş planda (Bakı 2040) nəzərdə tutulmayıb. "Bayırşəhər" adlanan ərazinin Xüsusi Mühafizə Zonası olması, Nazirlər Kabinetinin ərazidə söküntü aparılması barədə qərarının olmaması, cənab Prezidentimizin imzaladığı, Nazirlər Kabinetinin təsdiqlədiyi Baş planın əleyhinə olaraq ərazidə vətəndaşların evlərinin dövlət ehtiyacları adı ilə satın alınması və ərazidə qanuna zidd olaraq söküntü işlərinin aparılması birmənalı yolverilməzdir! Eyni zamanda, "Bayırşəhər məhəlləsi tariximizdir, onu məhv etməyin!!!"- kimi vətənpərvərliyə səsləyən şuarlar ilə ərazidə müraciətlər yaymaqda davam edirik.

Hörmətli "Təzadlar" qəzetinin redaksiyası! Çoxsaylı imzalarla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, cənab Baş Nazir Əli Əsədova, Milli Elmlər Akademiyasının Prezidenti cənab İsa Həbibbəyliyə, OMBUDSMAN xanım Səbinə Əliyevaya, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri cənab Anar Quliyevə, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi xanım Səbinə Hacıyevaya, Memarlar İttifaqının Rəyasət Heyətinin sədri cənab E.Qasımzadəyə, Mədəniyyət naziri cənab Adil Kərimliyə, Dövlət Turizm Agentliyinin sədri cənab Fuad Nağıyevə, Milli Məclisin 17 saylı Yasamal üçüncü Seçki dairəsinin deputatı cənab G.Qəhrəmanova, Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Zahid Oruca, Prezidentin köməkşisi Şahmar Mövsümova və Baş Nazirin müavini Çahin Müstafayev cənablarına müraciətlər etmişik.

Tarixi abidələrin siyahıdan çıxarılmasına və sanki açıq muzey olan mədəni irsimiz Bayırşəhərin məhvinə memarlarla yanaşı, Respublikanın ziyalıları 264 imza ilə, ictimaiyyət nümayəndələri və sakinlər olmaqla, 2082 imzaları ilə müraciətlər edərək, etirazlarını bildiriblər.

Onu da deyək ki, aidiyyatı qurumlara edilən çoxsaylı kollektiv müraciətlərimizə cavablar verilmişdir ki, həmin ərazidə söküntü yox, təmir-bərpa işləri aparılacaqdır. Eyni zamanda, müraciətlərimizə ziddiyyətli cavablar da verilmişdir. Aidiyyatı qrumlardan Bakı Şəhər İcra Hakimiyyətinə daxil olan çoxsaylı imzalarla müraciətlərimiz Yasamal Rayon İcra Hakimiyyətinə göndərilib. Hətta ölkə ziyalılarının 264 imzası ilə Prezident Adminitrasıyasının rəhbəri cənab Samir Nuriyevə göndərilən müraciət Bakı şəhər İcra Hakimiyyəti tərəfindən Mənzil-Kommunal Təsərrüfatı Departamentinə göndərilmişdir. Departament sədrinin birinci müavini, Baş mühəndis tərəfindən verilən 08 may 2025-ci il tarixli cavabda göstərilir: "Bakı şəhər İcra Hakimiyyətindən Departamentə daxil olmuş müraciətinizə baxılmışdır. Bildirirk ki, müraciətdə qeyd edilən ərazidə Departament tərəfindən söküntü işləri aparılmır".

**13.03.2023-cü il tarixli** Bakı şəhər İcra Hakimiyyətindən daxil olan cavabda isə belə yazılıb: "Bildiririk ki, müraciərtinizdə qaldırılan məsələyə aidiyyatı üzrə baxılması və nəticəsi barədə Sizə məlumat verilməsi üçün tərəfimizdən Yasamal rayon İcra hakimiyyətinə məktub göndərilmişdir".

**13.03.2023-cü il tarixli** Yasamal rayon İcra Başçısının birinci müavini Hüseyn Əfəndiyev tərəfindən verilən cavabda göstərilir: "Müraciətinizlə əlaqədar olaraq bildiririk ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 572 nömrəli, 29.12.2028-ci il tarixli qərarı ilə Bakı şəhəri, Yasamal rayonunda "Sovetski" adlandırılan ərazidə bəzi yaşayış və qeyri-yaşayış obyektləri Bakı şəhərinin Baş planına uyğun olaraq dövlət əhəmiyyətli yolların və digər kommunukasiya xətlərinin çəkilməsi məqsədilə dövlət ehtiyacı üçün satın alınır. Bildirirk ki, Bakının Yasamal rayonu, Azərbaycan prospekti ilə M.Fətəli Axundov küçələri və M.Əliyev küçəsi ilə Nizami küçələrinin arasında yerləşən yaşayış sahələri QEYD EDİLƏN QƏRARIN TƏSİRİ DAİRƏSİNƏ DÜŞMÜR. Həmin ünvanların dövlət ehtiyacları üçün alınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarından sonra həyata keçiriləcəkdir. Gələcəkdə həmin ünvanlar söküntü mərhələsinə düşərsə, qanunvericiliyin tələblərinə uyğun olaraq orada yaşayan sakinlərə bildiriş göndəriləcək, eyni zamanda həmin binaların yerli əhəmiyyətli memarlıq abidələri siyahısından çıxarılması üçün müvafiq tədbirlər görülcəkdir".

**31.03.2023-cü il tarixində** Yasamal rayon İcra Hakimiyyətinin Başçısının müavini Xalid Möhbaliyev tərəfindən verilən cavab da eynidir. 29. 05 2025-ci il tarixli Yasamal rayon İcra Hakimiyyəti Başçısının Birinci müavini Hüseyn Əfəndiyev tərəfindən verilən cavabda göstərilir: "Sizin Bakı şəhər İcra Hakimiyyəti tərəfindən daxil olmuş müraciətinizə Yasamal rayon İcra Hakimiyyətində baxılmışdır. Bildirik ki, Bakı şəhər Yasamal rayonu, B.Səfəroğlu küçəsi-84 ünvanının yaxınlığında və ətrafında yaşayış və qeyri-yaşayış sahələrinin dövlət ehtiyacları üçün alınmasına başlanılmışdır. Söküntü mərhələsinə düşən binaların memarlıq abidələri siyahısında olub-olmaması dəqiqləşdirilir".

**14.07.2025-cü il tarixli** Yasamal rayon İcra Başçısının Birinci müavini Hüseyn Əfəndiyev tərəfindən verilən cavabda isə belə deyilir: "Bildirirk ki, Bakı şəhər,Yasamal rayon ərazisində yeni parkın salınması məqsədilə istismar müddəti bitmiş qəzalı olan binaların sökülməsi və həmin istismar müddətini başa vurmuş binalarda yaşayan daima köçürülmələri barədə kollektiv müraciətlər edən sakinlərin köçürülməsi istiqamətində müraciətləri nəzərə alınaraq qeyd olunan ərazidə yaşayan vətəndaşlarla bu günki bazar qiymətinə, əmlakın dəyərinə və təmir xərcinə uyğun kompensasiya ödənilməsi barədə danışıqlar aparılır. Eyni zamanda bildiririk ki, həmin ərazidə istismar müddətini başa vurmuş qəzalı və bərpa olunması mümkün olmayan bəzi binaların yerli əhəmiyyətli memarlıq abidələri siyahısından çıxarılması üçün müvafiq tədbirlər görülür".

Budur, söküntüyə könül vermişlərin niyyəti burda açılır: tarixi abidələrin siyahıdan çıxarılması üçün işlər gördüklərini eiraf edirlər. Əsas kimi də bildirirlər ki, sakinlər guya xahiş edirlər ki, evləri sökülsün. Sakinlər "Qız qalası"nın sökülməsini istəsələr sökəcəklər??? Bəs Baş plan niyə hazırlanıb? Sakinlər öz evləri barədə müraciət edə bilərlər, "Bayışəhər" barədə yox. Mən belə bir müraciətin olmasına inanmıram.

Bakı şəhər İcra Hakimiyyəti müraciətlərimizə cavab vermək əvəzinə, məktubumuzu Mənzil Kommunal Təsərrüfatı Departamentinə və Yasamal rayon İcra Hakimiyyətinə göndərərək, qanunsuz əməllərindən yayındığını gördükdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə müraciət edərək araşdırmasını xahiş etmişik. 07 iyul 2025-ci il tarixli Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Bakı şəhər İcra Hakimiyyətinə sorğu vermişdir. Sorğuda göstərilmişdir: "Şikayətdə əks etdirilmiş halların yoxlanılmasını, müvafiq tədbirlərin görülməsini və nəticəsi barədə bizə məlumat verməyinizi xahiş edirik".

**2025-ci ilin 21 iyul tarixində** OMBUDSMANIN biz sakinlərə cavabında göstərilir: "Sorğuya cavab olaraq göstərilənlərdən bilinir ki, ərazidə Bakı şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı ilə aidiyyatı qurumların nümayəndələrindən ibarət komissiya yaradılmışdır. Qiymətləndirmə bu sahədə ixtisaslaşdırılmış, lisenziyası olan müstəqil qiymətləndirmə şirkəti tərəfindən müəyyən edilir".

**10 mart 2023-cü il tarixli** Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən verilən cavabda isə yazılır: "Bildirirk ki, sözügedən ərazi ilə əlaqədar tikintiyə icazə icraatı çərçivəsində Komitəyə hər hansı müraciət daxil olmamışdır".

**28.07.2025-ci il tarixli** Memarlar İttifaqının Bakı şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova ünvanladığı məktubda bildirilir: "...və əgər ərazinin yenidən qurulması layihəsi varsa, onları bu layihə ilə tanış etmək... vacibdir" və s.

Bu isə ərazidinin layihəsinin olmamasını təsdiq edir. Baş plana nəzarət edən qrumlardan biri kimi Memarlar İttifaqında layihə olması barədə məlumatın olmaması bir daha Tarixi irsimizin incilərindən olan Bayırşəhərin kimlərinsə marağı naminə məhf edilməsini təsdiq edir.

Sonda onu da bildirirəm ki, Baş planın icrasına nəzarət edilməsində İcra hakimiyyətlərinin iştirakı nəzərdə tutulmamışdır. Dörd qrum- Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi və Memarlar İttifaqı Baş planın icrasına nəzarət etməsi göstərilmişdir. Bayırşəhər İçərişəhərin davamı kimi maqnatlar tərəfindən salınmışdır. Və biri-biri ilə harmioniya təşkil edir. Hal-hazlrda tariximizi sevənlər tərəfindən "Bayırşəhər"ə turlar təşkil edilir, hər bir Azərbaycanlının kimliyi turistlərə təqdim edilir. 30-31 iyul 2025-ci il tarxində Milli Elmlər Akademiyasında "Tarixi yerlər və abidələr 5-ci Beynəlxalq Bakı "Bayırşəhər"" simpoziumu keçirilmişdir. Simpozium "Bayırşəhər"in qorunması üçün qərar qəbul etmişdir.

Cənab Prezidentin imzasına və Nazirlər Komitəsinin qərarına əhəmiyyət verməyən söküntü dəstəsi isə ərazidə meydan sulayır. Baş plan Prezidentim imzası və Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənib. Mədəni İrsimizin incilərindən olan Bayırşəhər və burada olan abidələrin aqibəti isə hazırda sual altındadır. Nə qədər ki, gec deyil, ciddi və sərt tədbirlər görülməlidir.

**Zahidə Əzizova,**
**"Bayırşəhəri qoruyaq" təşəbbüs qrupunun rəhbəri**

# TƏZADLAR

06 (2394) 21.10.2025 www.tezadlar.az

## Həftəbecər



Müğənni sayılan Səbinə Selcanın ARB-nin "Günə uğurla" verilişində oxuyub-oynayarkən yerə yıxılması müzakirələrə səbəb olub. Çoxları da bildirir ki, qəsdən yıxılıb.

***P.S. Məcbur olub Selcanın həmin yıxılma videosuna bir neçə dəfə baxdım. Bu, heç də təsadüfi yıxılmağa oxşamırdı. Sadəcə ayağını əyib, dizini yerə qoyaraq yıxıldı. Təsadüfi yıxılmaq isə tappıltıya ilə yerə yıxılmağa deyirlər. Bu yaxınlada təsadüfi heç bir olay yoxdur. Amma yazıq neyləsin axı. Bax, Səbinə xanım adında, bu hadisəyə qədər şəxsən mən belə adda müğənni tanımırdım. Qəsdən bu yıxılma effektli oldu və mən də onu tanıdım. Hərə bir yolla gündəmə gəlməlidir, ya yox? Sənət yox, səs yox, görünür, sponsor da yoxdur. Onda əlac qalır yıxılmağa. Əşi, şou əhli xanımların çoxusunun peşəsi hara gəldi yıxılmaq deyilmi? Kimdə pul var, ora yıxılırlar. Təki gündəmdə olsunlar və pulları gəlsin dayna...***

***

Oktyabrın 9-da Rusiya prezidenti Vladimir Putin iki dövlət arasında 10 aydır davam edən gərginlikdən sonra, nəhayət, Tacikistanın paytaxtı Düşənbədə prezident İlham Əliyevlə görüşdü.

***P.S.Buna görüşmək yox, Putinin Prezident İlham Əliyevin qarşısında "sınması", əyilməsi və hesabat verməsi demək daha yaxşı olar. Ötən ilin dekabrın 25-də AZAL-a məxsus təyyarənin Rusiya tərəfindən vurulması və bunun da nəticəsində 37 nəfərin həlak olmasından sonra, Prezident İ.Əliyev Rusiya qarşısında (yəni Putinin qarşısında) əsasən 3 tələb qoymuşdu:***

**1. Rusiyanın (yəni, Putinin) üzr istəməsi;**

**2. Həlak olanların ailələrinə kompensasiya ödənilməsi;**

**3. Günahkarların cəzalandırılması.**

**Düşənbə görüşündə Putin Prezident İlham Əliyevə hesabat verirmiş kimi, hər 3 tələbi qəbul etdiyini bildirdi. Necə deyərlər, "adın nədir, Daşdəmir, yumşalarsan, yumşalı". Ən maraqlı məqam isə odur ki, görüşdə Putinin əyilmiş vəziyyətdə danışır və bu şəkil bütün dünyada yayıldı. Prezident İ.Əliyevin isə, şahanə duruşla onu dinləməsi, qəlbimizdə bir fəxarət hissi doğurdu və bir daha prezidentimizlə qürur duyduм.**

***

Oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələdə keçirilən 12-ci Zirvə toplantısında çox mühüm qərarlar qəbul edildi. Prezident İlham Əliyevin təklifi ilə TDT-yə daxil olan dövlətlərin ordularının birgə hərbi təlimləri keçiriləcək ki, bu da təşkilatın tədricən qlobal güc mərkəzinə çevrilməsini şərtləndirən amildir.

***P.S. Təbii ki, TDT tədricən qlobal güc mərkəzinə çevriləcək. Amma bu TDT-nin indidən qonşu 3 dövlətin - Rusiyanın, Ermənistanın və İranın qarınlarına sancı doldurub, başağrısına çevrilməsi artıq faktdır. Azərbaycanın TDT-yə bir illik rəhbərlik etməsi isə, bu 3 dövlət rəsmilərinin yuxusunu ərşə çəkib. Hər 3 dövlətin deputatlarının, jurnalistlərinin, siyasətçilərinin, zatıqırıq Zatulin kimilərinin TDT əleyhinə hürüşməsi dediklərimizi təsdiq edir. Amma məşhur atalar sözündə deyildiyi kimi: "İt hürər, karvan keçər". TDT karvanı artıq yola çıxıb və TURAN dövlətinin yaranmasına doğru inamla addımlayır.***



Müğənni ELİT STAR Cəmilə "Şou MTV"-yə danışan zaman özünü öyən həmkarlarına belə maraqlı ismarıc göndərib: "Maşınınızla, evinizlə, qızılınızla, hacınızla fəxr etməyin. Özünü öyən müğənnilər gərək daim üzərlərində işləsinlər".

***P.S. Ay Cəmilə xanım, sən nə qoyub, nə axtarırsan? Rəhmətliyin qızı, o müğənnilərin üzərində həcilər işləyir, bəsdir də... Daha öz üzərlərində əlavə işləsələr, gücə düşərlər, mən ölüm... Həcilər işləyir, bu müğənnilər də qabağa gedir, qabağa... Qabağa getmək yaxşı deyilmi, ay Cəmilə xanım?***

***

Qəzetlərin birində yazıya belə başlıq qoyulub: "Kontakt Home" və "Baku Electronics"-ə boykot çağırışı". Yazıda Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynova istinadən bildirilir ki, bu şirkətlərin avadanlıqları adətən "brak" çıxır. Geri qaytarılmasında, ya da dəyişdirilməsində vətəndaşlar problemlər yaşayırlar.

***P.S. Bəli, bu şirkətlərdən, ən çox da "Kontakt-Home"dən narazılıqlar "pik" həddindədir. Alınan məişət avadanlıqlarının 90%-i qısa müddətdən sonra "defekt" (qüsur) çıxır, çoxusu da zavod qüsurudur. 20 Yanvar metro dairəsindən 3-cü mkr dairəsinə doğru 50 metr gedəndə, yolun sağ tərəfində yerləşən "Kontakt-Home"nin təmir servisində yarım saat olmaq kifayətdir ki, vətəndaşların bu şirkətin mallarından, təzəcə aldıqları televizorları, telefonları, printerləri, tozsoranları, planşetləri və s. təmirə gətirdiklərinin şahidi olasan. El dilində belə bir söz var: "Adam çörək qazananda kişi kimi qazanar, namərdcəsinə yox". Bu şirkətlə və onun sahibi, sabiq deputat Elnur Allahverdiyevlə aidiyyəti qurumlar və hüquq-mühafizə orqanları ciddi maraqlansalar yaxşı olardı.***

***

Deputat Səyyad Aran Milli Məclisin ötən həftə keçirilən iclasında gileylənib ki, məmurlar onun deputat sorğusuna ya heç cavab vermir, ya da 1 ayın tamamına 1 gün qalmış cavab verirlər.

***P.S. Əgər harınlamış bu məmurlar deputatın sorğusuna da cavab vermirlərsə, bəs onda haqqı pozulan sadə vətəndaşlar başlarına haranın külünü töksünlər? Axı, cənab Prezident İlham Əliyev deyib ki, "hər bir məmur xalqa xidmət etməlidir. Xalqın birinci xidmətçisi isə, mən özüməm". Amma indi görünür ki, korrupsiyaya uğraş(mış) bu qudurğan, harın məmurlar nə xalqa, nə prezidentə, nə də deputata xidmət etmirlər. Bəs onda bu korrupsiyaçı məmurlar kimə və nəyə xidmət edirlər? Bu suala düzgün cavab tapan hüquq-mühafizə orqanı və Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarını gözəl mükafat gözləyir.***

***

Gəncə stadionunda III MDB oyunlarının bağlanış mərasimində uzun illər səhnədən uzaqlaşmış "Avroviziya" təmsilçimiz müğənni Aysel Teymurzadə çıxış etdi. Konsertdə parıltılı korset və şalvar geymiş Aysel xanıma bu paltarları yaraşdırmayan sosial şəbəkə izləyiciləri bunu günlərdir ki, müzakirə edərək, gündəmə çeviriblər.



***P.S. Belə izləyiciləri mən çay aşağı axıdım, çay yuxarı axtarım. Rəhmətliyin uşağı, şou əhli olan bu Aysel xanımın normal paltar geyinərək, səhnəyə çıxması sizi niyə qarınağrısına salır? Açıq qadın bədəni görə bilmədiniz, ona görə? Əgər açıq qadın bədəni görmək istəyirsinizsə, gedin Aygün Kazımovaya, Röya Ayxana, Tünzalə Ağayevaya, Pərvin Abıyevaya, Afaq Gəncəliyə, Aysel Əlizadəyə və s. baxın də. Səhnəyə abırlı çıxanı da müzakirə edirlər, soyunub lüt ətcəbala çıxanı da. Ətiniz tökülsün elə.***

***

Xəbər verilir ki, Röya Ayxanın keçmiş əri iş adamı Anar Cəlilov 4-cü dəfə ailə qurmağa hazırlaşır. Bu dəfə başqa bir müğənni, Nərmin Ahmetlə nigah bağlayıb, dekabrın sonlarında toy edəcəyi bildirilir.



***P.S. Pulu olmaqla deyil e, gərək adamda 1-2 qram da ağıl olsun. Adam da bu qədər evlənib boşanarmı? Amma o da var ki, məlum deyil Anar bəy arvadları, yoxsa arvadlar onu boşayır? Deyəsən, bu Anar Cəlilov evlənib-boşanmaqda kişilərin Röyası, yəni Röya Ayxanı, Aygün Kazımovası və s.dir mən ölüm. Görmüşük ki, şou əhli xanımlar tez-tez ər və ya sevgili dəyişər, Anar bəy isə, iş adamı kimi, puluna güvənib tez-tez arvadları dəyişir-.Allah saxlamış elə bil arvadları dəyişmək üzrə özünə öhdəlik götürüb. Nə deyim vallah?***



**ELÇİN**
**elcinmemmedli58@gmail.com**

**Baş redaktor: Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə (www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 2018
Çapa imzalanmışdır: 20.10.2025